Yaqub Məğrur

QEYRƏT NƏĞMƏSİ

Bakı - 2008

Redaktorlar: Məleykə Göyçəli
Nazim Tapdıqoğlu
Texniki redaktor: Gülnarə
Korrektor: Həqiqət
Dizayner: Nail Ramazanlı

Yaqub Məğrur
(Xudiyev Yaqub Əmirqulu oğlu)
QEYRƏT NƏĞMƏSİ
Bakı, "Borçalı" Nəşriyyatı, 2008. 226 səh.

"Qeyrət nəğməsi"Yaqub Məğrurun oxucularla növbəti görüşüdür. Kitabda müəllifin son bir ildə yazdığı şeirlər, epik təsvir, esse və publisistik yazılar, habelə qələm dostlarının, onun yaradıcılığına həsr etdikləri şeir və məqalələr toplanmışdır.

"Qeyrət nəğməsi" kitabındakı şeirlər sanki müəllifin Vətən ayrılığından, yurd həsrətindən doğan könül laylası, qəlb ağrısı, ürək fəryadıdır. Bu hisslər zaman-zaman yaşamaq eşqinə, həyat hayqırtısına çevrilərək, gah təlatümlü dəniz dalğası kimi şahə qalxıb çırpınır, gah da şairin ağzından yeni oyanmış vulkan kimi od-alov püskürür. Atdığı oxun ünvanını qorxmadan, çəkinmədən dəqiq göstərir, xalqımızı düşmən tapdağı altında inləyən müqəddəs torpaqlarımızın azad edilməsi uğrunda birləşib ayağa qalxmağa səsləyir, şeirləri ilə azadlıq yoluna işıq salmaqla qələm fədaisinə çevrilir.

İnanırıq ki, "Qeyrət nəğməsi" kitabı doğma yurd-yuvasından didərgin düşmüş bir milyondan çox qaçqın-köçkünlərin yurd nisgilinə, qəlb göynərtisinə az da olsa məlhəm olacaq, millətə heyrət, düşmənə nifrət hissləri aşılayacaqdır.

DUYĞULARIMIN SƏSİ



YA ALLAH! Qara qüvvələrin verdikləri mənəvi iztirablara tab gətirmək üçün mənə səbr və dözüm ver!

YA ALLAH! Satqınların sarsıdıcı zərbələrindən qorunmaq üçün mənə iradə və əzm ver!

YA ALLAH! Düşmənləri tanımaq və onlara qalib gəlmək üçün mənə müdriklik, qəlbimə təpər, qoluma qüvvət ver!

YA ALLAH! Məsləhətinə və qismətinə min şükür. Yalnız rica edirəm ki, ömrümü sağlam, ruzimi bol elə və məni xainlərin şərindən qoru!

Yaqub Məğrur 20 noyabr 1956-cı ildə Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olub.

Yurd-yuvasından didərdin düşmək Yaqub müəllimi də əlinə qələm almağa məcbur edib. Yaqub Məğrur dövri mətbuatda 1996-cı ildən fəaliyyət göstərir. "Məhsul", "Evrika", "Radikal", və.s. qəzetlərdə şöbə müdiri, redaktor və baş redaktor vəzifələrində çalışıb.

2003-cü ildə "Təhqiqat" adlı içtimai-siyasi hüqüq qəzeti təsis edib, və indi də onun nəşrini davam etdirərək Respublikamızın içtimai-siyasi həyatında xalqın haqqını tapdalayanlara qarşı qərəzsiz mübarizə aparır və hüquqi dövlət quruculuğuna mənəvi dəstək göstərir. O, eyni zamanda "Şəhidlər" qəzetinin təsisçisi və baş redaktorudur.

Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. "Xudafərin Nəğmələri" Ədəbi Birliyinin sədridir.

2007-ci ildə "Qafqaz Media" İB-nin "Peşəkar Jurnalist" fəxri diplomu ilə təltif olunmuşdur.

2006-cı ildə çapdan çıxmış "Özümü axtarıram" şeirlər kitabı DAYB-nin "Qızıl Əllər" fəxri diplomuna layiq görülmüşdür. 2007-ci ildə "Xeyirxah Tanrı diləkçisi" kitabı işıq üzü görmüşdür.

"Qeyrət Nəğməsi" Y.Məğrurun oxucularla növbəti görüşüdür. Hal-hazırda "Oğul təpəri, Vətən sipəri" povesti çapa hazırlanır.

REDAKTOR SÖZÜ

Yaqub Məğrur ömrünü şeirə, sənətə həsr edən müqəddəs həyat yolçusudur. O, söz sənətinin çətin yoxuşlarını birnəfəsə çıxmağı bacarır, enişli-yoxuşlu poeziya yollarında ilham atını çəkinmədən səyirtməyi sevir, bundan zövq alır. Onun poeziyası çağdaş şeirimizin özünəməxsus rəng çalarlı klassik soyundan güc alaraq doğmalaşıb. Bu mənada Yaqubun poetik sözü hər cür tərifdən ucada dayanır və bu poetik deyim onu sözün qüdrətli ustasına çevirir:

Yaqub idim Mərcanlıdan çıxanda,
Alazanlar şimşək kimi çaxanda.
Düşmənləri məhv eləyib yıxanda
Qoşulacam yurda öndə gedənə,
Dönəcəyəm Məğrur kimi Vətənə.

Böyük ürək sahibi olan şair artıq 15 ildir ki, doğma Cəbrayılından kənarda yaşayır. Yurd həsrəti onu göyüm-göyüm göynədir. Hər bir azəri türkü kimi, o da Qarabağ nisgilini, bu ağır həsrət yükünü ürəyinə hopdurub:

Doğma Qarabağdan qaçqın düşərək
Didərgin həyatı yaşayıram mən.
Qərib bölgələrdən ötüb keçərək
Ağır həsrət yükü daşıyıram mən...

23 avqust 1993-cü il - Cəbrayıl tarixinə qara hərflərlə yazılan bu tarix təbii ki, Yaqub Məğrurun şeir yaradıcılığına öz təsirini göstərməyə bilməzdi. Canından çox sevdiyi Cəbrayılın, doğma Mərcanlı kəndinin hər qarışına, daşına, torpağına, qayasına, düzünə, gül-çiçəyinə həsr etdiyi onlarla həsrət notlu, hicran motivli şeirləri daxilindən gələn yanğılı ifadələrlə təsvir olunur. "Dərdlərim cücərib qarlı başımda" deyən yaralı şair hər an Vətən üçün ağlayır, göz yaşı tökür:

Dəli könül, niyə ağlar qalmısan?
Kimlər toxunubdur sənin şəstinə?
Yarpaq kimi saralmısan, solmusan,
Yoxsa fələk girib sənin qəsdinə?..

Niyə qəm gölünə batıb gözlərin?
Kim çıxıb özündən aşıb həddini?
Kimin damğa vuran acı sözləri,
Yaralayıb səni, əyib qəddini?..

Ey Yaqub Məğrurun cəsur ürəyi,
Çox işlər gözləyir bizi Vətəndə.
Birlikdə olarıq xalqın gərəyi, -
Düşməni məhv edib Yurda gedəndə...

Yaqub Məğrur üçün dünyanın ən gözəl dilbər guşəsi Cəbrayıl rayonudur, onun Mərcanlı kəndidir. İndi yağı tapdağında inləyən, yüzlərlə şəhid vermiş rayon bir an da olsun onun yadından çıxmır. Vətəni Cəbrayıla xəyanət edənləri lənətləyir, yağmalanmış Vətənə Ulu Tanrıdan rəhm diləyir:

Allah lənət eyləsin
Yolu əyri gedənə!
Tanrının rəhmi gəlsin
Parçalanmış Vətənə...

"Min evli Mərcanlım, oy..." lirik-epik təsvirində sanki doğma kəndi Mərcanlının şeirlə xəritəsini çəkən şair kəndlərinin dərəsini, düzünü, məktəbini, klubunu, kitabxanasını, dəyirmanını, ayrı-ayrı adamlarını ürək yanğısı ilə sadalayır, onları xatırlayır, qısa da olsa onlar haqqında etüd şəklində ürək sözlərini deyir, qərib yurduna güzgülü çıraq tutur:

Yurdu işğal olunan,
Varidatı talanan,
Torpağı yağmalanan
Yeddi min insanlım, oy!..
Min evli Mərcanlım, oy!..

"Çoban bulaq" çağlarmı?
Həsrətindən ağlarmı?
Ürəkləri dağlarmı? -
Gözləri al qanlım, oy!..
Min evli Mərcanlım, oy!..

- deyib hayqırır, nərə çəkir, sinəsi yaralanmış, yarasına duz basılmış ulu bir məmləkətin dözülməz ağrılarını, çəkilməz dərdlərini misralara çevirir. Şair üçün vətənindən, el-obasından, ömür sürdüyü bir qarış torpaqdan müqəddəs heç nə yoxdur. Başının üstündə qara buludlar oynayan, torpağı, məhəllələri yağı əsarətində olan, çölləri, təpələri, dərələri şəhid qanına boyanan kəndinə o ağı deyib yas saxlayır:

Yoxa çıxıb sarvanın,
Xıxıb qalxmır karvanın.
Xəyanətin qurbanı,
Qapısı qurbanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Ağ evlər qatar-qatar,
Tarlası cadar-cadar.
Bəs kimlər dada çatar?-
Həsrətlim, hicranlım, oy!..
Min evli Mərcanlım, oy!..

Bəli, xeyirxah ürəkli şair doğma ana torpağı ilə, onun dərdləri, əzabları, fəla-

kətləri, nisgilləri, sevincləri, bir sözlə bütün xeyir-şəri ilə nəfəs alır, Qarabağda əsən qara yellərin mənbəyini axtarır, şəhidlərin ruhları ilə görüşür, müharibənin qara yellərinin yaratdığı ana fəryadından, körpə ah-naləsindən, yiyəsiz qalmış ocaqlardan vahimələnir, qorxur.

Doğru deyirlər ki, hər ürəyin bir nəğməsi, hər qəlbin də susmaq bilməyən bir səsi var. Yaqub müəllimin şeirləri də onun öz qəlbindən, ürəyindən gələn nəğmələr, səslərdir. Bu şeirlərdə doğmalıq, istilik, təbiilik var. Onun poeziyasında səmimi duyğular daha çox üstünlük təşkil edir, şeirlərini oxuduqca adam ruhən dincəlir. Əslində şairlər zaman-zaman ölümün, həyatın bəşəriliyindən, onların əbədiyyətə aparan müxtəlif xislətli yollarından bəhs edir. Yəni, şair varlıqla yoxluq qütbləri arasında ilham atını səyirdərək yol gedir, dünyanın gərdişini, onun ötəriliyini qələmə alır və poeziya şairi el gözündə yüksəldir, ona mənəvi yaşama haqqı verir. Bax budur şairin sərvəti. Başqa sözlə desək, şair ürəyi çırpınmalıdır ki, onun sahibini ədəbiyyata çəkib gətirsin.

Şairlər həyatda duruluq, təmizlik, tərbiyə timsalıdırlar. Onların şeirləri insanları tərbiyələndirir, düşüncəli həyata səsləyir. Yaqub Məğrur poeziyası da belədir. Onun müxtəlif illərdə yazdığı şeirləri oxuduqca

durulursan, təmizlənirsən. Onun poetik sözü xalq ürəyindən su içdiyi üçün sevilir, əzizlənir, insanı yandırıb-yaxır, mənən yüksəkliklərə qaldırır. Bütün bunlar üçün isə təbiidir ki, söz zərgəri, söz sərrafı olmaq lazım gəlir ki, bu xüsusiyyətlər də Yaqubda cəmlənmişdir.

Yaqub Məğrurun humanist məzmun daşıyan aforizmlərində vətən, xalq, dövlət, övlad sevgisi, igidlik, mərdlik, kişilik, namus tərənnüm olunur. Xeyirxah əməllərə, insanlığa layiq işlər görməyə çağırış notları, əxlaqi dəyərlər, mənəvi köklərə bağlılıq, doğruluq, düzlük, vətənpərvərlik, yurdsevərlik motivləri bu aforizmlərin əsas qayəsini təşkil edir:

Nakişilər hiylə ilə cib sökər,
Bir tikənin qarşısında diz çökər.

***

Sərxoş ümidini şəraba bağlar,
Dəm vaxtı gülərsə, ayılıb ağlar.

***

Hicran ağrısıdır ən acı ağrı,
Mənəvi işgəncə yandırar bağrı.

***

Kişi öz sözünün olsa ağası,
Həyatda çox olar dostu, qağası.

***

Ulu sözlərinə baxmayan kəslər,
Ulaya-ulaya köməyə səslər.

***

Söz vermək asandır, əməli çətin,
Onun da əsası olmaqdır mətin...

Əsil şair sənətə, şeirə düşüncə ilə yanaşır. Yaqub Məğrur da belə şairlərdəndir. O, sənət yolunun yorulmaq bilməyən cəfakeşidir. Enişli-yoxuşlu bu poeziya yollarında cəfakeş və narahat şairimizə daha yeni-yeni sənət uğurları arzulayıram.

Nazim Tapdıqoğlu (Vəlişov)
Məleykə Göyçəli

I FƏSİL

AX...,
BİÇARƏ VƏTƏNİM!

ŞİMALİ AZƏRBAYCAN
DAĞISTAN VİLAYƏTİ
GÜRCÜSTAN
ERMƏNİSTAN
İRAN
Xəzər dənizi
GÜNEY AZƏRBAYCAN

GÜRCÜSTAN
TBİLİSİ
RUSİYA
A Z Ə R B A Y C A N
Xəzər dənizi
BAKI
ERMƏNİSTAN
YEREVAN
TÜRKİYƏ
İ R A N
Naxçıvan (Azərbaycan)
Naxçıvan
Xankəndi
Laçın
Şuşa
Füzuli
Cəbrayıl
Qubadlı
Zəngilan
Qəbələ
Şəki
Şamaxı
Sumqayıt
Xaçmaz
Quba
Davaçi
Şəmkir
Gəncə
Tərtər
Ağdam
Ağdaş
Ağcabədi
Kürdəmir
Hacıqabul
Sabirabad
Biləsuvar
Cəlilabad
Salyan
Lerik
Astara
45°
48°
50°

QEYRƏT NƏĞMƏSİ

Macarıstan Apellyasiya Məhkəməsi erməni faşisti Qurgen Marqaryanı haqlı olaraq qətlə yetirən Milli Ordumuzun cəsur zabiti Ramil Səfərovun işinə 2006-cı il fevralın 22-də yenidən baxmış, Budapeşt şəhər Məhkəməsinin çıxardığı "hökm"ü qüvvədə saxlamışdır. Qarabağ müharibəsinin acı-ağrılarını öz gözləri ilə görmüş, bu elan olunmamış müharibədə 14 nəfər yaxınlarını itirmiş ordumuzun mərd zabiti vətənini, onun atributlarından biri sayılan üçrəngli bayrağımızı uca tutaraq, təhqir olunmasına yol verməmişdi...

Ümid edirdik ki, Apellyasiya məhkəməsi işə yenidən baxaraq ədalətli hökm çıxaracaq. Ancaq belə olmadı. Dünyanı öz ağuşuna almış erməni lobbisi və onların havadarları - Ramilin başına külli miqdarda pul qoyanlar nəhayət öz istəklərinə çatdılar. Onu ömürlük həbsə məhkum etdirdilər. Elə öz daxilimizdə də Ramilin hərəkətinə cinayətkar donu geyindirmək istəyənlər də tapıldı. Ancaq çox çalışsalar da, xoşbəxtlikdən xalqın Ramilə olan sevgisinin qarşısına sipər çəkə bilmədilər.

Xalqımızın qəhrəmanlıq tarixinə bir comərdlik simvolu kimi düşən Ramil Səfərovun layiq olduğu azadlığa qovuşması üçün bütün dünya azərbaycanlıları səfər-

bər olmalı və onun Budapeştdə yerləşən "erməni zindanı"ndan nəyin bahasına olursa-olsun xilasına nail olmalıdırlar. İnanırıq ki, Ramilsevər xalqımız öz qəhrəman oğlu haqqında gözəl nəğmə və dastanlar yaradacaq və gələcək nəsillərə çatdıracaqlar. Belə poeziya nümunələrindən birini oxucularımıza təqdim edirik.

Bir igid həbsdə inləyir indi,
Səbəbi - düşmənin başın kəsməsi.
Bütün dünya-aləm dinləyir indi,
Türkün Avropada kükrəyən səsin-
Ramil Səfərovun qeyrət nəğməsin.

Milli bayrağımız təhqir edildi,
Türkün cəsur oğlu məhbus edildi.
Ömürlük cəzaya məhkum edildi,
Türkün Avropada kükrəyən səsi-
Ramil Səfərovun qeyrət nəğməsi.

Qorudu bayrağı təhqirdən çətin,
Xalqımın tapdanan namus qeyrətin.
Ucaltdı millətin əzmin, qüdrətin,
Türkün Avropada kükrəyən səsi-
Ramil Səfərovun qeyrət nəğməsi.

Erməni lobbisi, macar zindanı,
Zəncirdə saxlayır cəsur insanı.
Hanı bəs ədalət, deyir bəs hanı?
Türkün Avropada kükrəyən səsi-
Ramil Səfərovun qeyrət nəğməsi.

Bu necə ədalət məhkəməsidir?
Nahaqqın Haqq üstdə "təntənə"sidir.
Xalqımın etiraz "qəhqəhə"sidir,
Türkün Avropada kükrəyən səsi-
Ramil Səfərovun qeyrət nəğməsi.

Bir gülü üzməyə əli gəlməyən,
Acı söz deməyə dili gəlməyən,
Haqsızı susmağa məcbur eyləyən,
Türkün Avropada kükrəyən səsi-
Ramil Səfərovun qeyrət nəğməsi.

Yaqub, qoyma qalsın xalq intizarda,
Qoymayaq çürüyə bu igid darda,
Hayqır ki, eşitsin kar qulaqlar da,
Türkün Avropada kükrəyən səsin-
Ramil Səfərovun qeyrət nəğməsin.

24.05.2006

SOYQIRIM GÜNÜ

Düşmən əlləriylə axan göz yaşı,
Tökülən qanıdır Azərbaycanın.
Tankların altında qalan cəsədlər
Didilən canıdır Azərbaycanın,
Soyqırım günüdür Azərbaycanın.

Yurdumda qurulan düşmən tələsi,
Rusiya-erməni, fars məngənəsi,
Vəhşi işğalçının hər "təntənə"si
Harayı, ünüdür Azərbaycanın,
Soyqırım günüdür Azərbaycanın.

Talayıb ölkəni, tökdülər qanı,
Şivəni, naləsi aldı hər yanı.
Şamaxı, Balakən, Gəncə üsyanı
Qılıncsız qınıdır Azərbaycanın,
Soyqırım günüdür Azərbaycanın.

Millətim apardı zor mücadilə,
Saysız qurban verdi, məşəqqət ilə.
Türkmənçay adlanan bir müqavilə
Çarpaz bölənidir Azərbaycanın,
Soyqırım günüdür Azərbaycanın.

Yurdu iki bölür Xan Araz çayı,
Qanlı qırğınların bilinmir sayı.
Ulu millətimin o tay, bu tayı
Qordi düyünüdür Azərbaycanın,
Soyqırım günüdür Azərbaycanın.

Dəmirqapı Dərbənd paşa qalası,
Naxçıvan, İrəvan qoşa qalası,
Tifaqı dağılan Şuşa qalası
Şərəfi-şanıdır Azərbaycanın,
Soyqırım günüdür Azərbaycanın.

Əzəldən boyanıb qana bu torpaq,
Xalqı diz çökdürən müsibətə bax.
Zəngəzur, Borçalı, Göyçə, Qarabağ
Qibləsi, yönüdür Azərbaycanın,
Soyqırım günüdür Azərbaycanın.

Təbrizdə illərlə getdi savaşlar,
Şahənşah qoymadı daş üstə daşlar.
Azadlıq ubrunda kəsilən başlar
Ruhsuz bədənidir Azərbaycanın,
Soyqırım günüdür Azərbaycanın.

On səkkizinci il mart olayları,
İyirminci ilin aprel yalanı,
Doxsanıncı ilin qanlı yanvarı,
Doxsan ikinci il fevral talanı...
Qanlı qırğınıdır Azərbaycanın,
Soyqırım günüdür Azərbaycanın.

Kəlbəcər, Ağdərə, Laçın, Xocalı,
Cəbrayıl, Xocavənd, Ağdam, Füzuli,
Xankəndi, Zəngilan, Şuşa, Qubadlı
İşğal məkanıdır Azərbaycanın,
Soyqırım günüdür Azərbaycanın.

Yaqub, qoyma qalsın yerdə bu qanı,
Harayla, hər özün kişi sayanı,
Yağının yurdumda qalan hər anı
İntiqam anıdır Azərbaycanın,
Soyqırım günüdür Azərbaycanın.

SƏLİB YÜRÜŞÜ

Doğma Qarabağdan qaçqın düşərək,
Didərgin həyatı yaşayıram mən.
Qərib bölgələrdən ötüb keçərək,
Ağır həsrət yükü daşıyıram mən.

Əllərim göylərdən asılı qalıb,
Kömək diləyirəm Tanrıdan hər an.
Qollarım qoynuma qısılı qalıb,
Bəlkə kömək ola müqəddəs "Quran".

Bir gözüm ağlayır, bir gözüm gülür,
Sinəmə dağ çəkir ölüb itənim.
Yalnız yuxularda qovuşa bilir,
Həsrətli ruhumla Ana Vətənim.

Millətim əlacsız qalıb bozlayır,
Yurduma boylanıb şişirəm, Allah!
Vücudum göynəyir, qəlbim sızlayır,
Elə bil təndirdə bişirəm, Allah!

Nə rus, nə ingilis, nə fars, fransız,
Baxmır şəhidlərin baş daşlarına.
Xaçpərəst ağalar inanır yalnız,
Dığanın yalançı göz yaşlarına.

Saxta soyqırıma çıxarıb qərar,
İndi də düşüblər Türkün üstünə.
Kürdlərin əliylə törədib terror,
İslam dünyasının girib qəsdinə.

Gedir doqquzuncu səlib yürüşü,
İslam aləminə xaçpərəstlərin.
Gəlir mənbəyidir "Şərqə" girişi,
Xristian yönlü ac hərislərin.

Ancaq nəzər salsaq uzaq keçmişə,
Hər yürüş qarşısın türklər alıblar.
İslamın xilası üçün həmişə,
Düşmən qarşısında sipər olublar.

Ehey...! Sizinləyəm, ey çoxüzlülər,
Yenə qarşınızı türklər alacaq.
Terrora "yox" deyən yalan sözlülər,
Bütün Türk dünyası birgə olacaq.

Ehey...! Sizinləyəm, riyakar kəslər,
Yaqub Məğrur hələ deyişir sözlə.
Əgər lazım gəlsə Boz Qurdu səslər,
Silaha sarılıb döyüşər sizlə.

AX..., BİÇARƏ VƏTƏNİM!

Artıq iki əsrdən çoxdur ki, ikibaşlı rus qartalı qanlı caynaqları ilə dünyanın ən zavallı xalqlarından biri olan azəri türklərinin ana yurdu Böyük Azərbaycanın onurğa sütunundan bərk-bərk yapışaraq, dəfələrlə oyanıb özünə gəlməyə çalışan əlli milyon nəfərdən çox əhalisi olan böyük bir millətin təqribən 450 min kvadrat kilometr ərazisini səkkiz yerə parçalayaraq, hər dəfə olduğu kimi bu günə qədər fars və erməni-rus şovinizminin köməyi ilə onların birləşməsinə mümkün olan hər vasitə ilə əngəl törədirlər. Cəllad xislətli yadellilərin əsarəti altında inləyən qədimdən qədim yurd yerlərimizin ümumi adlarını oxucularımızın diqqətinə çatdırmaqla bütün xalqımızı Böyük Azərbaycan uğrunda müqəddəs yolda birləşməyə çağırıram.

1. Quzey Azərbaycan
   - Dərbənd (Rusiya əsarətində)
2. Güney Azərbaycan
   - (İran əsarətində)
3. Qərbi Azərbaycan
   - İndi Ermənistan adlanır
4. Şərqi Azərbaycan
   - Müstəqil Azərbaycan
5. Borçalı-Qarayazı
   - Gürcüstan tabeliyində

6. Naxçıvan MR
   - Ana Vətənə yolu bağlı dövlət içində dövlət
7. Kərkük-Türkman vilayəti
   - İraq əsarətində
8. Qarabağ vilayəti
   - Erməni-rus hərbi birləşməsinin əsarətində

Beli bükülüb Haqqın,
Çoxdur ölüb-itənim.
Susub zavallı xalqım,
Ax..., biçarə Vətənim!

Yer üzündən siliblər,
Bütün Odər bəy-xanı.
Səkkiz yerə bölüblər,
Böyük Azərbaycanı.

Allah lənət eyləsin,
Yolu əyri gedənə!
Tanrının rəhmi gəlsin,
Parçalanmış Vətənə!

İlahi, var bir ricam,
Özün kömək ol bizə!
Bakı, Dərbənhd, İrəvan,
Tez qovuşsun Təbrizə!

Parça-parça edilən
Mənim əbədi yurdum.
Azad edər didilən,
Yurdu qəhrəman ordum.

Girişiblər qəsdinə,
Aman vermə yağıya!
Boyun əymə heç kimə,
Rusa, farsa, dığaya!

On beş ildir deyişir,
Yaqub Məğrur qələmlə.
Lazım gəlsə döyüşər,
Silah, sursat, ələmlə.

Oyan, bir qalx ayağa,
Ey millətim, ey canım!
Ol əbədi dayağı,
Bütöv Azərbaycanın!

TANRI BİZİ BAĞIŞLAMAZ

Zalım fələk sınaq edir,
Xalqımızı sağ-solundan.
İllər bir-bir ötüb gedir,
Torpaqların işğalından.

On beş ildir qalıb darda,
İnildəyir Cəbrayılım.
İstəyirəm doğma yurdu,
Azad edim ər sayılım.

Xəritəmdən qopan yarpaq,
Millətimi oyadarmı?
Qanla əldən gedən torpaq,
Sülhlə geri qayıdarmı?

Qarabağı əsarətdə
Qoyub getsək bu dünyadan,
Bağışlarmı qiyamətdə
Allah bizi o dünyada?

Olmarıqsa qisas günü
Doğma yurdun gorgahında,
Bağışlamaz səni, məni
Tanrı uca dərgahında.

KİMİN NƏVƏSİDİR

(Yalançı dil pəhləvanlarına ithaf olunur)

Kim ki, deyir bir yalanı,
Düşmənləri kəsəsidir.
Guya ki, xalq qəhrəmanı
Koroğlunun nəvəsidir.

Harda gəldi özün öyür:
-"Qolu zorlu ər oğlanam,
Nərbalayam, nərəm-deyir,
Ağ atlı bir nər oğlanam.

Kimdir axı ermənilər?
Qəbir sökən goreşənlər.
Qaniçənlər, mürgənələr,
Sonda üzə dirəşənlər.

Dağıdarıq dığaların
Dəstələrin, tifaqların.
Yox edərik cığalların
Bizə qarşı nifaqların!"

Kimdir onda doğma yurdun
Dovşan kimi qoyub qaçan?
Küçələrdə alver edib,
Bir-birini soyub qaçan.

Vallah-billah Koroğlunun
Nə övladı, nə nəvəsi
Heç bir zaman doğulmayıb.
Rövşən adlı nər oğlanın
Nə karvanı, nə dəvəsi,
Heç birisi var olmayıb.

Hamı bilir Alı oğlu
Qoç Koroğlu sonsuz imiş.
Öz xalqına olub bağlı,
Düşmənləri qansız imiş.

Koroğlu ər, ərən olub,
Ancaq hiyləgər olmayıb.
Xalqa kömək duran olub,
Heç zaman namərd olmayıb.

Doğma yurdu Çənlibeli
Darda qoyub dağ aşmayıb.
Qılınc çalıb kişi kimi,
Tüfəng ilə savaşmayıb.

Döyüş vaxtı hər zərbəyə,
Yeddi-səkkiz boyun vurub.
Çatan kimi qələbəyə,
İgidlərin toyun qurub.

Hanı indi bəs o mərdlər,
Koroğlu tək ər oğullar?
Kimə çəkib bu namərdlər,
Bu satqınlar, bu paxıllar?

Bəs kimdir bu öyünənlər,
Yurdun atıb söyülənlər,
Dil-dil ötüb deyinənlər,
Orda-burda döyülənlər?

Belə oğul yiyələri
Nə qoç, nə ər bala deyil.
Babaları, dədələri
Koroğlu, Nərbala deyil.

Belə yalan danışan kəs,
Adi paltar güvəsidir,
Belə çıxır həm də keçəl,
Daz Həmzənin nəvəsidir.

HƏMRƏYLİK GÜNÜ

Millətin şərəfi sayılan üzlər,
Dostu düşmənindən ayıran gözlər,
Xalqımın xeyrinə deyilən sözlər
İstiqlal yönüdür Azərbaycanın,
Həmrəylik günüdür Azərbaycanın.

Yüksək səviyyədə olan görüşlər,
Həmfikir xalqlarla gediş-gəlişlər,
İdxallı, ixraclı alış-verişlər
Milyonu, minidir Azərbaycanın,
Həmrəylik günüdür Azərbaycanın.

Uzanıb hər yana çatan əlimiz,
Xalqın imdadına yetən dilimiz,
Azəri adlanan bütün elimiz
Mənliyi, mənidir Azərbaycanın,
Həmrəylik günüdür Azərbaycanın.

Səhnədən çəkilir bürokratiya,
Bərqərar olunur geoqrafiya,
Yenicə qurulan demokratiya
Gələcək donudur Azərbaycanın,
Həmrəylik günüdür Azərbaycanın.

Xalqımın bölünən o tay-bu tayı,
Dünyada əlli bir milyonluq sayı,
Üçrəngli bayrağı, ulduzu, ayı
Varlığı, canıdır Azərbaycanın,
Həmrəylik günüdür Azərbaycanın.

Xaricdə yaranan diasporumuz,
Ceyhana çəkilən neft-qaz borumuz,
NATO standartlı balans ordumuz
Rütbəsi, çinidir Azərbaycanın,
Həmrəylik günüdür Azərbaycanın.

Ulu Türk vətəni olan ölkələr,
Lap qədim tarixdən gələn ilgilər,
Cənubda, şimalda qalan bölgələr
Dalanı, tinidir Azərbaycanın,
Həmrəylik günüdür Azərbaycanın.

Borçalı, İrəvan, Dərbənd məsləyim,
Bakının, Təbrizin BİRLİK istəyi,
Böyük Türkiyənin qardaş dəstəyi
Ürəyi, qanıdır Azərbaycanın,
Həmrəylik günüdür Azərbaycanın.

Millətim özünü dərk edən anlar,
Azadlıq uğrunda tökülən qanlar,
İyirmi altı fevral, iyirmi yanvar
Ölməzlik günüdür Azərbaycanın,
Həmrəylik günüdür Azərbaycanın.

Türklərin qanında qaynayan hisslər,
Xalqı azadlığa çağıran səslər,
Milləti ardınca aparan kəslər
Hayqıran ünüdür Azərbaycanın,
Həmrəylik günüdür Azərbaycanın.

Dar gündə dostlardan dəstək alması,
Müstəqil yoluna sadiq qalması,
Böyük siyasətdə zəfər çalması
Qələbə himnidir Azərbaycanın,
Həmrəylik günüdür Azərbaycanın.

Yaqub Məğrur BİRLİK deyib çağlıyar,
Ona ilham verir ulu Şəhriyar,
Nizami, Füzuli, Xəlil, Bəxtiyar
Şöhrəti, şanıdır Azərbaycanın,
Həmrəylik günüdür Azərbaycanın.

DAĞLAR

Həsrət yükü çəkə-çəkə,
Şux boynunu bükmə, dağlar!
Qarı düşmən qarşısında,
Göz yaşları tökmə, dağlar!

Hanı sənin boz qurdların,
At oynadan comərdlərin?
And verirəm, namərdlərin
Önündə diz çökmə, dağlar!

Ziyaratım, Tumas dağım,
Ey vüqar, qeyrət oylağım!
Qoyma tapdaq olsun bağım,
Nişanəmi sökmə, dağlar!

Qoyma dərsin çiçəyini,
Murdarlayar ləçəyini.
Ermənin küçüyünə,
Bir mağar da tikmə, dağlar!

Yaqub Məğrur bir gün gələr,
Yağıların köksün dələr.
Sənin də bir bəxtin gülər,
Belə həsrət çəkmə, dağlar!

SÖZ

İnsanın söz aləmi
Öz daxili dünyası.
Qaş gözlərin sipəri,
Gözsə qəlbin aynası.

İnsan görüb dinləyir,
Yalnız gözlə, qulaqla.
Gözəl çələng bağlayır,
Sözü sözə calaqla.

Titrəyir səs telləri,
Sözün incə səsiylə.
İşlədir cüt əlləri,
Söz öz kəshakəsiylə.

Beyinin təsiriylə
Əmr eləyir ayağa.
Dünya boyda bədəni
Söykəndirir dayağa.

Acı dillə deyilər,
Qəlbə yara vuran söz.
Hətta dil də əyilər,
Qarşısında duran söz.

Elə söz var insanı,
Zirvələrə mindirər.
Elə söz də olur ki,
Zirvələrdən endirər.

Deyilməzsə yerində,
Söz olur üz qarası.
Qılınc kəsən sağalar,
Sağalmaz söz yarası.

Bir dəvənin dərisi,
Ağır yükdür ulağa.
Sözün var öz qüdrəti,
Ehtiyac yox calağa.

Çıxanadək ağızdan,
İnsan sözün ağası.
Söz ki, çıxdı dilindən,
Olur başın bəlası.

Söz həyata keçəndə,
Cümlə tabe edəndir.
Fani dünya yedəkdə
Söz dalınca gedəndir.

Sözdür edən dünyanı,
Namərd, rəzil, bicqanlı.
Söz eyləyər insanı,
Comərd, igid, vicdanlı.

Sözlə hörmət qazanır,
Həyatda mərd olanlar.
Təzadlardan yaranır,
Həqiqətlər, yalanlar.

Qüdrətli söz yaranır,
Söykənəndə ağıla.
Kəlmə-kəlmə deyilir,
Söz çevrilir nağıla.

Yaranışdan olubdur,
Ağıl sözün atası.
Hamiləlikdən doğan
Dil də olub anası.

Deyilən hər bir sözün,
Yoxsa əgər kəsəri.
Gönü qalın olana,
Olmaz heç bir təsiri.

Qəlbən aqil olanın,
Sözü tükdən asılmaz.
Siyasətcil xaqanın,
Xalqı heç vaxt basılmaz.

Haqq nahaqqa inanıb,
Reallığı itirməz.
Doğru sözü yalanın,
Heç vaxt gözü götürməz.

Yığsan haqsız sözləri,
Tərəzinin gözünə.
Çata bilməz nahaqlar,
Haqqın bircə sözünə.

Nahaqqın min sifəti,
Haqqın bircə üzü var.
Yalanların önündə
Əyilməyən dizi var.

Həyatın söz ümmanın
Keçər dil söz tutanda.
Tərk eləyər gümanın,
Ömür başa çatanda.

Ölüm necə yerləşir,
Qaşla göz arasına?
Bəs görən nə məlhəmdir,
Ağır söz yarasına...?

BAYATILAR

Bu nə sirli nağıldı,
Yurdum tamam dağıldı,
Qaçqın adı sinəmdə
Çalın-çarpaz dağ oldu.

Çən gəldi çiskin oldu,
Dağ-dərə miskin oldu,
Vətəndən ayrılan gün
Bizə bir nisgil oldu.

Arazdan keçib gəldik,
Yolları açıb gəldik,
Vəhşilərin əlindən
Qurtulub, qaçıb gəldik.

Harınlar doyub qaçdı,
Milləti soyub qaçdı,
Düşmən hələ gəlməmiş
Vətənin qoyub qaçdı.

Vətəndə izim qaldı,
Yurdumda gözüm qaldı,
Əldən çıxdı var-yoxum
Bircə bu sözüm qaldı.

Başı qarlı dağ aşdım,
Dərə keçdim, bağ aşdım,
Cəbrayıldan köçkünəm
Yasamaldan danışdım.

Axıb gələn Arazdı,
Sirlər bilən Arazdı,
Bir xalqı iki yerə
Çarpaz bölən Arazdı.

Torpağın daşı yanar,
Qəlbimin başı yanar,
Vətən düşmən əlində,
Gözümün yaşı yanar.

AFORİZMLƏR

1. Günü qara olar dili gödəyin,
Söz deyə bilməsən, olmaz çörəyin.

2. Hicran ağrısıdır, ən acı ağrı,
Mənəvi işgəncə yandırır bağrı.

3.Yetişmək istəsən elmin hansına,
Ən böyük məktəbdir həyat insana.

4. Dostu olmayana qərib deyərlər,
Gözü qıpıq edib sonra döyərlər.

5. Yaşa el içində, ol el içində,
Elə öləndə də öl el içində.

6. Elin ağzı torba deyil büzəsən,
Onda gərək deyilənə dözəsən.

7. Camaat qız verdi, quda qazandı,
Mən isə qız verdim, qada qazandım.

8. El-oba yığışdı dərdi çözməyə,
Gəlin fənd işlədib getdi gəzməyə.

9. Nədənsə dinəndə hamı can olur,
Mən isə dinəndə daim qan olur.

10. Qələm əyri olsa, yenə düz yazar,
Qələmin yazdığın tək qələm pozar.

11. Qələm tutan əllər heç vaxt dilənməz,
Qələmin qiymətin bilən sülənməz.

12. Söz vermək asandır, yetirmək çətin,
Onun da əsası olmaqdır mətin.

13.Köçü qayıdanda dağdan birinin,
Axsağı irəli düşər sürünün.

14. Qılınc poza bilməz fələk cızanı,
Daim kağız udar qələm yazanı.

15. Sərxoş ümidini çaxıra bağlar,
Dəm vaxtı gülərsə, ayılıb ağlar.

16. Vaxtı boş olanın sözü çox olar,
Mərdanə insanın gözü tox olar.

17. Ulu sözlərinə baxmayan kəslər,
Ulaya-ulaya köməyə səslər.

18.Kişi öz sözünün olsa ağası,
Çox olar həyatda dostu-qağası.

19. Kolu quruyarsa o gül inciyər,
Gül də açılmasa bülbül inciyər.

20. Ağıl olmayıbdır heç zaman yaşda,
Kamillik yaranıb beyində, başda.

21. Əsil kişi el yolunda can verər,
Namus üstdə qan axıdar, qan verər.

22. Nakişilər hiylə ilə cib sökər,
Bir tikənin qarşısında diz çökər.

CƏBRAYILIN DAŞ SİPƏRİ DAŞBAŞI...

Bütün millətlərin müqəddəs dini kitablarında insanın insan meyidini təhqir etməsi günah sayılır. Ancaq ermənilər Allahın insanlar üçün buyurduğu bu müqəddəs qanunlardan kənara çıxdıqlarına görə meşə heyvanları kimi vəhşi və yırtıcı adlanmağa layiqdirlər.

Doğma torpaqları işğal olunmuş azərbaycanlı adlanan hər birimiz dəfələrlə erməni vəhşiliyinin canlı şahidləri olmuşuq.

Cəbhədə qızğın döyüşlər gedirdi. Cəbrayıl bölgəsindəki bütün mövqelərdə əsgərlərimiz düşmən hücumlarına mərdliklə sinə gərirdilər. Güclü müqavimətə rast gələn ermənilər istədiklərinə nail ola bilməyəndə bir neçə gün, bəzən də bir həftə fasilə verirdilər. Sonra qüvvə toplayıb yenidən hücuma keçirdilər. Ancaq əsgərlərimiz onların bu hücümünü də cavabsız qoymurdular.

Daşbaşı döyüşünün sağ qalan iştirakçılarından biri aşpaz Hüseynov Əzim Həsən oğlu taleyin hökmü ilə qaranlıqda ermənilərin nəzərindən yayınaraq gizlənə bilmiş və qurtulmuşdu. Onun dediklərindən:

- "Cəbrayılın ən strateji əhəmiyyətli mövqelərindən biri də Daşbaşı postu idi.



Bu mövqedə 28 nəfər gənc döyüşçü torpaqlarımızın keşiyində durmuşdu. Bir neçə gün idi ki, döyüş dayanmışdı. Erməni tərəfdə sakitlik idi. Bu zahiri sakitlik postun komandirini arxayın salmış və o, öz şəxsi işinin dalınca Cəbrayıla getmişdi. Əsgərlərimiz başçısız qalmışdı. Haradasa bundan xəbər tutan ermənilər Daşbaşı dağının sağ və sol cinahlarında boşluq müəyyən etmiş və həmin boşluqdan keçərək, gecə saat 4-5 radələrində postdakı əsgərlərimizi arxadan mühasirəyə almışdılar. Bunu hamıdan tez başa düşən Sevdimalıyev Cəbrayıl Əli oğlu komandirliyi öz üzərinə götürdü. Döyüş başlandı. Əsgərlər son patronlarına qədər döyüşdülər. Sonra əlbəyaxa döyüş başlandı.

Qüvvələr nisbəti qeyri-bərabər olsa da igid əsgərlərimiz səhərə qədər döyüşüb qəhrəmanlıqla həlak oldular.

Elə buradaca ermənilərin heyvani-vəhşilik xüsusiyyətləri özünü büruzə verdi.

Onlar son damla qanına qədər vuruşan şəhidlərimizin cəsədlərini təhqir etməyə başladılar. Əhalini xoflandırmaq üçün əvvəlcə cəsədlərin başlarını kəsir, gözlərini çıxarır, başlarının dərisini soyur, qarnını deşir, qolqıçını sındırır, kürəklərinə süngü soxur, avtomatın qundağı ilə başlarını əzir və s. vəhşiliklər törədirdilər.

Səhərisi gün Cəbrayıl və Qubadlı döyüşçüləri hücuma keçib Daşbaşı postunu ermənilərdən azad etdi və şəhidlərimizin meyidlərini dəfn olunmaq üçün doğma kəndlərinə göndərdilər.

Daşbaşı döyüşündə komandirlik edən C.Sevdimalıyev dəfələrlə Cəbrayıl özünümüdafiə taboruna hərbi rabitə qurğusu ilə müraciət etmişdi və təcili kömək istəmişdi. Ancaq təəssüflər olsun ki, onlara vaxtında kömək göndərilməmişdi".

Daşbaşı döyüşünün səhərisi Cəbrayılın digər kəndləri kimi B.Mərcanlı əhalisi də bu faciəvi hadisədən xəbər tutdu.

Kəndin yuxarı hissəsində böyük izdiham var idi. Hamı həyəcanla cəbhədən xəbər gözləyirdi. Axşam saat 17 radələrində eyni vaxtda B.Mərcanlıya maşınlarla 5 meyit gətirildi. Maşınlardan biri kəndin aşağı hissəsinə getdi. Digəri isə Suqra ananın həyətinə döndü. İzdiham maşınların arxasınca hərəkətə gəldi.

Qara yaylıqlı maşının qəflətən qapıda

dayanması evdəkiləri vahiməyə saldı. Suqra ana işi başa düşüb saçlarını yolmağa başladı. Sürücü maşının arxa kuzasını açdı. Mən maşında üstüörtülü iki meyit gördüm. Hər ikisinin üstündəki örtüyü qaldırıb baxdım. Biri Fərhadov Arif Məhəmməd oğlunun, digəri isə Suqra ananın ciyərparası İmanov Müslüm Cəmil oğlunun meyidi idi...

Balalarımızı nə günə qoymuşdular, İlahi! Belə də zülm olar? Əsgərlərimizin başına gətirilən vəhşilikləri dilə gətirməyə güclü iradə lazımdır. Hər ikisinin boğazını kəsmişdilər. Sifətləri yaman günə qoyulmuşdu. Hər ikisinin qollarındakı qanlı cırıqlar, üzlərindəki yaralar əlbəyaxa döyüşün izləri idi. Bədənlərində bir neçə yerdə süngü və güllə yaraları var idi.

Müslümün meyidini rahatlamaq üçün götürüb öz evlərinə qoyduq. Arifin meyidini isə son dəfə görüşmək üçün ata evinə apardıq. Bütün bu dəhşətləri görəndən sonra ermənilərə insan deməyə adamın dili gəlmir, İlahi!

15 avqust 1993-cü ildə baş verən Daşbaşı döyüşündə şəhid olan gənc əsgərlərimizin çoxu nişanlı idi. Onların nişan paltarları özləri ilə birlikdə kəfənə bükülüb qəbir evinə qoyuldu.

Böyük Mərcanlı kəndində böyük izdiham var idi. Böyükdən tutmuş kiçiyə kimi

bütün kənd əhalisi ağlaya-ağlaya müqəddəs torpaqlarımız uğrunda şəhid olmuş 8 nəfər igid oğlunu son mənzilə yola salırdı.

Allah onlara qəni-qəni rəhmət eləsin! Qəbirləri nurla dolsun!

Cəbrayılın işğalına isə bir həftə qalırdı...

DAŞBAŞI ŞƏHİDLƏRİ

Gecə həlak olanlar

1.İmanov Müslüm Cəmil oğlu (B.Mərcanlı kəndi)- 24.09.1969-15.08.1993

2.Fərhadov Fərhad İbris oğlu (B.Mərcanlı kəndi)- 20.06.1968-15.08.1993

3.Sevdimalıyev Cəbrayıl Əli oğlu (B.Mərcanlı kəndi)- 20.11.1966-15.08.1993

4.Fərhadov Arif Məhəmməd oğlu (B.Mərcanlı kəndi)- 1974-15.08.1993

5.Fərhadov Bayram Məhyəddin oğlu (B.Mərcanlı kəndi)- 15.10.1970-15.08.1993

6.Ağayev Ramiz Eldar oğlu - zenitçi (Cəbrayıl şəhəri) - 31.01.1973-15.08.1993

7.Əliyev Etibar İslam oğlu (Cəbrayıl şəhəri) - 12.12.1966-15.08.1993

8.Cəfərov Murad Hafiz oğlu (D.Veysəlli kəndi) - 23.04.1971-15.08.1993

9.Abdullayev Zahid Əvəz oğlu (D.Vey-

səlli kəndi) - 22.01.73-15.08.1993

10.Eyvazov Teymur Eyvaz oğlu (Soltanlı kəndi) -1967-15.08.1993

11.Yusifov Elman Bəhram oğlu (Soltanlı kəndi) - 17.06.1974-15.08.1993

12.Əmirxanov Süleyman İbrahim oğlu (Kavdar kəndi) -16.01.1973-15.08.1993

13.Fətəliyev Hafiz Məhəmməd oğlu (Şahvəlli kəndi) - 07.08.1969-15.08.1993

14.Rəhimov Mətləb Əvəz oğlu (Məzrə kəndi) - 01.02.1969-15.08.1993

15.Məmmədov Rüfət Rəvan oğlu (Maralyan kəndi) - 30.03.1970-15.08.1993

16.Kazımov Vahab Yaşar oğlu (Mahmudlu kəndi) - 1974-15.08.1993

17.Gülməmmədov Rafayıl Məhəmməd oğlu (Şəmkir rayonu) - 10.11.1966-15.08.1993

18.Hüseynov Yusif Musa oğlu (Xələfli kəndi) - 1966-15.08.1993

Gündüz həlak olanlar

1.Şəmilov Rövşən Bəhlul oğlu (Qumlaq kəndi) - 12.04.1974-15.08.1993

2.Quliyev Aydın Tapdıq oğlu (Məzrə kəndi) - 08.04.1970-15.08.1993

3.Məmmədov Faiq Fərman oğlu (Soltanlı kəndi) - 24.07.1971-15.08.1993

4.Mirimov Qərib Mehdi oğlu (Beyləqan rayonu) - 11.08.1950-15.08.1993

5.Hüseynov Həsən Hüseyn oğlu (D.Veysəlli kəndi) - 01.04.1963-15.08.1993

Daşbaşı döyüşündən sağ çıxanlar

1.Mustafayev Elşən Fərrux oğlu (Çərəkən kəndi)
2.Hüseynov Əzim Həsən oğlu (D.Veysəlli kəndi)
3.İsmayılov Əfqan Məhərrəm oğlu (B.Mərcanlı kəndi)
4.Hüseynov Şükran Orduxan oğlu (Yarəhmədli kəndi)
5.İbişov Yaşar Əvəz oğlu (Alıkeyxalı kəndi)
6.Verdiyev Zahid Hümbət oğlu (Yarəhmədli kəndi)
7.Quliyev Cəlal İsrayıl oğlu (Tinli kəndi)
8.Təhməzov Bəhmən Bəhlul oğlu (Məzrə kəndi)
9. ... Müzəffər ———...
10. ... Elsəvər ———...

EYLƏSİN

Xalqa böhtan atanlara,
Çirkablara batanlara,
Torpaqları satanlara
Allah min lənət eyləsin!

Salıblar xalqı dar günə,
Ümidliyəm mən hər günə,
Azərbaycanın dərdinə
Allah mərhəmət eyləsin!

Yurdda ölən igidlərə,
Müslüm, Fərhad, zahidlərə...,
Bizim bütün Şəhidlərə
Allah min rəhmət eyləsin!



ŞƏHİDLƏR ÖLMƏZDİ, ULUDU, MÜSLÜM!

(Qarabağ döyüşlərinin şəhid qəhrəmanı Müslüm İmanova ithaf olunur)

Bir gün nişan qoyub gözəl bir qıza,
Məhəbbət tonqalı qaladı Müslüm.
Şəhid zirvəsində dönüb ulduza,
Sevgini həsrətə caladı Müslüm.

Yurduna sevgidən şeir yazdı o,
Haqsızın niyyətin daim pozdu o,
Yağıya silahla qəbir qazdı o,
Düşməni al-qana buladı Müslüm.

Oldu Qarabağın düşmən çəpəri,
Cəbrayıl elinin sərhəd sipəri,
Qəlbində püskürdü ərlik təpəri,
Qanıyla torpağı suladı Müslüm.

Qaldı bəy gərdəyi ana əlində,
Nəğməsi ağıya döndü dilində,
Ləçəyi saralıb soldu gülün də,
Hamının qəlbini dağladı Müslüm.

Anası dilində ağı, bayatı,
Yaşayır Bakıda köçkün həyatı,
Bu ağı ananın nəmər payıdı,
Qəlblərdən silinməz baladı Müslüm.

Düşmən Daşbaşıda tökdü al-qanı,
On səkkiz igidin batdı karvanı,
Yoxsa xəyanətin olduz qurbanı?
Xainlər İblisin quludu, Müslüm!

O gecə tarixə şahid oldunuz,
Tanrı dərgahına çatdı qolunuz,
Şəhid zirvəsinə gedən yolunuz
İgidlik, ərənlik yoludu, Müslüm!

Torpağı qoruyub çəkdiniz zəhmət,
Heç vaxt qazanmadız bir tənə, töhmət.
Qoy Allah eyləsin sizlərə rəhmət!
Şəhidlər ölməzdi, uludu, Müslüm!

Ey Yaqub Məğrurun sinə yarası,
Suqranın, Cəmilin ciyərparası,
Mərcanlı elinin şəhid balası,
Adın fəth olunmaz qaladı, Müslüm!

II FƏSİL

TALEYİMİN QİSMƏTİ

VƏTƏN ÜÇÜN AĞLAYIRAM

Dəli könül, niyə ağlar qalmısan,
Kimlər toxunublar sənin şəstinə?!
Yarpaq kimi saralmısan, solmusan,
Bəlkə fələk girib sənin qəsdinə.

Niyə qəm gölünə batıb gözlərin,
Kim çıxıb özündən, aşıb həddini?
Kimin damğa vuran acı sözləri,
Səni yaralayıb, əyib qəddini?!

Gözlərin buludtək dolur, boşalır,
Axır yanağından leysan yağışı.
De görüm içində nələr yaşanır?
Gəlir qulağıma ölüm ağısı.

Nə səni sevənlər, nə and pozanlar,
Heç vaxt görməyiblər ağlamağını.
Qılıncla, qələmlə tarix yazanlar,
Həmişə görüblər çağlamağını.

Qəlbimdən bir səda gəldi bu zaman,
-"Məni düşmənlərə nifrət ucaltdı.
Didərgin saldılar eldən, obadan,
Məni qəriblikdə həsrət qocaltdı.

Ancaq boğulsam da kədər gölündə,
Əlli il nədir ki, əyə qəddimi.
Qurub yaratmaqçün doğma elimdə,
Vurub keçməliyəm düşmən səddini.

Ancaq nə etsəm də əlim yetməyir,
Əsarətdə qalan doğma yurduma.
Qadağan ediblər, azad etməyi,
Buna qadir olan milli orduma.

Haqq yolun heç zaman bağlamasam da,
Haqsızı şeirlə bağlayaram mən.
Əlli il heç zaman ağlamasam da,
İndi vətən üçün ağlayıram mən".

Ağlayıb sızlama! - dedim qəlbimə.
Olsun dəyanətin, olsun iradən!
Mən də şərik ollam dərdi-qəminə,
Gələrəm hayına dağdan-dərədən.

Ey Yaqub Məğrurun cəsur ürəyi,
Çox işlər gözləyir bizi Vətəndə.
Birlikdə olarıq xalqın gərəyi,
Düşməni məhv edib yurda gedəndə.

QARABAĞI TEZ ALAYDIM

İgidləri seçə-seçə,
Yağıları biçə-biçə,
Düşmən səddin keçə-keçə
Cəbrayıla iz salaydım,
Qarabağı tez alaydım.

Düşməyəydim bir də dara,
Boylanaydım ora-bura,
Hər obada dura-dura
Cəbrayıla iz salaydım,
Qarabağı tez alaydım.

Gəzəydim yaşıl bağları,
Yolboyu gur bulaqları,
Dolanıb yalqız dağları
Cəbrayıla iz salaydım,
Qarabağı tez alaydım.

El dərdini çəkə-çəkə,
Yurdumda ev tikə-tikə,
Alma, armud əkə-əkə
Cəbrayıla iz salaydım,
Qarabağı tez alaydım.

Yaqub, cala sözü-sözə,
Get vətənə gəzə-gəzə.
Qalib marşı yaza-yaza
Cəbrayıla iz salaydım,
Qarabağı tez alaydım.

GOR GƏZİRƏM

Yurdun sönən ocağına
Qəriblikdə qor gəzirəm.
Xəyallarda Ziyaratın
Zirvəsində qar gəzirəm.

Vəziyyəti dəyişməyə,
Siyasətdə deyişməyə,
Qarabağda döyüşməyə,
Təpər, qeyrət, zor gəzirəm.

Möhtacam bir təsəlliyə,
Çatıb artıq yaş əlliyə,
Mərcanlıya, Veysəlliyə,
Cığır açan nər gəzirəm.

Doğma yurdda evlər tikən,
Yer şumlayan, ağac əkən,
Elin ağır yükün çəkən
Cəsur, igid, ər gəzirəm.

Yansam da düşmən odunda,
Xəyalların qanadında,
Hacı Qaraman adında,
Bir müqəddəs pir gəzirəm.

Hazıram yurda gəlməyə,
Yağının köksün dəlməyə,
Gedib Vətəndə ölməyə
Bircə qarış yer gəzirəm.

Yaqub, boşa getdi oxun,
Əldən çıxdı varın-yoxun.
Heç olmasa yurda yaxın,
Haqq evində gor gəzirəm.

TALEYİMİN QİSMƏTİ

Yarı coşqun, yarı tər,
Ömür sürdüm sərasər.
Neçə ömrə bərabər
Əlli yaşın vüsəti,
Taleyimin qismәti.

Ürəyim atlandı gah,
Alışdı gah, yandı gah,
Ucaldı, şadlandı gah
Ömrümün şan-şöhrəti,
Taleyimin qismәti.

Çaldım könül sazımı,
Sevdim bir el qızını.
Çəkdi eşqin nazını
Sevən qəlbin hizmәti,
Taleyimin qismәti.

Haqdan gəldi payımız,
İki oğul, iki qız,
Üç nəvə verdi, yalnız
İlahinin xilqəti,
Taleyimin qismәti.

Aylar, illər dolandı,
Yurdum, yuvam talandı.
Köksümdə dalğalandı
Düşmənlərə nifrətim,
Tanrı verən qismətim.

Saç ağardı başımda,
Otuz yeddi yaşımda.
Düyünləndi qaşımda
Dərdimin kin-küdrəti,
Taleyimin qisməti.

Qılınc qında yatanda,
Qırx yaşıma çatanda,
Əldə qələm tutanda
Yazmaq oldu xislətim,
Tanrı verən qismətim.

Üç qəzet təsis etdim,
Haqsıza təsir etdim.
Suçlunu məyus etdi
Tənqidimin ibrəti,
Taleyimin qisməti.

"Şəhidlər" qəlb yaramdı,
"Məngənə"də arandı,
"Təhqiqat"da yarandı
Qələmimin qiyməti,
Taleyimin qisməti.

Düz yolumdan azmadım,
Heç mədhiyyə yazmadım.
Fitvalar da pozmadı
Qazandığım hörməti,
Taleyimin qismətin.

Yandırdılar sönmədim,
Düz sözümdən dönmədim.
Alçaltdılar enmədi
Qəlbimin ər qeyrəti,
Taleyimin qisməti.

Söz dünyamı yaratdım,
İlkin zirvəyə çatdım.
Paxılları oyatdı
Xainlərə heyrətim,
Tanrı verən qismətim.

Şair sözə ərk edər,
Yaratdığın görk edər.
Oxuyanlar dərk edər
Qəlbimin söz qüdrətin,
Taleyimin qismətin.

Nahaq Haqqa zor etdi,
Şeirim zühur etdi.
Yaqubu Məğrur etdi
Ömrün zora hiddəti,
Taleyimin qisməti.

İnsan gəldi-gedərdi,
Bu nə qəm, nə kədərdi.
Bəlkə yüzə qədərdi
İlahinin möhləti,
Taleyimin qisməti.

Qəlbim təbdən düşməsə,
Şeir məndən küsməsə,
Əgər əcəl kəsməsə
Gələr qalan müddətim,
Tanrı verən qismətim.

ACI TALE

Bəladan qurtula bilmirəm yenə,
Əridir cismimi ağır xəstəlik.
Fələklə nə qədər çarpışsam belə,
Dərdimə tapılmır dərman üstəlik.

Xəstə böyrəklərim süzüb "maye"ni,
Ağrılar içində baş qatışdırır.
Kristal duzlardan ildə bir dəfə,
Məni diz çökdürən daş yetişdirir.

Bu necə taledir, verilib mənə?
Həyatda həmişə girinc olmuşam.
Cərrah bıçağına son otuz ildə,
Azı yeddi dəfə məruz qalmışam.

Yaqub, gəl itirmə məğrurluğunu,
Daha gileylənmə zor taleyindən.
Tanrıdan verilən ömür qisməti,
Asılı deyildir gor mələyindən.

ƏSMƏ, ƏLLƏRİM, ƏSMƏ!

Göydən bir bəla gəldi,
Yurdumuzun başına.
Yağılar zəhər qatdı,
Millətimin aşına.

Elə tufan qopdu ki,
Hərə qaçdı bir yana.
Yalqız qalıb tərk etdim,
Vətəni yana-yana.

Sanki birdən dəyişdim,
Otuz yeddi yaşımda.
Bir əlçim qar uçaraq,
Toparlandı başımda.

Düz on üç il sərasər,
Ora-bura qaç oldum.
Qürbətdə dərd əlindən,
Vətənsiz tez qocaldım.

Ruhuma oldu hakim,
Əlli yaşda bir nəsnə.
Yazanda əsdi əlim,
Hayqırdım ki, tez əsmə!

Hələ çox işlər durur,
Qarşımda görülməmiş.
Dağıdılmış yurdumun
Evləri hörülməmiş.

Hələ doğma torpağı,
Düşməndən almalıyam.
Qovub o namərdləri,
Qələbə çalmalıyam.

İmkan ver, ay qocalıq,
Məqsədə yetməliyəm.
İnləyən qəbirləri
Ziyarət etməliyəm.

Qocalıq, ay qocalıq,
Qoy, görüm bu işləri.
Tez çıxarma canımdan,
Cavanlıq vərdişlərin.

Qocalıq, ay qocalıq,
Tez gəlməyə tələsmə.
Yaqub Məğrur deyir ki,
Əsmə, əllərim, əsmə!

VAXTI GƏLƏR

Çaqqal var ki, yırtır gödən,
Adı bədnam yazıq qurdun.
Satqınların hesabına
Əsir düşdü gözəl yurdum.

Ora-bura səkə-səkə
Düzəngahda dağ gəzirəm.
Yurd həsrəti çəkə-çəkə
Qaranlıqda ağ gəzirəm.

Yaqub Məğrur, qəm eyləmə,
Qayıtmağın vaxtı gələr.
Ruh qovuşar bədəninə,
Boz Qurdun da bəxti gülər.

HARA QƏDƏRDİR

Həyat daim olub qoşa qanadlı,
Biri sevinc imiş, biri kədərmiş.
Əlli il keçdiyim qışlı, baharlı
Günlərim oradan bura qədərmiş.

Tanrım taleyimi nurla yazmış ki,
Hikmətli sözlərlə dolsun ürəyim.
Dəyərli bir ömür yaşamaq eşqi
Yazıb yaratmağa olsun gərəyim.

Tikanlı məftillə bağlıdır qolum,
Xan Araz sinəmdən axan qan çayım.
Tapa da bilmirəm bütövlük yolun,
Bəs necə birləşsin o tay-bu tayım?

Verilib düşmənə lap dilim-dilim,
İrəvan, Zəngəzur, Göyçə, Borçalı.
Yüz altmış ildir ki, əsir edilib,
Dəmirqapı Dərbənd qəlbi yaralı.

Ay canım, səfərbər et hiddətini,
Qoyma qələminin qurusun yağı.
Süngüyə çevirib söz qüdrətini,
Azad et düşməndən Dağ Qarabağı.

Yaqub Məğrur, çalış yaz-yarat yenə,
Bəlkə də həyatın yarı qədərdir.
Zirvəyə uzanan müzəffər yolun,
Görəsən buradan hara qədərdir?
Çox güman Haqq evi gora qədərdir.

MƏN DƏ AZƏRBAYCANAM

Təbiətin öz əli
Yaradıb bu gözəli.
Muğamımın qəzəli
Ey şöhrətim, ey şanım,
Doğma Azərbaycanım.

Şirə kimi soruldun,
Sən arxadan vuruldun.
Bulanmadın, duruldun
Ey vücudum, ey canım,
Qanlı Azərbaycanım.

Nənələrin ahısan,
Qafqazımın şahısan.
Arxamızın dağısan
Ey ürəyim, ey qanım,
Canlı Azərbaycanım.

Torpaq gülür üzünə,
Altı-üstü xəzinə,
Girir düşmən gözünə
Qarabağım, Muğanım,
Şanlı Azərbaycanım.

Çayları sulu ölkəm,
Bağları dolu ölkəm.
Yolların yolu ölkəm
Ana Milim, Şirvanım,
Şanlı Azərbaycanım.

Etibarın itirməz,
Vicdanı xal götürməz.
Dosta xətər yetirməz
Təbrizim, Naxçıvanım,
Şanlı Azərbaycanım.

Qarabağı dərd olan,
Övladları mərd olan.
Azərtürkə yurd olan
Ey qüdrətli məkanım,
Şanlı Azərbaycanım.

Dağlarında izim var,
Camalında gözüm var,
Deməyə öz sözüm var.
Şairanə insanam,
Mən də Azərbaycanam.

Vüqarın var özümdə,
Qüvvətin var dizimdə,
Qüdrətin var sözümdə.
Comərdlərlə bir canam,
Həm də Azərbaycanam.

Könüllərdə dağ quran,
Qartal kimi qıy vuran,
Daim qalib tək duran
Həm qılınc, həm qalxanam,
Həm də Azərbaycanam.

Yaqub Məğrur balandır,
Tükənməz söz qalandır,
Hər vaxt zəfər çalandır.
Ey Vətənim, ey Anam,
Mən də Azərbaycanam.

DÖNƏCƏYƏM MƏĞRUR KİMİ VƏTƏNƏ

(Aynur Şahtelliyə cavab)

Çəkəmmirəm Qarabağdan gözümü,
Deyirəm hər yerdə doğru sözümü.
Bu həyatda tapmaq üçün özümü
Qartal kimi səmalarda süzmüşəm,
Dünyamızı xəyallarda gəzmişəm.

Sanki doğma yurddan tərxis olmuşam,
Dərdimdən yazmağa vərdiş olmuşam,
Vətəndə didərgin dərviş olmuşam.
Mənə ağız büzdü yoldan ötən də,
Çıxış yolum qalıb doğma vətəndə.

Yaşadım çadırda dörd il sərasər,
Çəkdim həsrət yükün xalqla bərabər,
Vətənin dərdindən oldum dilavər.
Kükrədi qəlbimin şeir təşnəsi,
Başladı sözümün döyüş səhnəsi.

Əyilmədim qarı düşmən önündə,
Susammadım riyakarlar dinəndə,
Qələm çaldım xalqın ağır günündə.
Dostlar dönməz əqidəmi gördülər,
Mənə Məğrur ləqəbini verdilər.

Qorumadıq yurdumuzu talandan,
Xoşum gəlmir mədhiyyədən, yalandan.
Cəbrayılım əsarətdə qalandan
Haqsızları haqq yolunda əymişəm,
Söz deyəndə kişi kimi demişəm.

On dörd ildir doğma yurddan azmışam,
Xainlərə çox tənqidlər yazmışam,
Satqınların niyyətlərin pozmuşam.
İradəmlə sındırmışam çoxların,
Boynu yoğun, acgöz qarnı toxları.

Fəxr edirəm doğma obam-elimlə,
Yaradıram əməlimlə, dilimlə.
Yaza-yaza qələmimlə, əlimlə
Özüm üçün söz dünyası qurmuşam,
Haqq yolunda şair kimi durmuşam.

Şair olar sözdən misra düzənlər,
Başa düşməz boş-boşuna gəzənlər.
Narahat olmasın ağız büzənlər
Dastan yaradaraq heykəl yapmışam,
Mən özümü qəriblikdə tapmışam.

Yaqub idim Mərcanlıdan çıxanda,
Alazanlar şimşək kimi çaxanda,
Düşmənləri məhv eləyib yıxanda
Qoşulacam yurda öndə gedənə,
Dönəcəyəm Məğrur kimi vətənə.

SÖZÜM VAR

Cəbrayılda izim var,
Qarabağda gözüm var.
Yağıların önündə,
Əyilməyən dizim var.

Doğma yurdun atana,
Vətənini satana,
Çirkablara batana,
Deməyə çox sözüm var.

Pozulubdu tarazım,
Bütövlükdü murazım.
Sinə dağım - Arazım,
Dərbəndim, Təbrizim var.

Qara geyim əynimdə,
Ağır yüküm çiynimdə,
Tələtümlü beynimdə,
Səbr adlı dözüm var.

Xainləri seçəndə,
Satqınları biçəndə,
Çoxüzlülər içində,
Mənim bircə üzüm var.

Yaqub Məğrur halbahal,
Sözün deyər dalbadal,
Kimsə salsa qalmaqal,
Susdurmağa nizəm var.

BADA GEDƏRSƏN

Qalmısan od ilə su arasında,
Topuqdan yuxarı diz çıxış yolun.
Qurtuluş anının say sırasında,
Ağılın, qüdrətin düz çıxış yolun.

Əgər şairsənsə elə şeir yaz,
Ağla batan olsun hər bir kəlməsi.
Şeir yazanda da elə dair yaz,
Qəlbə yatan olsun könül nəğməsi.

Qarlı zirvələrə sən gəl söz atma,
Niyyətin baş tutmaz, xəta edərsən.
Köklü çinarlara heç əl uzatma,
Barmağın ilişməz, bada gedərsən.

BEZMİŞƏM DÜŞMƏNİN LUĞAZINDAN, HEY!..

El-oba yurdundan düşüb dərbədər,
Asılıb qəlbimdən ağır dərd-kədər,
Nə qədər yazsam da gedibdir hədər,
İnciyib qələmim kağızımdan, hey!..

Hələ də didərgin adlanıram mən,
Elə bil tonqalda odlanıram mən,
Vətənsiz sınıram, qatlanıram mən,
Qin çıxmır tıxanmış boğazımdan, hey!..

Qəhərdən sevinmir daha ürəyim,
Sanki zəhər dadır halal çörəyim,
Belə yaşamaq da deyil gərəyim,
Bezmişəm düşmənin luğazından, hey!..

Namərdin iblistək yeddi üzü var,
Həyatın min əyri, bircə düzü var,
Yaqub Məğrurun da xalqa sözü var:
- Qurtulaq ilanın ağızından, hey!..

ÇADIRDAN QƏBİRƏ

(Haqq qapısı qarşısında düşüncələr)

Hələ 1993-cü ilin soyuq payız günlərində, doğma yurd-yuvalarından didərgin düşmüş məcburi köçkünlər Çadır şəhərciklərində məskunlaşdıqdan sonra əsir və itkin düşmüş ailə üzvlərini, qohum-əqrabalarını axtarmağa başladılar. Mühasirədə qalanların bir çoxları İran türklərinin köməyi sayəsində sağ-salamat gəlib çıxa bildilər. Qalanlardan bəziləri erməni vəhşilərinin əlinə keçdilər, bəziləri isə xilas olmaq üçün özlərini Arazın şıltaq suyuna vurdular. Ancaq Arazın da bu binəvalara rəhmi gəlmədi. Çoxları suda boğularaq həyatla vidalaşmalı oldular. Bəzisinin balaları suda qərq oldu, bəzisinin isə balaları yetim qaldı. Cəbrayılın Dəjəl kəndindən Sabir Həsənquliyevin ailə üzvləri isə

özü ilə bərabər suda qərq oldular. Bu ailənin yeganə sağ qalan üzvü çarəsizlikdən göz yaşlarına güc vermişdi. Ayrı nə əlacı vardı ki...

4 saylı Çadır şəhərciyindən İmişliyə gedən yolun 7-ci kilometrliyində yerləşən Qızılkəndə çatanda yolun sağ tərəfində kənardan diqqəti cəlb edən iri bir xiyaban görünür. Əslində bura xiyaban deyil, yaşıllıqlara qərq olmuş kiçik bir "şəhər"ciyi, başdaşları isə bu yaşıllıqlar içərisindən göylərə ucalan göydələnləri xatırladan kənd qəbiristanlığıdır.

Yolda ölənlərin və suda boğulanların cəsədlərini (Allah hamısına rəhmət eləsin!) tapıb gətirən yaxın qohum-əqrabaları onları dəfn etmək üçün yer axtaranda, İmişli rayonunun Qızılkənd kəndinin camaatı humanistlik göstərərək bu günahsız Vətən qurbanlarına öz qəbiristanlıqlarında yer verdilər. Beləliklə Qızılkənd qəbiristanlığının yanında yeni bir Böyük Mərcanlı məzarlığı yarandı. İndi evlərimizi tərk edəndən bəri yüzlərlə Haqqın dərgahına qovuşan həmkəndlilərimiz yeni qonşuları - Qızılkəndli rəhmətliklərlə birlikdə uyuyurlar.

Mən həmişə bir iş dalınca gedəndə yolumu həmin müqəddəs qəbiristanlıqdan salır, bütün dövrlərdə şüurlu yaranmışların ən dahi şəxsiyyəti müqəddəs peyğəm-

bərimiz Məhəmməd Salavatullahın dilindən bir "Fatihə" duası oxuyur, qəbirlərin hamısını ziyarət edir, sonra da burada uyuyan rəhmətlik atamdan xeyir-dua alıram.

Budur, yenidən yolum bu tərəfləridir. Məzarlığa dönürəm. Darvazanı açıb bu müqəddəs ruhlar şəhərinə daxil oluram.

Salam, ey Allahın nakam bəndələri! - deyib dururam. Qarşıma çıxan bu ilk qəbir evi kimindir görəsən? Məzarın baş tərəfində ucalan daşın üzərində gülümsər çöhrəli cavan bir oğlanın şəkli həkk olunmuşdur. Şəklin altındakı yazını oxuyuram: Səmədov Sabir Əvəz oğlu. - Xoş gördük, ey torpaq uğrunda minaya düşüb həlak olmuş şəhid həmyerlim! Allah sənə və sənin kimi Vətən uğrunda cavan canlarını qurban vermiş bütün şəhidlərimizə rəhmət eləsin!

Şəhərciyi gəzirəm. Hər bir "Ev"in "Haqq qapıları" qarşısında dayanıb bir dəqiqəlik sükut edir, onlara rəhmət diləyirəm. Budur növbəti qəbir evi. Baş daşı üzərində "Qarayev Allahyar İsrafil oğlu" sözlərini oxuyanda istər-istəməz o qaçha-qaçlı günlərimiz yadıma düşür. - Salam, ey suda qərq olub iki balası yetim qalan, boğulandan 38 gün sonra gömgöy cəsədi tapılıb torpağa tapşırılan növcavanım! Allah sənə rəhmət eləsin!

Nəhayət rəhmət oxuya-oxuya yuxulu adamlar kimi bir anda ayılıram ki, mənim üçün Pirə dönmüş "Qəbir Evi"nin qarşı-

sındayam: Xudiyev Əmirqulu Məstalı oğlu - Salam, ey məni bu nahaqq dünyada atasız qoyub gedən kişi! Xoş gördük, ey "41-45"-in od-alovundan keçən, dəfələrlə erməni vəhşiliklərinin şahidi olan igid! Canavar sürüsü kimi Bazarçay dağlarında obaya soxulmuş bir sürü erməni dığasını, bir neçə azəri türkü ilə birlikdə, əlində çomaq atdöşü eləyib yuvasına qədər qovan qəhrəman! 4 yaşından ata-anasız, bacı-qardaşsız böyüyən, əsrin yaşıdı olan atam mənim! İki il çadırda həsrətlə inlə-

yən, Vətən dərdinə dözməyib ürəyi partlayan ağsaqqalım mənim! Mən cərrahiyyə əməliyyatına məruz qalıb xəstəxanada yatanda gecə anamın yuxusuna girmisən, ondan mənim vəziyyətimi soruşmusan, canım mənim!

Sağalandan sonra özüm gəlmişəm ayaqlarına. Səni arzusunda olduğun doğma yurdunda torpağa tapşıra bilmədiyim üçün bağışla məni! Bir neçə gün əvvəl anam da bu dərdə dözə bilməyib, birdəfəlik sənin yanına ikinci dəfə gəlin köçdü. Muğayat ol ondan, atam mənim! İndi isə icazə ver, anamın yenicə köçdüyü qəbir evini ziyarət edim.

Atamın qəbirindən iki addım sağ tərəfdə anamın qəbir evi qarşısında diz çökürəm. Salam, Anacan! Atam İkinci Cahan müharibəsində olanda evimizin həm kişisi, həm qadını olan, o qanlı-qadalı illərdə bir gözü cəbhədə ola-ola balalarının üstündə əsim-əsim əsən, kiprikləri ilə od götürən anam mənim! Şeytan xislətli vəhşi ermənilərin kəndimizə hücumu zamanı mənsiz kəndi tərk etməyən, "sənin-lə qalıram, sən ölsən öləcəyəm, qalsan qalacağam" - deyərək mənimlə birlikdə ağlaya-ağlaya kəndimizi tərk edən qəhrəmanım! Qarabağ döyüşlərində şəhid olan nəvən Müslümün qəbrini heç olmasa son dəfə ziyarət etmək istəyirdin. Sinəsində

qardaş dağı, nəvə dağı olan, arzusu gözündə qalan, çadırda ailə başçısını itirib başsız qalan Saçlım mənim!

Taleyin işinə bir bax. Rəhmətə getməmişdən iki gün öncə xəstəxanaya yanıma gəlmişdin. "Niyə əziyyət çəkirdin?" - sualıma "ay bala, birdən ölüb eləyərəm, gəldim ki, sənlə görüşüm" - deyə sənə əyan olubmuş kimi cavab verdin. Mənə doyunca baxandan sonra öpüşüb ayrıldın. Yanımdan qayıtdığın günün axşamı, gecə atam sənin yuxuna girib. Səndən mənim vəziyyətimi soruşanda sən "yaxşıdır" demisən, mehribanım mənim!

Sən bu yuxunu görən vaxtda mən də xəstəxanada yuxumda səni gördüm. Gördüm ki, gözəgörünməz iki əl məni boğur. Nə qədər çalışdımsa da bu əlləri boğazımdan qopara bilmədim. Son nəfəsimdə xırıltı səsimə qonşu yataqdan ağ paltarda sən qalxdın. Otağın işığını yandırdın. İşıq yanan kimi o əllər məni buraxıb yox oldular. Məni yenidən həyata qaytardın. Bu bədheybət yuxunu gördüyüm gecədən sonrakı günün axşamı çadırda oturub nəvələrinlə söhbət etdiyin zaman heç bir xəstəliyin olmaya-olmaya, gecə saat 23-də qəflətən kəlmeyi-şəhadətini oxuyub həyatla əbədi olaraq vidalaşmısan. Elə bil ki, ölümü hiss edirmişsən, həmişə şəklimi tumarlaya-tumarlaya "barı Yaqub tez sa-

ğalıb gələydi, heç olmasa onun sağaldığını öz gözlərimlə görəydim" deyirmişsən, canım mənim. Əcəl buna da imkan vermədi.

İndi budur, sağalıb öz ayağımla sənin görüşünə gəlmişəm. Budur, sənin Haqq Dünyasına qədəm qoyduğun o dar məzar evinin qapısı qarşısında hüzurundayam. Ancaq bu qapılar bağlıdır, əlim sənə çatmır... Aç qapını, başını qaldır, oğlunun sağalaraq sənin görüşünə gəldiyini öz gözlərinlə gör. Son nəfəsində Yaqub, Suqra deyə-deyə Allah Dərgahına qovuşmusan. Şəhid nəvən Müslümün anası Suqra da Bakıdan dəfn ziyarətinə gəlmişdi. Üç gün ağlayıb göz yaşları içində Bakıya qayıtdı. Mənim cismimdə yaşayan ruh mənimki deyil, sənindir, anam mənim! Axı, o gecə yuxuda mən öləcəkdim. Səhərdən otağıma gələn həkimlər görəcəkdilər ki, Yaqub yatıb, yuxudan ayılmadan Haqq dünyasına köçüb. Ancaq sən buna imkan vermədin. Otağımın işığını yandırmaqla mənim həyat çırağımı yenidən yandırdın. Əcəlin əllərini mənim boğazımdan qopardın. Bu da ona acıq gəldi. Elə növbəti gecə mənim əvəzimə səni apardı. İndi borcunu qaytarmağa gəlmişəm. Qalx ayağa, axı bu dəhşətə dözə bilmirəm. Əmanətinə yiyə dur, mənim öz yerimi özümə ver..!

Əgər verməsən ömrümün sonuna qədər boğazıma tıxanmış o qəhəri çıxara bilməyəcəyəm. Həmişə narahat yaşayacağam. Nə qədər əzablı olsa da, həm sənin, həm atamın, həm də özümün əvəzinə yaşayacaq, sizin həyata keçməyən arzularınızı reallaşdırmağa çalışacağam.

Rahat yatın, yenidən görüşənədək, anam mənim, atam mənim! Allah Sizə, bu müqəddəs məzarlıqda uyuyan bütün Haqq adamlarına qəni-qəni rəhmət eləsin! Qəbriniz nurla dolsun!

07.01.1998.

III FƏSİL

MİN EVLİ MƏRCANLIM, OY!..

(Təsviri epopeya)

I HİSSƏ

Yurdu işğal olunan,
Varidatı talanan,
Torpağı yağmalanan,
Yeddi min insanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Araz boyu uzanan,
"Böyük" adı qazanan,
Tarixlərə yazılan,
Comərd adlı-sanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Qonşu dara düşəndə,
Çətinlikdən keçəndə,
Müraciət edəndə,
Əl tutan mərd canlım, oy!..
Min evli Mərcanlım, oy!..

Yoxa çıxıb sarvanın,
Xıxıb, qalxmır karvanın,
Xəyanətin qurbanı,
Qapısı qurbanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Aldılar torpaqları,
Can bölündü tən yarı,
Görmədik düz ilqarı.
Tez qocalan canlım, oy!..
Min evli Mərcanlım, oy!..

Həsrətdi bağçan gülə,
Əl açmır gül bülbülə.
Dillənmir bülbül belə.
Qızılgül güldanlım, oy!..
Min evli Mərcanlım, oy!..

"Çoban bulaq" çağlarmı,
Həsrətindən ağlarmı,
Ürəkləri dağlarmı?
Gözləri alqanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Ağ evlər qatar-qatar,
Tarlalar cadar-cadar,
Bəs kimlər dada çatar?
Həsrətli yurdcanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Su gəlmir bağ-bağçana,
Bəhər verə boxçana,
Odlarda yana-yana,
Araz oldu qanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Qadirdin hər bilgiyə,
Yaraşıqdın bölgəyə,
Səs salmışdın ölkəyə,
Şöhrətlim, oy..., şanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Eşq olsun babalara,
Xudu, Məstalı, Qara,
Rəhmət olsun onlara...
Rəhimli, Rəhmanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Nənələr boyu bəstə,
Allahyetər, Növrəstə,
Nəvələr dəstə-dəstə,
Ülvi qohumcanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Atam Əmirquluydu,
Üzü nurla doluydu,
Yolu sənət yoluydu.
Lay-lay Vətəncanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Sözünə bal qatardı,
İstəyinə çatardı,
Kasıba əl tutardı.
Ağ atlı mərdcanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Mənim anam Saçıydı,
Xalqa ana-bacıydı,
Başımızın tacıydı.
Lay-lay istiqanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Çoxuşaqlı anaydı,
Atam onun xanıydı,
Canımızın canıydı.
Sinəsi ordenlim, oy...
Min evli Mərcanlım, oy!..

İtkini on dörd ərən,
Əlli bir şəhid verən,
Varmı belə kənd görən?
Şəhid Xiyabanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Vardı Mığdət Çələbi,
İslam idi tələbi,
Kəsərliydi qələmi.
Lay-lay din-imanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Fatma, Aşa Çələbi,
El-obanın məlhəmi,
Dualıydı qələmi.
Dərdlərə dərmanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Mamed müəllim meyardı,
Həmzə din-ixtiyardı,
Teyyub da din yayardı.
Lay-lay İslam canlım, oy!..
Min evli Mərcanlım, oy!..

Molla İsa elində,
Duaçıydı dilində,
El qalxardı gələndə.
Samballım, batmanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Kəndin yeni mollası,
İbrahimin duası,
Məclislərin ağası
Əlləri "Quran"lım, oy!..
Min evli Mərcanlım, oy!..

Sakinlər işgüzardı,
Əkinçi yer qazardı,
Şair şeir yazardı.
Ziyalı məkanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Çərkəz Məcid şairdi,
Sözün düzün deyirdi,
Riyakarı əyirdi.
Qeyrətli, vicdanlım, oy!..
Min evli Mərcanlım, oy!..

İmanzadə İsmayıl
Yazaraq xalqa dair,
Oldu tanınmış şair.
"Ümid"lə yazanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Şair Hüseyn Əfəndi,
Sazı, sözü sevəndi,
Daim xalqa güvəndi.
Lay-lay şeir canlım, oy!..
Min evli Mərcanlım, oy!..

Şair Vaqif Bayatlı,
Olub gərgin həyatlı,
Yaşayır ehtiyatlı.
Sinəsi dərdcanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Səfir oldu bir vaxtı,
Türkiyədə Qaryağdı,
Təhsildə də bir dağdı.
Üzüağ nurcanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Deputat Abasqulu,
Keçibdir çətin yolu,
Bu yol da Haqqın yolu.
Hörmətli, ad-sanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Baş nazir müavini,
"Qaçqınkom"un sədiri,
Olub Həsənov Əli.
Köçkünlüm, qaçqınlım, oy!..
Min evli Mərcanlım, oy!..

Astan millət vəkili,
Xalq tərəfdən seçili,
Alimlikdir əməli.
Məclislim, orqanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Xatırlarıq İdrisi,
"Textəminat" rəisi,
Əla idi hər işi.
Həyat firavanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Möylüş işlər vergidə,
Təftiş edər sərgidə,
Xanış da ön cərgədə.
Hakimlim, idmanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Məhərrəm dağ kimiydi,
Mərcanlı sakiniydi,
Zərdabın hakimiydi.
Lay-lay Şəhid qanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Prokuror Mirələm,
Ad almışdı bir aləm,
Davam edir Nuraləm.
Hüquq qoruyanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Yaqub gömrükdə durdu,
Vaqif prokurordu,
Sabir maliyyə qurdu.
Ziyalı imkanlım oy!..
Min evli Mərcanlım, oy!..

Fərmayıl bir dənədi,
Yönü qamın yönüdü,
Təsdiqləyir sənədi.
Surət çıxaranlım, oy!..
Min evli Mərcanlım, oy!..

Var idi Xanış kişi,
Öz evində keçmişi,
Dərs demək olub işi.
Maarif pərvanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Kimya alimi Qürbət,
Qalıb yurduna həsrət,
Eyləyir elmi söhbət.
Elmli, ürfanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Üç məktəbdi təsəllim,
İki minlik məktəblim,
Vardı üç yüz müəllim.
Ziyası nurcanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Bir direktor Malçıydı,
Yaxşı ədəbiyyatçıydı,
Şagirdlər əlaçıydı.
Məktəbi viranlım, oy!..
Min evli Mərcanlım, oy!..

Bir direktor Muxtardı,
Əla tədrisi vardı,
Şagirdlər bəxtiyardı.
Məktəb uşaqcanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Məhəmmədəli müəllim,
Direktordu çox həlim,
Verərdi əla təlim.
Məzarı giryanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Xanhüseyin müəllim,
Əməli xalqa məlum,
İnsan idi mülayim,
Lay-lay fizikxanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Var bir Osman müəllim,
Elmdə gəlhagəllim,
Riyaziyyatda alim,
Hesabda düzcanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Vardı müəllim Hümbət,
Qazanmışdı çox hörmət,
Allah eyləsin rəhmət.
Uca boy-buxunlum, oy!..
Min evli Mərcanlım, oy!..

Mirələmin izləri,
Dediyi düz sözləri,
Tökdü xain gözləri.
Lay-lay hörmətcanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Var bir müəllim Əli,
Özü də çox cüssəli,
Gedər yalnız irəli.
Qələmli, jurnallım, oy!..
Min evli Mərcanlım, oy!..

Musiqi məktəbi vardı,
Baxış da tar çalardı,
Oruc zilə qalxardı,
Lay-lay qavalxanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Sədilinin zil səsi,
Avazı, zənguləsi,
Məst edərdi hər kəsi.
Təsnifli, muğamlım, oy!..
Min evli Mərcanlım, oy!..

Uşaq bağçası vardı,
Cocuqlar bəxtiyardı,
Şəfiqə işgüzardı.
Lay-lay bağçacanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Vardı beş kitabxanan,
Üç qatlı xəstəxanan,
Üç iri bərbərxanan.
Nümunə məkanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Həsən kivrə bəyandı,
Kitabları yayandı,
Oxucuya həyandı.
Jurnal, kitabcanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Rəna, Sabir baş həkim,
Hüseynqulu dişçəkən,
İnsanlar xəstə ikən,
Ümidli, ünvanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Edərdi bərbərlərin,
Xalqa öz xidmətlərin,
Usta Qürbət didərgin.
Bəbirlim, Eyvazlım, oy!..
Min evli Mərcanlım, oy!..

Yusif İslam ümməti,
Edə-edə sünnəti,
Qazanır o, Cənnəti,
Bərbər adlı-sanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Bayram eskiz çəkərdi,
Gözəl paltar tikərdi,
Bağçada gül əkərdi.
Lay-lay sənətcanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Çörək sexlərin vardı,
Rəqabət aparardı.
İsti çörək satardı.
Bərəkət məkanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Vardı yeddi dükanın,
Geniş uzun məkanın,
Üç böyük restoranın.
Cah-cəlallı şanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Vardı bir Qaçay dayı,
Al-verdə yoxdu tayı,
Hər ərzağı, qənd-çayı.
Bol olan dükanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Vardı bir İsaxana,
Arx üstdə kababxana,
Səs salmışdı hər yana.
Hər an qonaqcanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Rizvanın da ad-sanı,
Bürümüşdü hər yanı,
Varıydı restoranı.
Qonaqlı məkanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Ülkərin də bufeti,
Bişirib qoyun əti,
Verərdi dolma, piti.
Lay-lay yeməkxanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Əliş ilə Yadigar,
Əla baş aşbazdılar,
Xeyir-şərdə vardılar.
Xeyirxah el-canlım, oy!..
Min evli Mərcanlım, oy!..

Çayçı Fehruzun payı,
Kökotulu tünd çayı,
İçsən olmazdı sayı.
Armud istəkanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Vardı işıqçı Sədi,
Yenə həmin işdədi,
Çoxdu onun zəhməti.
İşıqlı, nurcanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Vardı bir işıq Əhməd,
Montyor Tofiq, Ərşad,
Eylədilər xalqı şad.
Nur paylayan sanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Var idi Şamil kişi,
Dəqiq idi hər işi,
Stansiya rəisi.
Dəmir intizamlım, oy!..
Min evli Mərcanlım, oy!..

Dəmir yolu vağzalı,
Rəisi Ərşad dayı,
Rəhbərlikdə yox tayı.
Dəmiryol nizamlım, oy!..
Min evli Mərcanlım, oy!..

Sovet sədri Kamilin,
Unutmarıq əməlin,
Qəlbində yaşar elin.
Dinib gurlayanım, oy!..
Min evli Mərcanlım, oy!..

Sovet sədri Qeybulla,
İşlədi halbahalla,
Ad qazandı mahalda.
Qərib qəbristanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Hümbət sovet katibi,
İdarənin sadiqi,
Məclislərin natiqi
Bir dilavər canlım, oy!..
Min evli Mərcanlım, oy!..

Var idi Tapdıq kişi,
Sovetin müfəttişi,
Yun yığmaq idi işi.
Lay-lay düz mizanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Həsrət reydə çıxardı,
Xalqına sığınardı,
"Tüstü pulu" yığardı.
Vergini yığanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Sovet sədri Fəxrəddin,
Qazanıb xalq hörmətin,
Davam edir xidmətin.
Möhürlüm, fərmanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Mustafa da kargüzar,
İndi də çox işgüzar,
Ancaq arayış yazar.
Qələmli, jurnallım, oy!..
Min evli Mərcanlım, oy!..

Vardı iki kolxozun,
Parlayan cüt ulduzun,
Qarantıydı bolluğun.
Viran xanədanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Bir kolxozun "Füzuli",
Sədr qoyduq Veysəli,
Sonuncu sədri Pəli.
Bayraqdar ürfanlım, oy!..
Min evli Mərcanlım, oy!..

"Həzi Aslanov" kolxozu,
Var idi imtiyazı,
Sədr Əlidən el razı
Əmrli, fərmanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Hümbət kolxoz sədiri,
Tehran suyun müdiri,
İsa paylar fətiri,
Lay-lay Hürcahanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Vardı Ağayev Qərib,
El üçün çox iş görüb,
Kolxoz sədri işləyib.
Zəngin xanimanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Aqronom Hüseynqulu,
Tutdu becərmək yolu,
Çoxaldardı məhsulu.
Sakini imkanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Var idi Əli kişi,
Haylı-küylü gərdişi,
Canlandırardı işi.
Ferması ad-sanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Mal-qaranın oylağı,
Əti, südü, qaymağı,
Üzlü pendiri, yağı.
Örüşü heyvanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Qoyun-quzu mələrdi,
Yaylağı Kəlbəcərdi,
El yaylağa köçərdi.
Qışlağı Aranlım, oy!..
Min evli Mərcanlım, oy!..

İsrafil yoxdur daha,
İbixan çıxmır dağa,
Qrişa getmir yaylağa,
Lay-lay Xan Çobanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Mirələmin təpəri,
Özü düşmən çəpəri,
Oldu elin sipəri.
Lay-lay mərd çobanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Vardı toyuq ferması,
Cəbrayılın firması,
Ətiylə yumurtası.
Bol olan ünvanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Min hektardı bağların,
Yamacların, yalların,
Asfalt-beton yolların.
Örüşlü, ormanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Qızlar üzüm yığardı,
Sağıcı süd sağardı,
Bayram yeri mağardı.
Nəğməli, ozanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Xanmirzəylə Hüseyin,
Sarı, Fehruz və Kərim,
Deyərdi üzüm dərin!
Kələsər məkanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Vardı bir Fehruz kişi,
Yeyib-içmək vərdişi,
Ot yığdırmaqdı işi.
Yoncalı, samanlım, oy!..
Min evli Mərcanlım, oy!..

İnşaatın sərvəri,
Vaqif idi rəhbəri,
Çox idi fəhlələri.
Lay-lay yurd quranlım, oy!..
Min evli Mərcanlım, oy!..

Var idi usta Fikrət,
Bir də usta Məhəmməd,
Yapardılar imarət.
Qurub-yaradanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Bir oymaçı sənətkar,
Usta Seyfəddin də var,
Ağac üstdə can yapar.
Sənət yaradanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Var idi Səfəralı,
Kanalın su civarı,
Bölgənin "dev" adamı,
Nəhəng pəhləvanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Vardı bir Nazı nənə,
Bağlı idi vətənə,
Hörməti vardı mənə.
Lay-lay mehribanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Vardı Qızyetər ana,
"Ata"ydı Ramazana,
Həm anaydı Zamana.
Ədəbli, ərkanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Vardı bir Hüsən əmi,
Qoymazdı yaxın qəmi,
Kef açardı həmdəmi.
Son evi Sarxanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Var idi qonşu Yusif,
Savadlı bir mühasib,
İnsan idi münasib.
Lay-lay mehirqanlım, oy!..
Min evli Mərcanlım, oy!..

İmamqulu dinəndə,
Zövq verərdi güləndə,
Sanki Bəhlul Danəndə.
Lay-lay yumorqanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Bir de görüm, dön bəri,
Hanı fətir təndiri,
Saybalının pendiri?
Həsrətlim, hicranlım, oy!..
Min evli Mərcanlım, oy!..

Gülmağanın tonqalı,
Kabab dolu manqalı,
Getmir damaqdan dadı.
Qapısı bəy, xanlım oy!..
Min evli Mərcanlım, oy!..

Vardı hamamçı Əhməd,
"Şənbə-bazarda zəhmət"
Çəkib qazandı hörmət.
Səliqə-sahmanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Qaz Fərman az yatardı,
Qazı qaza qatardı,
Qaz balonu satardı.
Yanacaq gümanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Oruc, Ustuq, Nayfalı,
Fırladıb kirkiranı,
Üyütdülər buğdanı.
İki dəyirmanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Məmiş salıb çıxığı,
Bitirərdi sınığı,
Aidənin sarığı
Davam edən şanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Bir Uzun Qərib vardı,
Daim benzin satardı,
Məntəqədə yatardı.
"Yanacaq kalanlım", oy!..
Min evli Mərcanlım, oy!..

Vəli poçtun birində,
Gülxanım digərində,
Mələk də o birində.
İşləyən işcanlım, oy!..
Min evli Mərcanlım, oy!..

O poçtalyon Hüsənin
Unudulmaz səsinin,
Vurğunuyduq sözünün.
Qəzet paylayanlım, oy!..
Min evli Mərcanlım, oy!..

Boyardı Tutu xala,
İpləri bala-bala,
Xalça sərərdi yola,
Palazlı, kirmanlım, oy!..
Min evli Mərcanlım, oy!..

(Davamı olacaq)

IV FƏSİL

TƏSVİRLƏR, TƏRƏNNÜMLƏR, TƏBRİKLƏR

ARZULARIN ÇİN OLSUN

(Dostum Fərzalıya ithaf)

El şairi, haralarda gəzirsən,
Görünmürsən son zamanlar gözümə.
Bilmirəm ki, kimdən, nədən yazırsan,
Mat qalmışam səndəki bu dözümə.

Sənin sözlərinlə soruşuram mən,
"Vətənə getməyin vaxtı deyilmi?"
Bəc niyə bu qədər yazıb pozuruq,
Yenə də yuxudan millət ayılmır.

Bulud arxasından boylanan günəş,
Bəs haçan parlayıb işıq saçacaq?
Cəsur igidlərim qovub "hay"ları,
Qarabağ düyünün nə vaxt açacaq?

Ötüb Cəbrayılın xan Çinarından,
Sənlə "Vətənə getməyim gəlir".
Hacı Qaramanın "Qara daş"ından,
Öpüb Mərcanlıya yetməyim gəlir.

Ey Yaqub Məğrurun nəğməkar dostu,
Sənin hər dərdinə şərikəm, inan.
Bütün arzuların çin olsun, qardaş,
Üstündə yar olsun Ulu Yaradan.

EL AĞSAQQALI

Taleyin hökmüylə oldun yurdumun,
Qıy vurub şığıyan qoca qartalı.
Zirvəyə yetişib kamil olandan,
Oldun Qarabağın el ağsaqqalı.

İkinci gəncliyi yenə oyanıb,
Çöhrəsi ay kimi nura boyanıb.
Yetmiş beş yaşında pir tək dayanıb,
Doğma Qarabağın el ağsaqqalı.

Düz qırx il olubdur məktəb müdiri,
Qismətinə düşüb köçkün kədəri.
Vətənə dönəcək haçansa geri,
Doğma Qarabağın el ağsaqqalı.

On dörd il olubdur hüquq işçisi,
Ali məhkəmənin şöbə rəisi.
Haqqın keşiyində durmaqdır işi,
Doğma Qarabağın el ağsaqqalı.

Dərbənd müəllimi görməsin qada,
Qoymasın ulduzu qürbətdə bata.
Təki Haqq evinə Vətəndə çata,
Doğma Qarabağın el ağsaqqalı.

Yaqub Məğrur deyir yaşa, çox yaşa,
Gedək doğma yurda qol-qola, qoşa.
Yüz yaşını Cəbrayılda vur başa,
Doğma Qarabağın el ağsaqqalı!

ANA

Rəvayətlər, dastanlar,
Qoşulsa da adına,
Hələ tam oxunmamış
Sirli sətirdir Ana.

Açılmış çiçək kimi
Qoyulsa da güldana,
Sanki qoxulanmamış
Güldür, ətirdir Ana.

Tanrının qüdrətiylə
Həyatın davamına,
İlahi varlıq kimi
Övlad gətirir Ana.

Övlad düşməsin deyə
Fələyin bəlasına,
Sanki ona sipərdir,
İncə çətirdir Ana.

Qala bilməz övladın
Taleyinə biganə.
Göydə Allah, yerdə o,
Yeganədir, yeganə.

NURİDƏ

(Dostum N.Nursaçanın 50 illiyinə)

Bəzisi dünyada bəxtdən yarıyır,
Bəzisi taledən küskün qarıyır.
Gecəni gündüzə qatıb arıyır,
Qaranı dəyişir ağa Nuridə.

Tanrıdan verilib nuru, qisməti,
Başdan uca tutur arı, isməti,
Özünə borc bilir xalqa xidməti,
Ucalır zirvəyə, dağa Nuridə.

Görübdür həyatın hər ehtiyacın,
Qoyubdur başına həqiqət tacın,
O, mənim hünərli, qeyrətli bacım,
Əyilməz nə xana, şaha Nuridə.

Çöhrəsi oxşayır huri-mələyə,
Ürəkdən inanır bəxtə, taleyə,
Hərdən gileylənir çərxi-fələyə,
Boylanır gah sola, sağa Nuridə.

Həyatda qazanıb Nursaçan adın,
Götürmür tənəsin heç zaman yadın,
Doğruldur millətin hər etimadın,
Dua edə-edə Haqqa Nuridə.

NOVRUZ BAYRAMI

Nur saçaraq aləmə,
Gülür Novruz Bayramı.
Xonça alıb əlinə,
Gəlir Novruz Bayramı.

Dörd gün axşam-səhərlər,
Şənlənir kənd-şəhərlər.
Bərəkətlə, bəhərlə,
Gəlir Novruz Bayramı.

Xurma qatır aşına,
Noğul səpir başına,
Sürmə çəkir qaşına,
Gəlir Novruz Bayramı.

Yağışlar yağa-yağa,
Gün çıxır sola-sağa.
Can verməyə torpağa,
Gəlir Novruz Bayramı.

Gül qovuşur bülbülə,
Cocuqlar gəlir dilə.
Çöhrəsi gülə-gülə,
Gəlir Novruz Bayramı.

Xəstə tapır şəfqəti,
Şənləndirir ovqatı.
Verə-verə sovqatı,
Gəlir Novruz Bayramı.

Sandığında şan balı,
Kabab dolu manqalı,
Çata-çata tonqalı,
Gəlir Novruz Bayramı.

Səməniylə, saz ilə,
Şirni, fındıq, qoz ilə,
Bahar adlı qız ilə,
Gəlir Novruz Bayramı.

Dolu səbət əlində,
Xoş kəlməsi dilində,
Bir kəhər at belində,
Gəlir Novruz Bayramı.

Onun rəmzi səməni,
Çiçəkləyib çəməni.
Aşıb dağı, dərəni,
Gəlir Novruz Bayramı.

Papaq atan uşaqlar,
Qapıları pusarlar.
İçi dolu bazarla
Gəlir Novruz Bayramı.

Torbasında qovurğa,
Al qırmızı yumurta,
Hər iyirmi bir martda,
Gəlir Novruz Bayramı.

Meyxanayla, qəzəllə,
Kosa adlı dəcəllə,
Kəndirbazla, keçəllə,
Gəlir Novruz Bayramı.

Soraq verir Azıxdan,
Səsi gəlir uzaqdan.
Keçib qışdan, sazaqdan,
Gəlir Novruz Bayramı.

AYLAR, İLLƏR, FƏSİLLƏR

Üç yüz altmış beş günün,
İl - on iki ayı var.
Otuz gün - dörd həftənin,
Yeddi günlük sayı var.

Hər ilin dörd fəslini
Tanrının özü yazmış.
Bölüb üç ay mislinə,
Gələr yaz, yay, payız, qış.

Gözəl bahar illərin,
Fəsillərin tacıdı.
Novruz Bayram ellərin,
Ruzi ehtiyacıdı.

Onun rəmzi səməni,
Olub min illər boyu.
Bəzəyər göy çəməni,
Bəylər, gəlinlər toyu.

Səmada şimşək çaxar,
Yaşıllaşar yamaclar.
Boz ay çıxsa dərd çıxar,
Çiçək açar ağaclar.

Yayın da öz hökmü var,
Təbiətin üzündə.
Dincələrlər adamlar,
Çimərliyin gözündə.

Günəş göydən nurlayar,
Yeri, suyu, havanı.
Ağaclarda barlayar,
Gilas, ərik, gavalı.

Qızıl payız qaçışar,
Yel qanadlı kəhərlə.
Sarı yarpaq uçuşar,
Havada bir təhərlə.

Gənclər yığar heyva, nar,
Əncir, üzüm, fındıq, qoz.
Toy-düyündə çağlayar,
Tar-qavalla tütək, saz.

Gələr ilin buz çağı,
Qasırğalı, qarlı qış.
Bayraq edər sazağı,
Şaxta Babayla Qar Qız.

Böyük Çillə adlanan
Zaman ağır şaxtadı.
Kiçik Çillə qatlanan,
Qışın axır vaxtıdı.

Bax beləcə dövr edər,
Aylar, illər, fəsillər.
Bir-birinə tən gedər,
Neçə-neçə nəsillər.

QONŞU

Ən dəyərli hörməti
Qonşu edər qonşuya.
Ehtiyac olan kimi
Dərhal gedər qonşuya.

Uzaqdakı qohumdan
Yaxın qonşu yaxşıdır.
Mehribanlıq, etibar
Qonşuların naxşıdır.

Yaxşı qonşu qonşunun
Toyuğuna daş atmaz.
Əsil qonşu qonşuya
Heç vaxt dava yaşatmaz.

Dava-dalaş heç zaman
Qonşulara yaraşmaz.
Yaxşı qonşu qonşunun
İşlərinə qarışmaz.

Əgər qonşu qonşunun
Bostanına daş atsa,
Münasibət korlanar
Bir-birinə baş atsa.

Qonşu paxıl olarsa,
Çalış ondan qaç qurtar.
Hər gün sənlə savaşsa,
Yığış ordan köç qurtar.

AY ETİBARSIZ...

(Çörəyi dizinin üstündə olanlara ithaf)

Niyə belə oldu bizim sonumuz,
İllər qabağında, ay etibarsız.
Yetim kimi yuyunmuşdu canımız,
Əhdin bulağında, ay etibarsız!

Balana öz balam kimi baxmışam,
El bilir ki, başına tac taxmışam.
Lazım anda şimşək olub çaxmışam,
Ələm dolağında, ay etibarsız!

Etibar etmədin mənə qəfildən,
Torpağını aldı dedin tifildən.
Dilə-dişə düşdüm sənin səfindən,
İtin yalağında, ay etibarsız!

Namərd olub mən günaha batmadım,
Axı səni tənha qoyub atmadım.
Yaman gündə dedi-qoduya satmadım,
Elin qulağında, ay etibarsız!

Tikanlı sözlərin sorur qanımı,
İnciyən gözlərin yorur canımı,
Budurmu Yaquba olan yanımın?
Adəm zolağında, ay etibarsız!

Rəqibim çoxalıb, dostum qalmayıb,
Satqınlar Məğrura mehir salmayıb,
İnan ki, heç zaman vəfa olmayıb,
Zənən xeylağında, ay etibarsız!

ŞÜKÜR

İlahi, sazaqlı qışından belə,
Çiçəkli, çəmənli yazına şükür.
Yüzlərlə təpərsiz kişidən isə,
Azadə Taleh tək qızına şükür.

Yaradan yaradır yoxlardan nəsə,
Acların payını toxlardan kəsə,
Yaramaz, saxtakar çoxlardan isə,
Sənin bircə qram azına şükür.

Azad mətbuatın azad anası,
Qələm aləminin gözəl sonası,
Haqq sözdür ömrünün məğzi, mənası,
Kağız üzərində izinə şükür.

Müqəddəs Məkkədə Hacı olmusan,
"Qafqaz Media"nın tacı olmusan,
Həkimsən, xəstəyə bacı olmusan,
Nur yağan çöhrənə, üzünə şükür.

Məğrur da vurğundur sənin özünə,
Yaxşını pislərdən seçən gözünə,
Nahaqqı doğrayıb keçən sözünə,
Əyrilər içində düzünə şükür.

AYIRMASIN BİZİ ÖLÜM

Hər baxışın dərin məna,
Tükənməzdir məhəbbətin.
Aşiqəm gül camalına,
Sədaqətli Mələhətim!

Keşməkeşli həyatımda
Mənə ana, bacı oldun.
Çətin gündə həm dayağım,
Həm başımın tacı oldun.

İki oğul, iki də qız,
Bəxş etmisən mənə, gülüm!
Qalmayasan tənha, yalqız,
Ayırmasın bizi ölüm.

Arzuların qanadında
Qırx altı yaş tamam olur.
Uzun ömür, cansağlığı
Arzulayır Yaqub Məğrur.

QAYIDASAN YURDUNA

Keşməkeşli ömrünün
Xoşbəxt keçib əzəli.
Tanrı səni yaradıb,
Azərbaycan gözəli.

Məcbur olub düşmüsən,
El-obadan aralı.
Yurd həsrəti çəkirsən,
Ey Mərcanlı maralı!

Qayıdasan yurduna,
Bu günlərin birində.
Qeyd edəsən ad günün,
Öz doğma yurd yerində.

Zeynəb xanım, çıxarma,
Bu ad günün yadından.
Səni təbrik edirəm
"Təhqiqat"ın adından.

QİSMƏTİN OLSUN

İyirmi yaşını vurursan başa,
Çalış ki, həyatda firavan yaşa.
Doğma Mərcanlıda, qalan ömrünü,
Yüz yaşda mənalı vurasan başa.

Ürəyin həmişə fərəhlə dolsun,
Böyük toy məclisi nəsibin olsun.
Bax budur atanın xeyir-duası,
Bir xoşbəxt ailə qismətin olsun.

Səni təbrik edir atanla anan,
Bacı-qardaşlarla dostlar, tanışlar.
Aygün, hər ad günün, hər xoş məramın,
"Mübarəkdir!" - deyir "Təhqiqat"çılar.

BƏNZƏYƏSƏN QIZIL GÜLƏ

Xoş gəlmisən soy-kökümün,
Davamına əziz nəvəm.
Günəş kimi parıldayan,
Şirin, şəkər, ləziz nəvəm.

Tən bölünən alma kimi,
Bənzəyirsən lap anana.
İstəyirəm xasiyyətdə,
Oxşayasan sən də ona.

Həyatının bir ilini,
Vurdun başa gülə-gülə.
Niyyətimdir böyüyəndə,
Bənzəyəsən qızıl gülə.

Xoşbəxt həyat arzulayır,
Sənə Yaqub Məğrur baban.
Tanrı səni hifz eləsin,
Bədnəzərdən Aytac balam!

Qoşulurlar bu təbrikə,
Nənələrin, babaların.
Atan, anan, əmin, dayın,
Xalaların, bibilərin.
Hamı deyir: Amin! Amin!

NƏVƏ ADLI PAYIMSAN

Düz bir il bundan əvvəl,
Dünyaya xoş gəlmisən.
Həyata göz açanda,
Ağlamayıb gülmüsən.

Bu onu göstərir ki,
Qanında var qüdrətin.
Böyüyəndə yəqin ki,
Çox olacaq hörmətin.

Doğulanda olmusan,
Ata-ana sevinci.
Böyüyəndə olasan,
Sən onların güvənci.

Atalar da dövlətdə
Buyurublar dəvəni.
Ən istəkli övladtək
Göstəriblər nəvəni.

O güləyən çöhrəni
Qüssə, kədər almasın.
Ulu Tanrım heç səni
Dərdə, qəmə salmasın.

Nicat bala, sən mənim
Baharımsan, yayımsan.
Nəsil davam etdirən
Nəvə adlı payımsan.

Allah səni heç zaman
Sınamasın çörəkdən.
Baban təbrik eyləyir,
Ad gününü ürəkdən.

BÖYÜK TOYUN OLAYDI

Oruc bala, yaraşır,
Bu toy sənin boyuna.
Əmi kimi gəlmişəm,
Bu gün kiçik toyuna.

Məzahiri həmişə
Kiçik qardaş bilmişəm.
"Qismət" şadlıq evinə
Təbrikinə gəlmişəm.

Kaş gedəydin Vətənə
Bu günlərin birində.
Böyük toyun olaydı,
Doğma kəndin Sirikdə...

GÜL PAYISAN

Xırdapara tayfasının
Həm baharı, həm yayısan.
Sən Tanrının Məhəmmədə
Verdiyi bir gül payısan.

Uzun ömür, cansağlığı
Arzulayır nənən, baban.
Atan, anan, əmin, dayın,
Xalan, bibin, bir də maman,
Bütün qohum və əqrəban.

HƏMİŞƏ ÇIRAQ OLSUN

Çox sevinir a Nurlan,
Gözəl anan Lamiyə.
Söz çələngi göndərir
"Molla baban" hədiyyə.

Kitab-qələm yoluna
Həmişə çıraq olsun!
Məktəbə ilk qoyduğun
Qədəm mübarək olsun!

Ürəkdən təbrik edir,
Səni Həqiqət nənən.
Atan, dayın və maman,
Bütün qohum-əqraban.

ÇÖKMÜŞ EVİN DİRƏYİ

Ey Şəybəyin sonası,
Budur gəldi şad günün.
Nurlan bəyin anası,
Mübarəkdir ad günün.

Bütün elin gərəyi,
Həqiqətin qızısan.
Çökmüş evin dirəyi,
Allı-güllü yazısan.

Seymur ilə Qiyasa
Qayğı çəkən bacısan.
Sən yoldaşın Elmirin
Dik başının tacısan.

Təbrik edir ürəkdən,
Səni nənən Minarə.
Xalaların Ruhiyyə,
Mətanət ilə Məryəm.

Səni təbrik eyləyir,
Ürəkdən İsax baban.
Dayın Nazim, bir də ki,
Bütün qohum-əqraban.

30.08.2007

NUR KİMİ

Kəklik kimi süzürsən,
Süzənlər arasında.
Məncə sən birincisən,
Gözəllər sırasında.

Par-par parıldayırsan,
Aydan gələn nur kimi.
Dolanırlar başına,
İstəyənlər pir kimi.

Ad gününə toplaşıb,
Bütün dostlar, tanışlar.
Məclisi şənləndirir
Çalğıçılar, manılar.

Mübarəkdir iyirmi
Birinci yaşın, Aydan!
Səni təbrik edirəm,
"Təhqiqat"ın adından.

V FƏSİL

YARADAN EYLƏSİN MƏRHUMA RƏHMƏT

BABASI KƏRBƏLAYI, ATASI MƏŞHƏDİ, OĞLU HACI OLAN KİŞİ

Rəfiyev İsax Məşhədi Kərim oğlu 1929-cu ildə Cəbrayıl rayonunun Şəybəy kəndində anadan olmuşdu. Gözünü açandan evdə babasından-atasından yadigar qalan Quran görmüşdü. Ulu babası Kərbəlayı Musəvi piyada ziyarətə getmiş üzünurlu adam olub. Atası Məşhədi Kərim kişi isə atla Kərbəla ziyarətinə gedib-gəlmişdi. İsax kişi 5-6 yaşında ikən atasını itirib. Anası Suma xanım dörd övladını min bir əzab-əziyyətlə böyüdüb. 1941-ci ilin Bö-

yük Vətən müharibəsi başlayanda əmiləri Rəhimlə Rza da müharibəyə gediblər və geri qayıtmayıblar. Bu zaman əmilərinin dörd yetim uşağını saxlamaq İsağın anası Suma xanımın üzərinə düşüb.

Əlavə olaraq bildirim ki, Suma xanım sürüylə mal-qarası, qoyun-quzusu, atları, dəvələri olan adlı-sanlı bəy qızı olub. Suma qızlığında qızıl kəmərini belinə vurub dəvəyə minəndə, hamı onun gözəlliyinin pişvazına çıxarmış. Müharibə dövründə qaçaqlar gecələr kəndə gəlib onun da var-dövlətini çalıb-çapıb aparmışdılar. Bir-iki qızıl üzüyü qalmışdı ki, onu da gizlicə satdırıb buğdaya, düyüyə dəyişdirərək, yetimləri acından ölməyə qoymayıb.

Evdən olan-qalan ehtiyat da qurtarandan sonra 10 yaşlı İsax da ailənin güzəranını düzəltməkdən ötrü anasına köməklik edib. Təpərli uşaq olan İsax ürəklə çalışarmış. O illəri xatırlayan əmisi uşaqları danışırlar ki, İsax bizə ata əvəzi olub. Aclığın pis vaxtında çöldən başaq eləyib gətirir, əlinə bıçaq alıb yemilik, pencər yığar, sərçə-sığırçın ovlayıb gətirər, bizi acından ölməyə qoymazdı.

Bu uşaqlar böyüyüb bir tərəfə çıxandan sonra İsax sürücülük məktəbində oxuyub. Etibarı, ağzıbütövlüyü, halallığı ilə fərqləndiyindən, bir müddət kolxoz sədrinin sürücüsü işləyib...

Anası Suma xanım onu kəndin ən qəşəng-göyçək qızı kimi tanınan Minarə ilə evləndirib. İsax Minarəni sevib aldığından həyatda özünü xoşbəxt sanırdı. Özlüyündə fikirləşirdi ki, yəqin uşaqlığımda çəkdiyim zillətin hesabına Allah-Təala məni mükafatlandırıb, çünki kənddə onu istəyən dörd oğlandan təkcə onu seçdi, ona könül verdi Minarə.

İsax çox gözəl, nümunəvi ailə sahibi oldu. Altı övladları dünyaya gəldi. Hər il uşaqları anası Sumanın yanında qoyub, öz sevimli Minarəsi ilə Yesentuki, Çermux, İstisu, Naftalan kimi istirahət zonalarında dincəlməyə gedərdilər. Lakin tale ona bir dağ çəkdi - ikinci oğlu Asif 10-cu sinfi bitirib imtahanlarını verməyə başladığı vaxt sağalmaz xəstəliyə düçar olub dünyasını dəyişdi. Dəfələrlə Bakıya müalicəyə aparsalar da, nəticəsi olmadı. Beləcə, sinəsinə oğul dağı çəkildi İsax kişinin.

Lakin bu müsibətli ailə faciəsindən bir neçə il sonra doğma kəndləri də işğal olunan İsax kişi ailəsini, nəvələrini götürüb Bakıda yaşayan qızı Mətanətgilə gəldi. Bir neçə il onlarda qalandan sonra "el elə sığar, ev evə yox!" - deyib, oğlu Nazimlə məsləhətləşdi və "NZS" deyilən qəsəbədən torpaq sahəsi götürüb özlərinə 4 otaqlı mənzil tikdilər.

Ot kökü üstə bitər! - deyib atalar. İsax

kişinin yeganə oğlu Nazim ulu babasının və ata babasının Kərbəla və Məşhəd ziyarətlərində olduğunu eşitmişdi. Göz açıb-ağlı kəsəndən evlərində "Quran" görmüşdü. Uşaqlıqdan könlündən keçmişdi ki, o da babaları kimi olacaq. Elə bu arzuyla da keçən il Qurban bayramında Məşhəd şəhərini ziyarət etdi. Bu ilin Qurban bayramı ərəfəsində isə Həcc ziyarətinə hazırlaşırdı. 2007-ci il dekabrın 9-da axşam evdə süfrə açdı, atası İsax kişidən, anası Minarə xanımdan xeyir-dua alıb sübh tezdən təyyarə ilə Həcc ziyarətinə yollandı.

Oğlu Nazimi yola salandan sonra 78 yaşlı İsax kişi yatağına uzanıb, uşaq kimi için-için ağlamağa başladı. Otağa daxil olan həyat yoldaşı soruşub ki, "a kişi, niyə ağlayırsan? Allaha şükür, oğlun arzusuna çatıb, niyə naşükürlük edirsən?" İsax kişi cavabında dedi ki, "yox arvad, mən Nazimin gəlməsini görməyəcəyəm. Oğlumdan çox razıyam, çünki ata-babamızın yolunu davam etdirir. Çəkdiyim əziyyət halalxoşu olsun. Sən də anam Sumanın əməllərini davam elətdiyin üçün çox sağ ol! Anam hər il Aşura günü heyvan kəsdirib ehsan verərdi, sən indi onun yerini tutmusan..."

Elə belə danışa-danışa qəfil dili tutuldu. Nəvəlri həkim çağırdılar. İnfarkt keçirən kişinin vəziyyətinin ağırlaşmasını görən qızları həkimə yalvar-yaxar etdilər ki, iy-

nə-dərman hesabına onu oğlu Həccdən gələnəcən ölməyə qoymasın. Həkim də əlindən gələni etdi. Lakin bütün ağrı-acılarına baxmayaraq kişi xəstəliyini heç kəsə bənsitmədi, gündüzlər evin içində gəzinər, gəlib-gedən qonaqları deyə-gülə yola salardı. Bircə arzusu vardı: "oğlu Nazimin çiynində gor evinə getmək". İsax kişinin böyük qızı Həqiqət xanım isə atasının oğlu ilə görüşə bilməyəcəyini əvvəlcədən hiss edirmiş kimi iki dəfə mobil telefon vasitəsilə onları danışdırdı. Hər dəfə də kişi oğluna: - Allah ziyarətini qəbul eləsin! -dedi. Həqiqət xanım kişinin nəvələrinə - Vasifə, Yalçına babalarının şəklini çəkib, səsini videolentə yazdırmalarını tapşırdı. Kişi Qarabağa aid bir şeir söylədi, sonra da bir mahnı oxudu:

Gəncədən gəlirəm, yüküm xurmadı,
Gəncənin yolları burma-burmadı...

Deyirlər qu quşları ömürlərində tək bircə dəfə oxuyurlar, onu da ölümqabağı. Ölümlərinin gələcəyini bildikləri üçün. Gənc şair Şakir Albalıyev bəlkə də belə bir həyat səhnəsini nəzərində canlandırdığından, həmin anı belə təsvir edib:

Könlümdə var çılğın həyat həvəsi!
Oxumaq istərəm bir qu nəğməsi!

Bəli! Bu misralarda deyildiyi kimi, İsax kişinin ürəyində yaşamaq həvəsi var idi. Gecə havası çatışmayan kişi tez-tez "mənim dərmanımı verin ölməyim, oğlum gəlib məni Moskvaya aparacaq, mütləq məni sağaldacaq" - deyir, tez-tez saatı və Nazimin gəlməsini soruşurdu. Elə bu ümidlə də İsax kişinin canı ağzından quş kimi uçub getdi...

Nazimin isə gəlməsinə 2 gün qalmışdı. Atasının ölümünü ona bildirməmişdilər. Dekabrın 27-də evə zəng vurub ziyarətdən bu gün qayıdacağını dedi:

- Hazırlaşın, süfrəni salın, qurbanlıq qoyunları həyətə gətirin! 4 saatacan evdə olacağam...

...Heç nədən xəbəri olmayan Nazim həyətlərində qurulu çadır mağarını görəndə başa düşdü ki, rəhmətə gedən var. Haraybağır qoparan Nazimi cənazənin yanına gətirdilər və o bildi ki, dünyasını dəyişən atasıdı. Nazimi bircə şey yandırıb-yaxırdı: "kaş atamın axırıncı kəlməsini eşidəydim, qıçlarım qırılardı evdən çıxdığım yerdə - deyib ağlayırdı.

Nazimlə Həcc ziyarətində olan yoldaşları isə ona təskinlik verdilər: - Sənin atan xoşbəxtdir ki, Həcc torpağından gətirdiyin zəmzəm suyu onun cənazəsinə səpildi. Məhəmməd peyğəmbərin (s) qəbrindən götürdüyün torpaq onun qəbrinə qismət ol-

du. Bundan belə sənin ağlamağın Allah yanında günah olar, Allah səbrini versin! - dedilər.

Biz də Hacıların sözlərinə qoşulub, İsax kişinin həyat yoldaşı Minarə xalaya və bütün ailə üzvlərinə başsağlığı veririk, Allah səbrinizi versin! -deyirik. Adam yaşadığı bu müvəqqəti dünyada ancaq özündən sonra qoyub getdiyi xoş əməlləriylə yaddaşlarda qalıb yaşayır. Allaha çox şükürlər olsun ki, 78 yaşında Haqq dünyasına qovuşan İsax kişi istər öz doğmalarının, istərsə də kənd camaatının qəlbində xoş əməllər sahibi kimi qaldı.

Allah sənə rəhmət eləsin, məzarın nurla dolsun, İsax kişi!

YARADAN EYLƏSİN MƏRHUMA RƏHMƏT

Çoxuna əl tutdun, etmədin tənə,
Ağır günlərində, zillət içində.
Yetimlər atası dedilər sənə,
El-oba içində, millət içində.

"Son dəfə Nazimi görəydim" - dedin,
Tanrı dərgahına səcdə qılanda.
Bu fani dünyadan tez köç eylədin,
Oğlun ziyarətdə - Həcdə olanda.

Qızların Həqiqət, Mətanət, Məryəm,
Ruhiyyə hönkürüb səni ağlayır.
Yoldaşın Minarə qoparıb şivən,
Qəmli naləsiylə sinə dağlayır.

"Atamın son sözün eşidəydim kaş",
Deyib fəryad edir, bu Hacı Nazim.
Qoyub qəbrin üstə əbədi bir daş,
Elin xatirənə eyləyir təzim.

Bütün dost-tanışlar belə söylədi,
İsax qazanmayıb heç tənə, töhmət.
Məğrur da zəhmətin halal eylədi,
Yaradan eyləsin mərhuma rəhmət.



ƏLİ ÖLDÜ DEMƏYİN!



Dünyasını faciəvi şəkildə yenicə dəyişmiş 31 yaşlı bir gənc haqqında nə isə yazmaq çox çətindir. Bəd xəbər qəfil gələndə isə yazını haradan və nədən başlamaq, harada və necə başa vurmaq olduqca çətindir. Onda da ola ki, ölümün səbəbini bilməyəsən.

İnsan beşikdən qəbrədək uzun bir ömür yolu keçir. Əli də 31 illik qısa zaman kəsiyində böyük bir ömür yaşadı. Ancaq çox tez qırıldı bu ömür. Bunun da ilk səbəbkarı milli düşmənlərimiz olan er-

mənilər idi. Əgər onlar xalqımızı doğma Kəlbəcərdən didərgin salmasaydı, Əli də məcburi köçkünlük həyatı yaşaya-yaşaya Bakıda yaraşıqlı binalar ucaltmasaydı, bəlkə də bu faciə də belə baş verməzdi. Ancaq o da var ki, qismətdən artıq yemək olmaz. Yəqin ki, bu da Əlinin taleyinin qismətidir.

Xeyirxahlığı ilə yaşını ikiqat üstələyən, xaraktercə mülayim, gülərüz olan bu gənc oğlan redaksiyamızda işə qəbul olunduğu gündən keçən bir il ərzində kollektivimizin sevimlisinə çevrilmişdi. Redaksiyamızda keçirilən bütün tədbirlərdə, iş yoldaşlarının xeyir-şərində ürəkdən iştirak etməkdən iftixar hissi keçirərdi. Kollektivimizdəki səmimiyyət onun o qədər xoşuna gəlmişdi ki, bizdən heç cür ayrıla bilmirdi. İşi ilə əlaqədar rəhbərlik etdiyi briqadanın işlədiyi tikinti obyektlərində olanda da redaksiyamızla əlaqəsini kəsmir, tez-tez zəng edib hal-əhval tuturdu. Axırıncı dəfə oktyabrın 1-də redaksiyamıza gəlmişdi. Adətimiz üzrə əməkdaşlarımızdan birinə keçirdiyimiz ad günündə iştirak edirdi. Çıxışının sonunda bildirdi ki, fevralın 22-də onun da ad gününü şeirlə təbrik edim. Ancaq, taleyə bax ki, onun ad gününə şeirlə təbrik olunmaq deyil, ölümünə ağı yazılmaq qismәti oldu:

Qısa vaxtda olmuşdun,
Bizə həmdəm, həm sirdaş.
Niyə sən bu dünyadan
Belə tez köçdün, qardaş?

Fələk tufan qopardı,
Etdi əməl-telini.
Əcəl qəfil apardı,
Aramızdan Əlini.

Gözəl binalar tikib,
Qazandın xətir-hörmət.
Allah sənə eyləsin,
Haqq evində min rəhmət!

Qəlbimizdə yaşayır,
Xoş xatirən, əməyin.
Dostlar, xahiş edirəm,
Əli öldü deməyin!

...Bir neçə gün ərzində Əlinin zənglərinin susduğunu görüb 2007-ci il oktyabrın 26-da - bir bazar günü onun mobil telefonuna zəng etdim. Onu soruşanda bir hönkürtü eşitdim. Sonra "Əli 21 oktyabrda iş yerində elektrik vurmasından faciəli şəkildə həlak olub!" - sözlərini eşidəndə şoka düşdüm. Necə də dəhşətli idi bu xəbər. Çox çalışsam da uzun müddət özümü ələ ala bilmədim. Dərdimi bölüşmək üçün iş yoldaşlarıma zəng edib bu bəd xəbəri on-

lara çatdırdım. Qəfil xəbərdən hamımız sarsıntı keçirdik.

Həmin gündən etibarən hər iş günümüzə sənin xatirəni bir dəqiqəlik sükutla yad etməklə başlayırıq, Əli! Sənin Tərtərdəki qəbrinə əlimiz çatmadığına görə hər cümə günləri molla Seyid Əlini çağırtdırıb elə redaksiyamızda sənin ruhuna dualar oxutdururuq. Allah sənə min rəhmət eləsin, qardaş! Sən gözəl insan idin. Yaşına uyğun olmayan ağsaqqallıq xüsusiyyətlərin var idi. Qurub yaratmaqdan doymurdun.

31 illik qısa ömründə o qədər xətir-hörmət qazanmışdın ki, yaşca səndən qat-qat böyük olan bir çoxları sənə həsəd aparırdılar. Rayonda yaşayan valideynlərin üçün həmişə narahatlıq keçirirdin. Sənin bu dünyada çox yaşamağa haqqın var idi. Ancaq neyləyəsən ki, sənin də taleyin belə yazılıbmış. Hamımız bu yolun yolçusuyuq. Ancaq hərənin öz vaxtı var. Vədə bitəndə amansız ölüm insanı caynaqlarına keçirib Tanrı dərgahına qaytarır. Tutduğu əməllərə görə haqq-hesab sorulur.

Ancaq, sən bu dünyada keçirdiyin qısa ömründə o qədər xeyirxah işlərlə məşğul oldun ki, tutduğun bu xoş əməllərə görə Ulu Yaradanımız yəqin ki, sənə Cənnətdə yer ayıracaq. Yerin behiştlik olsun, qardaş!

Sənsiz bizə həqiqətən çox çətindir. Kollektivimizdə yerin həmişə görünür. Xatirən

qəlbimizdə əbədi yaşayacaq. Üzərimizə düşən mənəvi borcumuzu həmişə ödəməyə, bu həyatda gözüyaşlı qoyub getdiyin cocuqların Ləmanla Taciri, habelə ömürgün yoldaşın Tamaranı ovundurmağa və hər bir çətinlikdə onlara kömək göstərməyə çalışacağıq.

Narahat olma, qardaş! Rahat uyu!
Allah sənə qəni-qəni rəhmət eləsin!



VI FƏSİL

YENİDƏN DÜNYAYA GƏLMƏYİM GƏLİR

GÖZƏLƏ SÖZ ATMAQ MƏHƏBBƏT DEYİL

(nadanlara ithaf)

Bir tində cananla qarşılaşarkən,
Özünü itirib donma, a "qardaş".
Gözəlin can alan baxışlarından,
Od tutub alışma, yanma, a "qardaş".

Axı sən az aşın duzu deyilsən,
Hər yoldan ötənə can-can deyirsən,
Sözün yerə düşsə tez şərləyirsən,
Cidanı çuvalda danma, a "qardaş".

İzləmə qızların duruşlarını,
Gedənin, gələnin yerişlərini,
Nadanlıq, cahillik vərdişlərini,
Həyatın ləzzəti sanma, a "qardaş".

Nazıyla oynasan öyərlər səni,
Göz vursan bir şorgöz sayarlar səni,
Həddini aşarsan döyərlər səni,
Vurub öldürərlər, dinmə, a "qardaş".

Sənin bu səylərin vallah hədərdi,
Bu fani dünya da gəldi-gedərdi,
Varlığın sonucu qəmdi, kədərdi,
Eşqin cin atına minmə, a "qardaş".

Qadına atanda hər atmacanı,
Yada sal canalan gözəl bacını,
Gözünün önünə gətir ananı,
Haqqın düz yolundan dönmə, a “qardaş”.

Əgər sevirsənsə kişi kimi sev,
Vətənin mamırlı daşı kimi sev,
Onu ürəyinin başı kimi sev,
Alışıb bir anda sönmə, a “qardaş”.

Məğrurun sözləri nə töhmət deyil,
Gözələ söz atmaq məhəbbət deyil,
Sənin hərəkətin mərifət deyil,
Düz sözü tərsinə qanma, a “qardaş”.

GƏNCLİYİMDƏN GƏLƏN QIZ

Xəyallar məkanında
Qanad açırdım yalqız,
Qəfil gəldi yanıma
Qələm qaşlı gəlin-qız,
Gəncliyimdən gələn qız.

Keçmişdi gör neçə il,
İntizarda qalmış gül,
Üşümüşdü elə bil
Gözü yaşla dolan qız,
Gəncliyimdən gələn qız.

Yaş gəlib yaş üstünə,
Qar düşüb baş üstünə.
Qəm töküb qaş üstünə
Çiçək kimi solan qız,
Gəncliyimdən gələn qız.

Məni duymaq istədi,
Qəlbi oymaq istədi,
Suçlu saymaq istədi
Özü suçlu olan qız,
Gəncliyimdən gələn qız.

İki gilə göz yaşı,
Axdı yanaq aşağı.
Çəkdi sinəmə dağı
Məni dərdə salan qız,
Gəncliyimdən gələn qız.

Dedi: - "Ayrı düşəndən,
Yaşaya bilmirəm mən.
Bəs sən necə dözürsən?"
Dərdi yarı bölən qız,
Gəncliyimdən gələn qız.

Basdım onu bağrıma,
Son qoyuldu ağrıya.
Şükr elədi Tanrıya
Bundan razı qalan qız,
Gəncliyimdən gələn qız.

Daddım arzu-kamından,
Gənclik adlı tamından.
İçdi eşqin camından
Gözü yaşlı gülən qız,
Gəncliyimdən gələn qız.

Yaqub, bu nə bəlaymış?
Demə qismət beləymiş.
Əhdə sadiq mələymiş
Göz yaşını silən qız,
Gəncliyimdən gələn qız.

YENİDƏN DÜNYAYA GƏLMƏYİM GƏLİR

Dinləyib şaqqaraq şax gülüşləri,
Onlara qoşulub gülməyim gəlir.
Görəndə qamətli şux gözəlləri,
Yenidən dünyaya gəlməyim gəlir.

Gözəl baxışıyla girir qəlbimə,
Eşq odu alışıb çıxır beynimə.
Məhəbbət libasın geyib əynimə,
Yenidən dünyaya gəlməyim gəlir.

Çatdı qaçhaqaçda yaşım əlliyə,
Bir ömrə çatmadı əlim Leyliyə.
İyirmi yaşımda bircə illiyə,
Yenidən dünyaya gəlməyim gəlir.

Məğrur itirməyib heç zaman arın,
Xətrinə dəyməsin qoy xanımların.
İşvəli, qəmzəli gözəl bir yarın,
Qoynunda uyuyub ölməyim gəlir.

TANRI HƏDİYYƏSİ

Tutub təbiətin bahar vərdişi,
Yayılıb qoxusu könül bağıma.
Deyəsən taleyin tutub gərdişi,
Bir qız "qonaq" gəlib ahıl çağıma.

Olsa da qınaqlar, sıxma-boğmalar,
Ürəkdən çəkəcəm hər bir qayğısın.
Ağappaq hüsnünə qoşub nəğmələr,
Tərənnüm edəcəm könül duyğusun.

Su dolu kuzəni alıb əlimə,
Həmişə yoluna səpəcəm onun.
Qolumu dolayıb incə belinə,
İşvəli gözündən öpəcəm onun.

Məhəbbət sarayı hörəcəyəm mən,
Bu huri-mələyin könül bağında.
Qəlbinin nübarın dərəcəyəm mən,
Qırxıncı otağın qaranlığında.

Qoru soykökümün adın Allahım,
Qoyma xələl gəlsin nəcabətimə.
Sənə eylədiyim hər dualarım,
Qoy olsun şükürlər məsləhətinə.

Bir qıza yazdığım bu zərli sözlər,
Deməyin Yaqubun mədhiyyəsidir.
Bu ağ çöhrəli qız, sürməli gözlər,
Tanrının Məğrura hədiyyəsidir.

SEVDALI GÜNLƏRİN SONU ÇATIBMIŞ

Həyatın bir anı gözüm önündə,
Qaynaya-qaynaya ötüb çağlayır.
Divara söykənib küçə tinində,
Hönkürə-hönkürə bir qız ağlayır.

Görəsən nə dərdi var bu gözəlin,
Niyə dən veribdir o göz yaşına?
Nədən ahu kimi zərif əllərin,
Çırpır gah divara, gah da başına?

Sanki göy gurlayıb, şimşək çaxıbdı,
Axıb ağ buluddan leysan yağışı.
Onu daş divara kədər sıxıbdı,
Gizlənib ətrafdan küsən baxışı.

Sordum vağam vurmuş siyah telindən,
Kimin qəm yükünü götürmüsən sən?
Güclə iki kəlmə çıxdı dilindən,
Dedi sevgilimi itirmişəm mən.

Sən demə bu qızın səhvi ucundan,
Sevdalı günlərin sonu çatıbmış.
Riyakar əğyara aldanışından,
Sevdiyi oğlanı onu atıbmış.

TUFAN MƏLƏYİ

Bir gün "qonaq" gəldi qarlı dağımda,
Qəlbi viran qoyan tufan mələyi.
Taleyin hökmüylə könül bağımda,
Parladı yeni bir arzu-diləyim.

Qıyğacı boylanıb bircə baxışla,
Məhəbbət toxumu səpdi qəlbimə.
Suvarıb gözündən yağan yağışla,
Coşqun ürəyimi saldı tilsimə.

Gah göyə ucaltdı, gah yerə çəkdi,
Səmadan, torpaqdan aldı o dəstək.
Gah sola apardı, gah sağa səkdi,
Axır ki, qələbə çaldı bu istək.

Cücərdi toxumlar, verdi pöhrəsin,
Açdı ləçək-ləçək gülü nəhayət.
Gəldi tələtümə, gördü bəhrəsin,
Kükrədi qəlbimdə dəli məhəbbət.

Çatdı istəyinə tufan mələyim,
Soyuq qollarını saldı boynuma.
Birdən isinişib oldu mülayim,
Nazlanıb sığındı, girdi qoynuma.

Yaqub ovlayardı bir vaxt şikarın,
Mahir ovçu kimi salıb tələyə.
İndisə ovlanıb, qalıb nigaran,
Bilmir necə təslim olub mələyə.

BƏSİMDİ

Məhəbbət oxunu sancdım köksünə,
Qəlbini ovlaya bilsəm, bəsimdi.
İstərəm ürəkdən yatam könlünə,
Zərif bir ceyranım olsan, bəsimdi.

İstərəm pak sevgim olmasın hədər,
Yox desən qəlbimi bürüyər kədər.
Mən səni sevirəm dünyalar qədər,
Gözünü süzdürüb gülsən, bəsimdi.

Ömürlük bir yerdə qoşa qalarıq,
Birgə qayğı çəkib yaşa dolarıq.
İnan ki, sevgilim xoşbəxt olarıq,
Qolunu qoluma salsan, bəsimdi.

Bu yazıq ürəyim sənə vurulub,
Qəlbimdə bir mağar evi qurulub.
Gəlin paltarında yana burulub,
Bəylik otağıma gəlsən, bəsimdi.

EŞQ YOLUNA SƏYAHƏT

Vuruldum bir gözələ,
Həyatımın bir anı.
Sevgi oldu bir tələ,
Mən də onun qurbanı.

O qız baxdı çəpəki,
Eşqim vurdu beynimə.
Çalxalanıb geyindim,
Eşq libasın əynimə.

İlahi, bu aydımı,
Çiçəkdimi, güldümü.
Necə etdi bilmədim,
Əsir etdi qəlbimi.

Bir az gəlib qabağa,
O, sığındı qoynuma.
Bir də gördüm dolayıb,
Ağ qolların boynuma.

Bir qıyğacı baxışla,
Qəfil gəldi məhəbbət.
Bax beləcə başladı,
Eşq yoluna səyahət.

Yaqub, səni sınayır,
Yəqin tale yolları.
Açılmasın boynundan,
Saf sevginin qolları.

BAĞIŞLA ƏZİZİM, VURULMUŞAM MƏN

Nə olub, nə üçün məndən qaçırsan?
Bu qədər insafsız olma, gözəlim!
Axşam üfüqlərdə şəfəq saçırsan,
Əlçatmaz zirvədə qalma, gözəlim!

Bağışla əzizim, vurulmuşam mən,
Sarı saçlarına əlli yaşımda.
Səni gözləməkdən durulmuşam mən,
Dərdlərin cücərib qarlı başımda.

O qonur gözlərin baxır mənimçün,
Sənə yalvarışım əbəs deyildir.
Bu axan göz yaşım axır sənինçün,
Vallah bu ötəri həvəs deyildir.

Kənardan boylanma bir lal baxışla,
İnan ki, ürəkdən sevirəm səni.
Yaxın gəl, qəlbindən bir ləl bağışla,
Bircə dəfə de ki, sevirsən məni.

Həmişə arxanca gələcəyəm mən,
Məğruru ovutmur vallah özgəsi.
İnan ki, dərdindən öləcəyəm mən,
Qəlbinin hakimi olsa özgəsi.

VII FƏSİL

HƏR AĞAC BAR YETİRMƏZ

MİLLƏTİNƏ ATAN "KİŞİ"

Yalan-palan ölkəsində,
Dost-tanışa atan "kişi".
Qadınların kölgəsində,
Mürgü vurub yatan "kişi".

Gözün qalıb cücələrdə,
Ay-ulduzlu gecələrdə,
Toz-torpaqlı küçələrdə,
Toyuq əti satan "kişi".

Gah gözü, gah dili ilə,
Gah əli, gah qolu ilə,
Dələduzluq yolu ilə,
Məqsədinə çatan "kişi".

Ona-buna ata-ata,
Küçədə mal sata-sata,
Dalanlarda yata-yata,
Bataqlığa batan "kişi".

Duymadın səmimiyyətimi,
Qılma mənim qeybətimi,
Qalmısan Mıx Məmməd kimi,
Yol üstündə yatan "kişi".

Sən Yaquba gəl söz atma,
Sayıqlayıb heç uzatma,
Cavabında üz bozartma,
Əməlindən utan, "kişi".

HƏR AĞAC BAR YETİRMƏZ

(Riyakar və şərəfsizlərə ithaf)

Elin toyuq-cücəsin,
Yedin xoruz-beçəsin.
Günüqara eylədin,
Xalqın gündüz-gecəsin.

Qəlbində yox dəyanət,
Yurda etdin xəyanət.
Qaçıb qonşu ölkədə
Etdin yeni cinayət.

Kimsə günün birində,
Öldürdün öz yerində.
Anlaya bilmədin ki,
Qulağı var yerin də.

Səni tutar oldular,
Qoduqluğa saldılar.
Həm də bu bəd işinə
Mat-məəttəl qaldılar.

Yatdın on il hər nədən,
Keçdi xoş gün görmədən.
Qovulmusan vətənə,
Çıxan kimi türmədən.

Qonşularla atışdın,
Yerli-yersiz sataşdın.
Sənə hörmət edənə,
Təpik atıb tutaşdın.

Məni daşla döyənin,
Arxamca şər deyənin,
Tutub ağzın cıraram,
Mənə söyüş söyənin.

Boyun bircə qarışdı,
Dərin beşcə quruşdu.
Hər davanın axırı,
Vallah sonda barışdı.

Gəl heç kimə atma söz,
Öz yolunla dolan, gəz!
Kimsə sənə sataşsa,
Səbrli ol, dayan, döz!

Qorunmağa itin yox,
Cibində bir bitin yox.
Özün yaxşı bilirsən,
Bir kəsimlik çitin yox.

Neyləyirsən iş-mişi?
Yadda saxla keçmişi.
Fikirləşsən görərsən,
Səndən olmaz heç kişi.

Neyniyirsən tərifi?
Gəl ol, Haqqın tərəfi!
Lazımdırmı qorumaq,
Olmayan bir şərəfi?

Hər ağac bar yetirməz,
Yalan sərvət gətirməz.
Kişiliyi olanlar,
Heç vaxt hörmət itirməz.

Bir dımıx təm-təşərsən,
Paxıl olma, şişərsən!
Təkrar etsən səhvini,
Kor quyuya düşərsən.

Niyə edirsən əda?
Etmə, gedərsən bada!
Əgər sözə baxmasan,
Peşman olarsan, gəda!

SAĞMAL KİMİ SAĞIRIQ

Ciblərsoyov adına
Böyük xəstəxanam var.
Dayanır qulluğumda
Nazlı-nazlı cananlar.

Diqqət edib bilin ki,
Mən bir Tirpaş həkiməm.
Nazir-filan kimdi ki,
Mən onlardan çəkinəm.

Yalandan deyirik ki,
Pulsuzdur müayinə.
Duyuq düşənlərin də,
Baxmırıq hay-küyünə.

Əslində biz xəstəyə
Para ilə baxırıq.
Bura gələn xəstəni
Sağmal kimi sağırıq.

Jurnalistlər zəng vurub,
Tez-tez məni dəng edir.
Cavab versəm zənglərə,
Haqq-hesabı ləngidir.

Mən xəyanət edirəm
Hippokratın andına.
Xəstədən alınan pul
Keçir şəxsi "fond"uma.

İndi də ki, düşmüşəm
Mətbuatın cənginə.
Alıb məni hədəfə
Boğaz sıxan "Məngənə".

MƏNƏ SÖZ QAYTARANI...

Soruşsanız kiməm mən,
Müdirin xaloğlusu.
İylənmiş kolbasayla
Varlanmışıq doğrusu.

"Orxan kolbasa" adlı
Bir firma yaratmışıq.
Kolbasanın içinə
Hər cür zibil qatmışıq.

Kolbasaya basırıq
Əlimizə keçəni.
Ölmüş inək, donuz, at,
Hətta murdar cücəni.

"Kristal"ın gözünə
Vurdururuq sarımsaq.
"Orxan"ın ətrafına
Gələmməz bir qurumsaq.

Donuz boyda milçəklər,
Vızhavızla dillənir.
Siçovullar ortada,
Ətdən yeyib şellənir.

Tökülür dodağına
İşçilərin fırtığı.
Az qalır gözə girə,
Şalvarının yırtığı.

Quş da səkə bilməyən
Bir məkandır civarı.
Keçilməz bir qaladır
Firmamızın divarı.

"X5 BMW" də
Şahə qalxır altımda.
Aftoşlar edə bilməz
Belə qələt yanımda.

Mətbuat işçisinin
Son yeri "KQB"-dir.
Jurnalistə ilk sözüm
Bas bayıra "BB"-dir.

Canından bezməyənlər
Gərək versin "otval"a.
Mənə söz qaytaranı
Saldıraram "podval"a.

ƏLLİ YAŞLI GÖZƏLÇƏ

Bir qadın var qocalmış,
Yerlə, göylə əlləşir.
Həyasızlıq edərək,
Qonşularla dilləşir.

Uzun müddət bazarda,
Alver ilə küllənib.
Müştəriyə ataraq,
Puldan yığıb, şellənib.

Qızı yaşda bir qonşu,
Dəvət etdi düz yola.
O isə bu qonşunu,
Öldürmüşdü az qala.

Lağ edərək qonşuya,
Daim özün öyürdü.
Çəkinmirdi heç kimdən,
Hərbə, hədyan deyirdi.

“Nə olsun ki, ağarıb,
Dedi saçım ay bala!
Gənc olsan da qalmısan,
Zəmanədən çox dala.

Nə olsun ki, cavansan,
Nə özünü öyürsən?
Sən ağbirçək deyəndə,
Sanki məni söyürsən.

Mən qırışmış üzümə
Pudra, krem yaxıram.
Üç güzgüdə bəzənib,
Sağdan-soldan baxıram.

Mənim dolu əndamım,
Kişiləri cəlb edir.
Naz süzülən gözlərim,
Sənինkindən qəlbidir.

Əlli yaşım olsa da,
Mən hamıdan gözələm.
Bu hisslər ki, məndə var,
Mən çətin ki, düzələm”.

QILMANIN

Gecə-gündüz böhtan atar, şər yazar,
Gözləri götürmür düzü Qılmanın.
Məmurlardan para alar hər bazar,
Doymur pul yığmaqdan gözü Qılmanın.

Avam tapsa ciblərini eşəndi,
Güclü görsə dizi üstə düşəndi,
Davranışı sanki bir goreşəndi,
Yaman çox üz görüb üzü Qılmanın.

Boyu uzun, gözü mavi, dili key,
İnanmıram müxbir ola belə səy,
Hansı nazir verib buna ölü rəy,
Bilinmir əyrisi, düzü Qılmanın.

Qoyubdur hər yanda müxbir postları,
Zurnalist deyirlər ona dostları,
Onu dingildədir ehtirasları,
Özün rüsvay edib özü Qılmanın.

Ağı qara, göyü sarı yazandı,
Ona-buna çala-çula qazandı,
Adi sözdən öz-özünə qızandı,
Faydasız bir şeydir sözü Qılmanın.

Heç bilmir ki, nədir qəzet çıxarmaq,
Bircə şey bacarır, o da bağırmaq.
Yazı yazmaq üçün müxbir çağırmaq
Olub peşəsinin məğzi Qılmanın.

Vaxt gələcək, özü səhvin biləcək,
Buraxdığı səhvə qəlbən güləcək.
Allah qoysa qarşımıza gələcək,
Dirənəcək yerə dizi Qılmanın.

VIII FƏSİL

POEZİYA MƏBƏDİ

(Y.Məğrur haqqında deyilənlər, yazılanlar)

"Özümü axtarıram" şeirlər kitabının müəllifi, "Təhqiqat" qəzetinin təsisçisi, xeyirxah şair Yaqub Məğrura

MİNNƏTDARLIQ

ÖN SÖZ

Özünü axtardın, tapa bilmədin,
Mən tapdım, məğrur bir şairmisənmiş.
Oxudum dərdini, əyildi qəddim,
Qorxma yerdə qalmaz belə nahaq iş.

Çoxda ki, indi sən qürbətə düşüb
Enişli-yoxuşlu dar cığırdasan.
Bir də görərsən ki, xeyli yol keçib,
Mərcanlı bənzəri dost Bığırdasan.

YAQUB MÜƏLLİM!

Hər nə yazmışdımsa mən adda-budda,
Yaddan çıxmış idi, düşmürdü yada.
Məni dəstəkləyib atdın həyata,
Belə bir anımda, Yaqub müəllim!

Sən ki, tutdun mənim bu gün əlimdən,
Adın düşməyəcək heç vaxt dilimdən,
Sən mənə əzizsən, öz əzizimdən,
Ücasan yanımda, Yaqub müəllim!

Bu sənin Bığıra bir hörmətindir,
Bir oğuz elinə məhəbbətindir,
Türkçülükdə olan bir qeyrətindir,
Qaynayır qanında, Yaqub müəllim!

Layiqsən adınla hər bir uğura,
Nə desəm halaldır Yaqub Məğrura.
Əgər bir gün qonaq gəlsən Bığıra,
Qurbandır canım da, Yaqub müəllim!

Qismətini daim Allahdan istə,
Ondakı mərhəmət yoxdur heç kəsdə,
Sənə duaçıyam hər namaz üstə,
Hər səcdə anında, Yaqub müəllim!

Bunlar düz sözümdür, deyil yaltaqlıq,
Mənə lazım deyil vəzifə, qulluq,
Tanrı versin sənin canına sağlıq,
Olsun amanında, Yaqub müəllim!

P.S. Qəzetin sayında olarsa yerin,
"Paxıllıq" şeirimi dərc elətdirin,
Onda olmaz mənim başqa dərd-sərim,
Bu qoca anımda, Yaqub müəllim!

Xanlar Soltanoğlu,
Göyçay rayonu, Bığır kənd
2 saylı orta məktəbin müəllimi, şair

AY ŞAİR QARDAŞ

(Yaqub Məğrurun əlli illiyinə ithaf)

Gəzirsən ölkəni dolambadolam,
Sənin dönməzliyin alınmaz qalan,
Əlli yaş nədir ki, ən uca olan
Yüksək zirvəyə çat, ay Məğrur qardaş,
Yüzdə də yaz-yarat, ay şair qardaş!

Gözəllik vurğunu inanmam çaşa,
Dediyin kəlamlar həkk olur daşa,
Yaşa bu dünyayla, yaşa baş-başa.
Qalxıb zirvəyə çat, ay Məğrur qardaş,
Yüzdə də yaz-yarat, ay şair qardaş!

Loğmansan nahaqdan ağrıyan başa,
Baxmadın bu yolda borana, qışa,
Ay şair, layiqsən vallah alqışa.
Qalxıb zirvəyə çat, ay Məğrur qardaş,
Yüzdə də yaz-yarat, ay şair qardaş!

İstərəm zəhmətin getməsin boşa,
Qapılar üzünə açılsın qoşa,
Baxma gəl, qardaşım, eniş-yoxuşa
Qalxıb zirvəyə çat, ay Məğrur qardaş,
Yüzdə də yaz-yarat, ay şair qardaş!

Gözəl deyilmişdir, bəhanədir yaş,
Əlli il salmasın heç səni çaş-baş,
Nəğməyə, şeirə nə edər ki, yaş?
Qalxıb zirvəyə çat, ay Məğrur qardaş,
Yüzdə də yaz-yarat, ay şair qardaş!

DÖZMƏDİ ÜRƏYİM GÖZ YAŞLARINA...

Ömrün yaman günü, xoş günü olur,
Bir az səbrin olsun, ay dədəm oğlu!
Yarpaqlar saralır, çiçəklər solur,
Bir az səbrin olsun, ay dədəm oğlu!

Gözlərimiz güldü, ürək ağladı,
Sənin göz yaşların könül dağladı,
Sanki ağ günlərə yolu bağladı,
Bir az səbrin olsun, ay dədəm oğlu!

Gizlədə bilmədin göz yaşlarını,
Damlalar itirdi baxışlarını,
İlahi veribdir naxışlarını,
Bir az səbrin olsun, ay dədəm oğlu!

Hamımız Tanrının olmuşuq qulu,
Özü bağlayıbdır, tikandı yolu,
Sınağa çəkibdir Yaqub Məğruru,
Bir az səbrin olsun, ay dədəm oğlu!

Düş yolun ağına Araza sarı,
Bəlkə özün açdın bağlı yolları.
Gəldi qulağına hey Arazbarı
Bir az səbrin olsun, ay dədəm oğlu!

Ömürlər qısalır, günlər gödəlir,
Min fikir min borcu vallah ödəmir.
İsti döyüləydi kaş ki, o dəmir,
Daha səbrin yoxdur, ay dədəm oğlu!

Zəvvarsan qələmin acılı, şirin,
Birini deyirsən, kəsirsən birin,
"Şeş qoşa", "beş qoşa" gətirmir zərin,
Daha səbrin yoxdur, ay dədəm oğlu!

Səbr! Bu nə sözdür, kəsib yolları,
Sərhəddi də yoxdur, uzun qolları,
Atı gətirdilər yoxla nalları,
Daha səbrin yoxdur, ay dədəm oğlu!
Daha səbrim yoxdur, ay dədəm oğlu!

Həvva Fərzəliqızı
şairə

POEZİYA MƏBƏDİ

Səmimi bir təbrikdir,
Yazdığım bu misralar.
Hər cümlədə, hər sözdə
Könül dolu sevinc var.

Hər il ömür pilləsin
Məğrurlaşıb keçmisən.
Aşıb ömrün əllisin
Sən qəlblərə köçmüsən.

Keşməkeşli ömrünün
Çağlayıb şəlaləsi.
Xəyalında yaranır,
Qəlbin incə laləsi.

Altmış, yetmiş, səksən də,
Hətta yüz də gələcək.
Xoş iqbalın zirvədən
Üzümüzə güləcək.

Söyləyirəm ürəkdən,
Əbədisən, əbədi.
Yaratmısan sözlərdən
Poeziya məbədi.

Cəbrayıl Fikrət
Şair-publisist,
"Məktəb" qəzetinin baş redaktoru

TAPARSAN

Heç nə poza bilməz sənin izini,
Seçə bilsən əyrisindən düzünü.
Yaqub Məğrur, tapmaq üçün özünü
Fayda verməz hara pənah aparsan,
Sən özünü Cəbrayılda taparsan.

Axtara-axtara qırxı atmısan,
Vətəndə vətənsiz qəmə batmısan,
Qəriblikdə əlliyə də çatmısan
Buralarda altmışı da atarsan,
Sən özünü Cəbrayılda taparsan.

Düzdü, yüksələrsən şöhrətə, ada,
Əl tuta bilərsən qohuma, yada,
Xoş gün keçirməkçün sən bu dünyada
Burda yüksək pillələrə çatarsan,
Sən özünü Cəbrayılda taparsan.

Vəzifə qayıqdır, Bakı bir dəniz,
Siz bu qayıqdasız, var vəzifəniz,
Qarabağ yüklüdür çiyinləriniz
Çox dərinə üzmə, yoxsa batarsan,
Sən özünü Cəbrayılda taparsan.

Sən burda Yaqubsan, Məğrur Vətəndə,
Yurd yerində gül-çiçəklər bitəndə,
Cəbrayılın imdadına yetəndə
Bu Yaqubu o Məğrura qatarsan,
Sən özünü Cəbrayılda taparsan.

Aynur Şahtelli

şairə

YAQUB MƏĞRUR YARADICILIĞININ XƏLQİLİYİ VƏ VƏTƏNPƏRVƏRLİYİ

Yaqub Məğrur güclü qələm sahibi, gözəl insan, vətənpərvər şairdir. Yaqub Məğrur "Özümü axtarıram" kitabında həyatının keşməkeşli və böyük çətinliklərlə bağlı günlərini böyük şairanəliklə tərənnüm etmişdir. Vətən həsrəti daim onu öz adına uyğun məğrurluqla yaşamağa səsləyir. O öz şeirlərində vətənpərvərlik, vətəndaşlıq xüsusiyyətləri, xalqımıza məhəbbət və sevgi hissləri aşılayır.

"Haydı, tez silahlanın" şeirində şair Yaqub Məğrur bütün nəsillərə müraciətlə yazır:

Haydı, tez silahlanın, qisas vaxtı çatıbdır.
Düşmən elə bilər ki, Türk milləti yatıbdır.

Bu, öz sənətinə, yaradıcılığın əbədiyyətə qovuşacaq qüdrətinə ümid bəsləyən vətənpərvər ədibin səsidir, bu günə, sabaha, gələcəyin təntənəsinə inamın ifadəsidir.

Şairin bütün nəsillərə - simalarını aydın təsəvvür etdiyi nəsillərə ünvanlanmış bu çağırışlı müraciətində onun vətənpərvər səyləri, düşmənə qarşı döyüş əzmi, həmişə xalqımızla birgə olmaq arzusu yaşayır. Uzaqgörənliklə doqquz il əvvəl çağırışla

deyilmiş bu sözlər eyni ahənglə, eyni qüvvətlə indi də səslənsə, yersiz görünməz.

"Xalqa rəhmin gəlsin, Allah!" şeirində ərazilərimizin itkisi ilə barışmayan vətənpərvər şair belə yazır:

Şəhid oldu Cəbrayılım,
Qubadlıyla Zəngilanım,
Yad əldədi Qarabağım,
Yad əllər kəsilsin, Allah,
Xalqa rəhmin gəlsin, Allah!

Kəlbəcərlə gözəl Şuşam,
Füzuliylə igid Ağdam,
Laçıntək alınmaz qalam,
Yağıyamı qalsın, Allah?
Xalqa rəhmin gəlsin, Allah!

Şair dostumun yaradıcılığında zəbt olunmuş ərazilərimizin ölməz ruhu yaşayır, cəsarətli yaradıcılıq mahiyyətlərini, xalq həyatının daha dərin qatlarını mənimsəməyə səsləyir.

Çoxcəhətli və rəngarəng bir ədəbi yaradıcılıq yolunda olan şair Vətən və xalq gerçəkliyini geniş bədii lövhələrlə tərənnüm edərək yazır:

Bu dərdləri çəkən çəkir,
Sökən sökür, tikən tikir,
Məni yaman əyir, bükür,

Xalqı çalıb-çapan dərdi.
Haqq sözümə baxan yoxdur,
Vurhavurdur, yığhayığdır,
Tuthatutdur, yıxhayıxdır,
Yada düşmür Vətən dərdi.

Şairin şeirlərini oxuyaraq, onun gözlərində yaşadığı həyatın acılı-ağrılı ifadələrini görürəm:

Yaxşı tanımırsan hələ məni sən,
Bazar hara, dükan hara, mən hara.
Gəncliyim başıma qarlayan zaman,
Ehtiyac gətirdi məni al-verə.

Əlbəttə, şair təkcə öz taleyini yazmır. Öz səadət və gələcəyini axtaran yalnız o deyil, minlərlə soydaşımız "doxsandan bu yana" Vətən həsrəti ilə yaşayır:

Doxsandan bu yana günü qarayam,
Çatmır heç kimsəyə ünüm, harayım.
Yurduma kimlərdən imdad arayım?
Məni bu yollarda əritmə Allah!

Qaçqınlıq və məcburi köçkünlük həyatını şairanəliklə təqdim edərək fəlsəfi şeirlər müəllifi kimi püxtələşən Yaqub Məğrur sənətinə qüvvət və qüdrət verən hansı yaradıcılıq sirridir? Çətinlik çəkmədən, tərəddüdsüz belə cavab verərdim: Yaqub Məğrur yaradıcılığının xəlqiliyi və vətən-

pərvərliyi.

Bu bir-birini tamamlayan və bir-biriylə daim əlaqədə olan amillər, həyat gerçəkliyinin başlıca əxlaqi mahiyyətləri Yaqub Məğrur şeirinə ideya aydınlığı, fikri, fəlsəfi ardıcıllıq, xalq həyatına, onun taleyinə səadət və məhəbbət aşılamış, bütün bunlar isə əsl şair istedadı ilə birləşərək milli sənət xəzinəsini şairanə incilərlə zənginləşdirmişdir.

Seyfulla NAĞIBABA,
yazıçı-publisist.

İZTİRABDAN YOĞRULMUŞ POEZİYA

Hörmətli Yaqub müəllim, salam!

Sizin "Təhqiqat" qəzetinin 30 dekabr 2004 - 10 yanvar 2005-ci il sayında dərc olunan "Ana sevgisi" poemanızı həvəslə oxudum. İlk öncə onu qeyd etmək istəyirəm ki, poema təpədən-dırnağa ələmdən, iztirabdan, kədərdən yoğrulub. Hər həyat iztirabı qismən ölüm deməkdir. Siz bu poemanı yazarkən nə qədər iztirab çəkmisiniz. "Epiloqda" yazırsınız:

Tərs fırlandı zalım fələk,
İllər tez-tez ötüb keçdi.
Toxunmadı zalımlara,

Məzlumları seçib-biçdi.
Yaxşı baxın, ey insanlar,
Kimlər qaldı, kimlər getdi.
Yağmalandı doğma yurdum,
Qız-gəlinlər əsir getdi.

Bu misralar oxucunun sinirlərinə işləyir, qəlbləri riqqətə və ehtizaza gətirir. Yaqub müəllim, bəşərin amansız gedişi var. Bu gediş çoxlarını məhv edir: istər bütöv bir xalq olsun, millət olsun, istərsə də fərdi insan, dəxli yoxdur. Milliyyətindən asılı olmayaraq hər bir kəs bəşəri qanunlara əməl etməlidir. Hələ bəşəriyyətin nə qədər yazılmamış qanunları var. Qanunun udmadığını okean kənara tullaya bilir. Dəniz dalğalarını insan sevir, dalğa olmaq istəyənlər də olur, istəməyənlər də. Məğrur insanlar dalğa olmağı sevirlər. Tələtümlü bir dalğa. "Ana sevgisi" poemanızı oxuyub başa çatandan sonra sizi tələtümlü bir dalğaya bənzətdim. Yaqub müəllim, fransız yazıçısı V.Hüqo yazır ki, dəniz amansız ictimai bir gecədir, cəza verənlər məhkum edilənləri bu dənizdə qərq edir. Dəniz hədsiz bir iztirabdır. Bu uçuruma düşən insan meyid ola bilər. Onu kim dirildəcəkdir? Yaqub müəllim, diqqət edin, yazıçı sual verir. Məncə, bu sualın cavabı belədir: bu meyidi dirildən ancaq və ancaq bəşər, insan, haqq, ədalət, ləyaqət, şəxsiyyət, insanpərvərlik, humanizm, bəşəri qanunlara hörmət

və ehtiram və sairlər...

Yaqub müəllim, 12 il bundan əvvəlki doğulub boya-başa çatdığınız, canınızdan əziz sandığınız Mərcanlı faciəsi yaxşı yadımızdadır. Bu faciə neçə-neçə Mərcanlı igidlərini, qız-gəlinlərini, analarımızı qanına qəltan etdi, əsir düşənlərimiz də az olmadı.

Siz poemanızda ümumiləşdirilmiş gözəl bir ana obrazı yaradıbsınız. Ana iztirab, əzab çəkir. Torpağı yağı düşmən zəbt edib. Qaçan qaçıb, itən itib, ananın oğlundan xəbəri yoxdur:

On gün vardı ananın
Gözləri yol çəkirdi.
Ana Vətən həsrəti,
Torpaq dərdiydi dərdi.

Onu yandırıb yaxan,
Sızıldadan, ağladan,
Vətəndə girov qalan
Oğul dərdiydi dərdi.

Yaqub müəllim, poemanı o qədər bədii və ürək sızıltıları ilə qələmə almısınız ki, həyəcansız oxumaq olmur. Oğlunun ölüm xəbəri ildırım sürətilə bütün "Çadır"a yayılır. Hamı yas içərisindədir. Ana tez-tez özündən gedir. Oğula yas qurulur. On gündən sonra saçı-saqqalı sinəsinə qədər

uzanmış, hətta özündən böyüklərin əmi, dayı - deyə müraciət etdiyi oğul gəlib çıxır:

...Həftənin tamamında
Qapı açıldı birdən,
Daxil oldu çadıra
Yası tutulan oğlan.

Bu nədir, yuxudurmu,
Yoxsa həqiqətmidir?
Ölüm xəbəri çıxan
Oğlan qayıdıb sağlam.

Balasın sağ görəndə,
Ana getdi özündən.
Oğul su verdi ona,
Öpdü yaşlı gözündən.

Ana özünə gəldi,
Ayıldı bu məlhəmdən.
Oğlundan eşitdiyi
Şirin "Ana"... sözündən.

Yaqub müəllim, mən bu bəndləri poemanın kulminasiya, yəni zirvəsi hesab edirəm.

Yaqub müəllim, insanda bəzən elə hallar olur ki, fikirlər və düşüncələr bir-birinə qarışır. Beyində qəribə bir hərc-mərclik əmələ gəlir. Keçmişin xatirələri yeni yaranan xatirələrlə bir-birinə qarışır. Hədsiz dərəcədə böyüyür, poetik misralara çevrilir. Sizin hər bir misranız ürəkdən gəlir.

Elə buna görədir ki, ürəklərə də asanlıqla yol tapa bilir.

Yaqub müəllim, yaxşı bilirsiniz ki, insan gündüz çoxlu təəssürat aldıqda və beyni bir çox məsələlərlə məşğul olduqda axşamdan asanlıqla yatır, gecələr əcaib yuxular görür. Yuxular da müxtəlif cür olur, ağı da olur, qarası da, qırmızısı da... Mənə elə gəlir ki, şairlər daha çox yuxular görürlər. Müəllifi yadımda qalmayan bir şairin belə misraları var:

Yuxularda ölüm gördüm,
Qara ölüm, qırmızı ölüm.
Yuxularda kəfən gördüm,
Qara kəfən, qırmızı kəfən.

Yaqub müəllim, sizin ana qəhrəmanınızın ölümü qırmızı ölümdür, buna görə də kəfəni qırmızı kəfən olmalıdır. Oğulu ölümün caynağından almaqdan şərəfli, ləyaqətli əməl varmı?

Oğlunun əvəzinə,
Ana gedib rəhmətə.
Onun bu hərəkəti,
Layiqdir hər hörmətə

və yaxud,

Ana imkan vermədi,
Heç qorxmadı fələkdən.
Balasını qurtardı,

Ölüm adlı mələkdən.

Yaqub müəllim, siz poemada təkcə ana obrazı yaratmırsınız, həm də eyni zamanda oxucularımızda yurda sevgi, məhəbbət hissləri aşılayırsınız. Vətən oğullarını yağı düşmən tapdağı altında olan torpaqlarımızı azad etməyə səfərbər edirsiniz.

Yaqub müəllim, artıq siz püxtələşmiş şairlərimizdən birisiniz. Sizə yeni-yeni yaradıcılıq uğurları arzulayırıq!

Hörmətlə:
Çapar KAZIMLI,
yazıçı-publisist.
2005-ci il

AXTARIŞ VARSA, TAPINTI DA OLAR

Şair Yaqub Məğruru Cəbrayıl rayonunda baş verən məlum hadisələrdən də qabaq bir ziyalı kimi tanıyırdıq. Biz "Ədəbiyyat qəzeti"ndə 1995-ci ildən işləməyə başlayandan sonra isə onun imzasını əvvəl "Məhsul", sonralar isə "Şəhidlər" qəzetindən daha böyük maraqla oxuyub, nə vaxtsa görüşəcəyimizi gözləyirdik. Vətən həsrətilə yazılan "Bu dərdin adı Cəbrayıl" və "Cəbrayılın qəm dastanı" almanaxlarında dərc olunan şeirləri ürəklərə yatdı, bizim

canlı görüşümüzü tezləşdirdi.

İstedadlı şairin oxucuları ilə üçüncü görüşü olan "Özümü axtarıram" şeirlər kitabı, daha dolğun, Vətənə bağlılığı ilə könüllərə bir ümid çırağı yandırır.

"Özümü axtarıram" adlı şeirində öz yaradıcılığını tədqiq edərək, minillik Azərbaycan poeziyasının ədəbi aləmində yeni doğulan körpəyə bənzətməsi onun özünə məxsus ən gözəl uğurlarından biridir:

Ayağım yer tutub, ağlım kəsəndən,
Başladım bir doğru, düz axtarmağa.
Həyatda özümü tez tapmaq üçün,
Çalışdım bir cığır, iz axtarmağa.

Yaqub Xudiyevin çoxsahəli yaradıcılıq axtarışları, onun Yaqub Məğrur imzalı sevilən bir şairə çevrilməsinə hələ özü sual işarəsi qoyub:

Axtara-axtara qırx bir yaşımda,
Nəhayət qürbətdə tapdım özümü.
Ancaq ki, hələ də əmin deyiləm,
Bu yeni tapdığım mənim özümmü?

Şair Məğrurun ayağı yer tutub ağlı kəsdiyi yer Cəbrayıl rayonudur. Doğma yurda bağlılığın poetik tərənnümünü "Cəbrayıl" şeirindən bir bəndini oxucuların ixtiyarına veririk:

"Sonu çatacaqmı intizarımın?
Bəxti açılarmı könül tarımın?..
Söylə, sağalıbmı Xan Çinarımın
Raketlə vurulan qolu, Cəbrayıl?!"

Doğru cığır, iz axtaran 50 yaşlı şair Yaqub Məğrurun ulu Yaradana suallarından biri "Niyə" şeirində yerində səslənir:

"Anlaya bilmirəm hansı səbəbdən
Xalqımı taledən küskün eylədin.
Erməni dığasın torpaq sahibi,
Azəri türkünü köçkün eylədin."

Şair qardaşımız Yaqub Məğrurun axtarıb tapdığı ilk doğru, düz olan Ananın qüdrətini doğrudan da Allahla eyniləşdirmək səviyyəsinə qədər yüksəltməsi "Ana sevgisi" poemasının proloqunda könül açır, öz müqəddəs borcunu qaytarmağa doğru necə çalışdığına dəlalət edir:

"Tanrının qüdrətiylə
Həyatın davamına,
İlahi varlıq kimi
Övlad gətirir Ana.

Qala bilməz övladın
Taleyinə biganə.
Göydə Allah, yerdə o

Yeganədir, yeganə."

Anası Yaqubu dünyaya gətirdi, Məğrur isə hər şeydən əvvəl ülvi duyğularla, bir şair kimi məhsuldar qələmi ilə bütün analarla bərabər öz anasını da yenidən dünyaya gətirdi.

"Özümü axtarıram" kitabının maraqlı məziyyətlərindən biri də odur ki, gənc şair Novruz Yaquboğlunun da kitabın axırıncı səhifələrində tərcümeyi-halı haqqında məlumat və iki şeiri göz oxşayır. "Yurdumu istəyirəm" şeirini oxuyanda adamın ürəyi parçalanır:

"Üç yaşında vətəndən,
Mən didərgin düşmüşəm.
Çadırlarda istidən,
Qovrulmuşam, bişmişəm.

...Vətəndəki evimiz,
Güclə gəlir yadıma.
Şəhərli uşaqları
Qaçqın deyir adıma..."

Bilirik ki, əvvəllər riyaziyyat kitablarının içindəki məsələ və misalların axırında həmişə cavabları yazılardı. Ona əsasən demək olar ki, özünü axtaran Yaqub Məğrur özünü kiçik oğlu Novruzda tapır. İstərdik ki, Yaqub müəllim axtara-axtara tezliklə Cəbrayıl rayonunu, Böyük Mərcanlı kən-

dini, Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağı da tapsın.

Əziz qələm dostumuz, Sizə Zirvə yaşınız əllinin tamam olması və sahibi olduğunuz "Təhqiqat" qəzetinin 50-ci sayının çapdan çıxması münasibəti ilə uğurlu axtarışlarla bərabər, möhkəm can sağlığı, uzun ömür arzulayırıq!

Eyni zamanda biz də bu axtarışlara qoşulub, cığırlardan, izlərdən keçib, doğru, düz yola çatmağa çalışırıq.

Bu yerdə yenə rəhmətlik atalarımızın sözünə qayıdırıq: "Axtaran tapar". Uca Allah elə eləsin ki, axtardıqlarımızı birlikdə tapaq.

Müsrəddin Mehdi
Azərbaycan Yazıçılar Birliyinin üzvü,
"Ədəbiyyat qəzeti"nin şöbə müdiri.

Bayram Qaralov
Filologiya elmləri namizədi.

ÖZÜNÜ AXTARAN İNSAN

Yaqub Məğrur imzası ilə dövri mətbuatda çıxışlar edən Yaqub Əmirqulu oğlu Xudiyev "Özümü axtarıram" ("Araz", 2006) kitabı ilə oxucuların görüşünə gəlib.

Qəfil ayrı düşdüm daş sarayımdan,
Qürbətdə başladım özül qazmağa.
Muğanda qurduğum çadır evimdə,
Dərdimdən başladım şeir yazmağa.

Kitabın adı ilə nə demək istəyir müəllif? Hansı mənada özünü axtarır Yaqub Məğrur? Bu cavabı vermək üçün bir el bayatısı köməyə yetir:

Məni görən ağlasın,
Zülfün hörən ağlasın.
İndi görən tanımaz,
Əzəl görən ağlasın.

Bəli, Yaqub müəllim əzəlki dövranını - qüdrətli keçmişini axtarır, əzəlki çağlarına qayıtmaq istəyir, əzəlki özünü tapmaq, əzəlki özü olmaq istəyir. "Qəfil ayrı düşdüm daş sarayımdan" - bu sətirlə özünün əzəlki halına-əhvalına eyham vurur, qabaqkı dövranının necə olduğunu demək istəyir və bu mənada həminki özünü axtarır

Yaqub müəllim. Halal zəhməti, alın təri ilə qazandığının hesabına tikdirdiyi daşdan olan imarətindən ayrı düşüb - evindən-eşiyindən, doğma ocağından, ata-baba yurdundan didərgin düşüb və qürbətdə yaşının bu vədəsində özünə təzədən "özül qazır" - ev-eşik düzəldir, hansı ki, o, bu çağında öz oğluna-qızına ev tikmək, özül, bünövrə tökməliydi. Və hələ bunlar azmış kimi belinə bir "qaçqın, köçkün" damğası vurulub, tənə-töhmətlə qarşılanır. Bax Yaqub müəllim bu "qaçqın", "köçkün" ləqəbindən özünü qurtarmaq istəyir, axı o, qaraçı deyildi ki, heç yerli-dibli, kökündən evi-eşiyi olmasın! Axı onun da özünə görə evi-mülkü, xanimanı var idi. Axı o, anadan qaçqın-köçkün, evsiz-yurdsuz doğulmamışdı ki! Axı onun da evi, yeri, torpağı vardı və özünə görə mənliyi-qüruru vardı, elə o qüruru, mənliyi də öz adının böyründə məhz bu mənada təxəllüs edib yaşadır: "Məğrur". Onun vüqarını-məğrurluğunu heç nə əlindən ala bilmədi. Onun axtardığı da məhz doğma dədə-baba yurdu, öz obasında-daxmasında bəy, xan kefində yaşadığı günlərə qayıtmasıdır. Bax onda axtardığı həqiqi özünü tapacaqdır Yaqub Məğrur:

Muğanda qurduğum çadır evimdə,
Dərdimdən başladım şeir yazmağa.

Elə Yaqub müəllimi dilləndirən - əlinə qələm almağa vadar edən də dərddir, vətənsizlik-evsizlik dərdi, daş sarayından ayrı düşüb, çadırdan özünə binə-comalaq düzəltməsidir.

Yazır ki, "qürbətdə özümü tapdım, amma əmin deyiləm ki, bu, özüməmmi?"

Kitabda toplanan nümunələrdə də onun öz sözünü - həyatını, özünü axtardığının şahidi oluruq. Kitabın "Poemalar" hissəsində verilmiş "Ana sevgisi" adlı yazısında da biz məhz qaçqın, köçkün həyatının təsvirini görməklə yəqin edirik ki, Y.Məğrur yaratdıqlarında sülh-əmin həyat, doğma yurda qayıdış anını səbirsizliklə gözləyir və bunda özünü tapmaq istəyir.

Əslinə qalsa bu dünyaya gələn hər şəxs özünü axtarır. Buna doğru həyatı boyu yol gedir. Bir fərd olaraq Y.Məğrur da özünü axtarışdadır - yurd həsrətindədir. Yolundan duman-çən çəkilsin, taleyindən qara yazı - qaçqınlıq ömrü götürülsün, Yaqub müəllim! Özünü axtardığın yolun açıq olsun - doğma Mərcanlıya, Cəbrayıla, Qarabağa və Qərbi Azərbaycanımıza qovuşmaqla özümüzü tapaq, onda təkcə sən yox, elə biz hamımız bütövlüyümüzü taparıq - kimliyimizi göstərərik! Əlbəttə ki, hər kəs özünü tapanda - hər kəs özündəsözündə, şəxsiyyətində bütövləşəndə mükəmməl görünür, kamil olur. Kaş bu dün-

yada hər kəs özünü axtara, tapa, özü ola və hər kəs də başqasının yox, özünün sözünü deyə - özü kimi danışa, özü kimi düşünə və özü kimi də görünə! İnsanın da insanlığı, dünyanın əşrəfi sayılan insani gözəlliyi bax onda özünü təsdiq edir.

Şakir Əlifoğlu
"Haqqın səsi" qəzeti

YAQUB MƏĞRUR YARADICILIĞI MÜASİR GƏNCLİYİMİZ ÜÇÜN BÖYÜK TƏRBİYƏVİ ƏHƏMİYYƏTƏ MALİKDİR

Hər bir insan bələkdən məzara qədər keşməkeşli bir ömür yolu keçir. İlahi tərəfindən ona bəxş edilmiş bu ömür yolunda qoyduğu izlə tanınır, yadda qalır, dünyasını dəyişib əbədiyyətə qovuşandan sonra əməlləri ilə xatırlanır insan.

Bu gəldi-gedər dünyanın keşməkeşliyini dərindən duyub dərk edərək sözü hikmətə çevirib geniş oxucu auditoriyasına çatdıranlar bəşəriyyət tərəfindən sevilərək şair adını qazanırlar.

Həyat duyğularını, ülvi, bəşəri dəyərləri, sevgi müqəddəsliyini, Vətən və vətənpərvərlik məhəbbətini poetik dillə qələmə almaq müəllifdən başqalarına nəsib olma-

yan yaşantılar tələb edir. Və Allah vergisi olan bu məziyyətləri özündə cəmləşdirənlər həyatın müxtəlif sferalarına nüfuz etməyi bacarır, duyub hiss etdiklərini sözsöz, misra-misra poeziyaya çevirərək bu gəldi-gedər dünyada özlərinə məxsus əbədi iz qoyurlar.

Belə yazarlardan biri də Yaqub Məğrurdur. Şairin müxtəlif səpkili şeirlərinə diqqət yetirəndə kitaba ön söz yazmış yazıçı-publisist Qalib Qadirin qeydlərini oxuculara çatdırmaq yerinə düşər. "Yaqubu Vətən həsrətindən doğulan şair adlandırsaq, səhv etmərik. Çünki şairin dərdi şəxsi dərd deyil, Vətən dərdi, el-oba həsrətidir.

Amma təəssüf ki, şairin harayına hay verənlər tapılmır. Şair bundan məyus olub "Bizim ərliyimiz görən necoldu?!" - deyib öz-özünə tüstülənir:

Xain düşmənlərə vurmaqçün zərbə,
İgid sərkərdələr gərəkdir türkə,
Yeddi min, yeddi yüz dəliylə birgə,
O qoç Koroğlumuz görən necoldu?!

"Didərgin olmaqdan yaxşıdır ölmək" deyən şairi ən çox sarsıdan və üzən əlacsızlıq və milli taqətsizlikdir. Ona görə də Allahdan onun məğrurluğunu sındırmamağı, bu dünyadan köçəndə gora üzüağ getməyi diləyir:

İlahi, sındırma məğrur Yaqubu,
Düşmən qarşısında, şər qarşısında.
Bu fani dünyadan köç edən zaman,
Qoy olum üzüağ gor qarşısında...

... Yaqub haraylayır mərd ərənləri,
Qəlbindən intiqam püskürənləri.
İnləyən Vətənin qalib əsgəri,
Olmaq istəyirəm, ola bilmirəm.

Həyatımızın başlıca faciəsi bundadır! Xalq istədiyini edə bilmir, hər şeyi görür, duyur, dərd çəkir, amma dərdinə əlac edə bilmir. Sanki özümüzə yadlaşmışıq. Özü ilə meydanda tək qalmış fərdlər heç vaxt heç nə edə bilməyib".

Kitabı vərəqlədikcə oxuduğumuz şeirlərdən belə bir qənaətə gəldik ki, şair Yaqub Məğrurun özünəməxsus poetik duyumu, söz demə qabiliyyəti, ifadə tərzi vardır. Müəllif şeirlərində oxucular tərəfindən sevilən, daha tez nəğmələşə bilən və yaddaqalan qoşma və bayatı üslubuna üstünlük verir.

Kövrək və səmimi duyğularla yazılmış şeirləri müəllifin təmiz və saf iç dünyasını, Vətənə, xalqa, torpağa bağlılığını göstərməklə yanaşı, müasir gəncliyimiz üçün böyük tərbiyəvi əhəmiyyətə malikdir.

Ümumiyyətlə, Yaqub Məğrurun öz ya-

radıcılıq dünyası vardır. Onun şeirləri həyat reallığından bəhrələndiyi üçün sadə və oxunaqlıdır, yaddaqalandır. Əminik ki, Yaqub Məğrurun "Özümü axtarıram" şeir toplusu geniş oxucu auditoriyası tərəfindən maraqla qarşılanacaq.

Nizami Mirzə,
yazıçı-publisist.
"Azərbaycan müəllimi" qəzeti

YAQUB MƏĞRURUN ŞEİRLƏRİ VƏTƏN HARAYIDIR

Qarabağın dilbər guşələrindən biri olan, axarlı-baxarlı, barlı-bərəkətli Cəbrayıl torpağı mənfur ermənilər tərəfindən artıq 13 ildir ki, işğal edilib. Bu bölgədə yaşayan 56 min cəbrayıllı Azərbaycanın müxtəlif rayonlarına məcburi didərgin düşdü. Adam inana bilmir ki, o dəhşətli gündən 13 il keçib. O hadisələr gözlərimiz önünə gəldikcə, elə bilirik ki, hər şey dünən olub, sanki o odun-alovun içindən dünən çıxmışıq.

1993-cü il 23 avqust gününü hər bir cəbrayıllı ürək ağrısı ilə yada salır. Qarabağ əsrlər boyu yadelli işğalçıların əlində yağlı tikə olub. Bütün bunlara baxmayaraq, onun qəhrəman sakinləri öz varlığını, vüqarını saxlayıb, tarixi keçmişini unutma-

yıb, adət-ənənəsini, ən başlıcası, ana dilini itirməyib. Belə Vətən həsrəti yaşayanlardan biri də Yaqub Məğrurdur.

Yaqub Məğrur "Özümü axtarıram" adlı şeirlər kitabında vətən dərdi, el-oba həsrətini dilə gətirir. Onun "Haydı, tez silahlanın" adlı şeirində belə duyğuların şahidi oluruq:

Ey vətən övladları, torpağın işğal olub,
Əsirlikdə qızların yanağı gül tək solub,
Gözləməkdən gözləri kədərlə, qəmlə dolub.
Haydı, tez silahlanın, qisas vaxtı çatıbdır,
Düşmən elə bilər ki, türk milləti yatıbdır.

Və ya:

Dözməyir ürəyim, ey ulu Tanrım,
Vətən həsrətilə qəlbim qocaldı.
Bilmirəm yurdumu kimlərdən sorum,
Doğma yerlərimiz görən necoldu?

Yaqub Məğrur qəlbinin bütün niskillərini qələm vasitəsiylə oxuculara çatdırır. Qarabağın dilbər guşələrindən biri olan Cəbrayıl rayonunda doğulub boya-başa çatmış, saf və təmiz havasını udmuş, göz yaşıtək duru bulaqlarının suyundan içmişdir. Onun respublikanın aran rayonlarında məskunlaşan, lakin orada yaşayışa tab gətirə bilməyən məsləkdaşlarına yazdığı şeirin bir bey-

tini oxucularımıza çatdırmağı özümə borc bilirəm:

Muğanın torpağı, suyu şorandı,
Yayı çox isti, qışı borandı.
Çadırdan burada şəhər yarandı,
Hamı bir-birinə təndi çadırda.

"Özümü axtarıram" şeirində mənə elə gəlir ki, müəllif öz cığırını, öz yolunu və nəhayət, özünü tapmışdır:

Ayağım yer tutub ağlım kəsəndən,
Başladım bir doğru, düz axtarmağa.
Həyatda özümü tez tapmaq üçün,
Çalışdım bir cığır, iz axtarmağa.

Vətən harayı Yaqub müəllimin demək olar ki, bütün şeirlərində hiss olunur:

Yeddi il ötüşür son ayrılıqdan,
Çatmır əllərinə əlim, Cəbrayıl!
Uzaqdan-uzağa hal-əhval üçün,
Ürəkdən deyirəm, salam, Cəbrayıl!

Bütün insanlara xas olan həyat eşqi, sevgi-məhəbbət də müəllifin şeirlərində özünəməxsus yer tutub:

İnsan bu dünyaya qədəm basarkən,
Onunla bərabər gəlir məhəbbət.
Ovlayıb oğlanla, qızın ürəyin,
Birlikdə qəfəsə salır məhəbbət.

Yaqub Məğrurun həyatı elə bil kitabdır, onun kitabında olan bayatılar, laylalar, Aşıq Ələsgər sayağı qoşmalar insanı öz keçmişinə səsləyir.

Biz Yaqub müəllimi "Özümü axtarıram" adlı şeirlər kitabının işıq üzü görməsi münasibətilə təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzulayırıq. İnanırıq ki, bu kitab onun sonuncu kitabı olmayacaq.

Gün o gün olsun ki, düşmən tapdağı altında olan torpaqlarımız azad olunsun, məcburi köçkün və qaçqın soydaşlarımız öz isti yurd-yuvalarına dönsün və Yaqub müəllim doğma Cəbrayıl torpağında övladlarına toy-büsat qursun!

Gülxas SƏMƏDLİ
"Müstəqil Respublika"
qəzetinin baş redaktoru.

YAQUB MƏĞRUR DƏRDDƏN DOĞULUB

Yaqub Məğrurla 2001-ci ildə tanış oldum. İndi "Azərbaycan" Dövlət nəşriyyatında işləyir. Onunla yaxın ünsiyyətdə olduqdan sonra gördüm ki, Yaqub müəllim mətbuat aləmində iti qələmiylə, haqq işiylə, halal zəhmətiylə çalışır. O, qeyrətli və-

təndaş, səmimi insandır. Olduğu kimi görünməyə çalışır. Zahiri görünüşü mülayim, daxili aləmi genişdir. Ürəyi təmiz, qəlbi kövrəkdir. Gözəl ailə başçısı, qayğıkeş ata və səmimi rəhbərdir. Kömək üçün ona müraciət edənlərə təmənnasız olaraq xidmət etdiyini görəndə onun məğrurluğuna həsəd apardım...

...Yaqub Məğrur ilk şeirlər kitabını "Özümü axtarıram" adlandırıb. Lakin mən onu "Vətən dərdi" adlandırardım. Çünki, şairin dərdi şəxsi dərd deyil, Vətən dərdi, el-oba həsrətidir:

Şəhid oldu Cəbrayılım,
Qubadlıyla, Zəngilanım.
Yad əldədir Qarabağım,
Xalqa rəhmin gəlsin, Allah.

- deyə fəryad edir, Ulu Tanrını köməyə çağırır.

Yaqub Məğrur elindən, obasından, yurdundan-yuvasından, öz doğma, əziz, ata-baba ocaqlarından didərgin düşmüş bir milyondan artıq həmvətənlərimizin qaçqın həyatıyla, işğal olunmuş Azərbaycan torpaqlarının yağı əlində qalmasıyla, itaətlə barışmır.

Bir şeirində şair Vətən övladlarına üz tutaraq hayqırır, qoç ərənləri

On beş ildir, Şuşanın gözləri yollardadır,
Kəlbəcərin, Laçının qolları qandaldadır.
Cəbrayılım, Füzulim.., Ağdamım nə haldadır?
Haydı tez silahlanın, qisas vaxtı çatıbdır,
Düşmən elə bilər ki, türk milləti yatıbdır.

- deyə soraqlayır. Ən ağrılısı budur ki, Vətəndə vətənsiz yaşayan, doğma el-obasında "qaçqın, köçkün, didərgin" çağrılan insan həm də öz dərd-səri və ürək ağrısı ilə doğma el-obasında fikrən "təkdir, yalqız və kimsəsizdir". O, öz qəlbinin səsini, ürəyinin sözünü deməyə belə bir həmdəm, sirdaş və qəmxar tapmır. Taleyindən gileylənir. Təklənir elə bil. Şeirlərində Allaha yalvarır, Allaha üz tutur, ona müraciət edir, ondan kömək, pənah umur... Ona elə gəlir ki, o bu yolda təkdir. Öz fikrinin, dərdinin, harayının, üsyanının əlindən tutub gedən şair arxasındakı şairləri, yazıçıları, jurnalistləri, insanları və s. görmür.

Şairlər dünyaya elə-belə gəlmirlər. Haqsızlıq olanda, Haqq tapdananda, biribaşqasının yurduna, varına, payına sahib olanda Ulu Tanrı tərəfindən Yerə mələk təki endirilən şairlər nizam tərzini düz tuta bilir. Çox vədə dərddən, qəmdən, kədərdən doğulur şairlər. Yaqub Məğrur da dərddən doğulub. Özü də "Çadır evi"ndə. Şeirlərini oxuyanda səhrada, susuz, işıqsız, istiliksiz boz, köhnəlmiş çadırda yaşayan

qocaların, uşaqların, yeni doğulan körpələrin, ac, susuz, çılpaq, ayaqyalın, məktəbsiz, dəftərsiz, qələmsiz, kitabsız, müəllimsiz məktəblilərin acı həyatını hiss edirsən. Yağış yağanda köhnəlmiş, cırılmış çadırda içəri yağış yağır. Soyuqlu, qarlı havalarda soyuq, qar, şaxta dolur bu "çadır evlərinə". Dəhşətə gəlirsən, üşüyürsən, hirslənirsən və ayağa qalxırsan...

Yaqub müəllimin duyğularını daha dərindən başa düşən, onu bir ata, yaxın dost, qardaş və şair kimi dərk edən, 1991-ci ildə Cəbrayılın Böyük Mərcanlı kəndində doğulan və "Çadır evi"ndə boya-başa çatan Novruz Yaquboğlu kitabın sonunda həm Allahdan, həm şair atasından, həm də İNSANLARDAN haqlı olaraq yurdunu tələb edir.

Yalvarıb Allahımdan
Yurdumu istəyirəm.
Vətəni azad edən
Bir ordu istəyirəm.
Novruz deyir toplayaq,
Gəlin mərd ərənləri.
Qovlayaq yurdumuzdan
Erməni düşmənləri.

Qalib Qadir
yazıçı-publisist

ƏLLİ İLLİYİN MÜBARƏK OLSUN, YAQUB MƏĞRUR!

Azərbaycan mətbuatında öz dəsti-xətti ilə seçilən yaradıcı insan Yaqub Məğrurun anadan olmasının 50 illiyi tamam oldu. Qələmini haqqın, ədalətin yolunda süngüyə çevirmiş, yaradıcılığında Vətən tərənnümünə geniş yer verən bu böyük insan, şair həm də "Təhqiqat" qəzetinin təsisçisi və baş redaktorudur. Bu da bir xoş təsadüfdür ki, doğum günü ilə "Təhqiqat" qəzetinin 50-ci sayının işıq üzü görməsi eyni vaxta düşür. Düşündürücü fikirləri ilə haqq-ədalət uğrunda mübarizə aparan, möhkəm iradəyə və sağlam əqidəyə malik Yaqub Məğruru bu əziz gün münasibətilə təbrik edir, ona xoş ovqatlı günlər, yaradıcılığında yeni-yeni uğurlar arzulayırıq.

Baş redaktor Rizvan Əhmədli,
Ziyadxan Rüstəmli və
"Ekspert" qəzetinin kollektivi
24-30.11.2006

TƏBRİK

Azərbaycan Jurnalistlər Birliyinin və "İti qələm" respublika ədəbi birliyinin üzvü Yaqub Məğrur dövri mətbuatda 1996-cı ildən fəaliyyət göstərir. Biləsuvarda çıxan "Məhsul" qəzetində çalışdığı iki il ərzində "Xudafərin nəğmələri" ədəbi birliyinə rəhbərlik edib.

"Özümü axtarıram" Yaqub Məğrurun ilk şeirlər kitabıdır. "Qarabağım - qəm sarayım", "Xoş sözdə hər dərdin dərmanı vardır", "Məhəbbət hər şeydən şirindir, şirin", "Təbrik də insanın xoşbəxt anıdır", "Məzəli sətirlər xeyirdir cana" kimi bölmələrə ayrılıb. Şairin "Ana sevgisi", "Oğluma nəsihət", "Əsgər sevgisi" adlı irihəcmli əsərləri isə "Poemalar" adlanan bölmədə toplanıb.

Şeirlərin də, poemaların da əsas ana xəttini Vətən sevgisi, yurd həsrəti, Vətəndə vətənsizlik dərdi, doğma el-obada qaçqın, köçkün, didərgin həyatı yaşamaq ağrısı təşkil edir.

Kitaba yazıçı-publisist Qalib Qadir "Vətən həsrətindən doğulan şair" adlı geniş ön söz yazmışdır.

Nərgiz Rüstəmli,
"Respublika" qəzeti.

TƏBRİK

Xalqımızın qeyrətli oğlu, fədakar insan, humanistliyi və insanpərvərliyi ilə neçə-neçə küsmüş qəlblərə sevinc bəxş edən, vətənini və xalqını öz varlığı qədər sevən, dərin zəkası və güclü yaddaşı ilə çoxlarına nümunə olan, bir sözlə haqqın carçısı, ədalətin qurucusu, mətin bir insan olan Yaqub Məğrurun anadan olmasının əlli illik yubileyi ilə yanaşı, təsisçisi olduğu "Təhqiqat" qəzetinin də əllinci sayı işıq üzü görür. Qeyd edək ki, bu illər ərzində mətbuatımızın çiçəklənməsində və zənginləşməsində böyük zəhmət sahibi olan Yaqub müəllim qələminin gücü ilə həmişə haqq-ədalət uğrunda mübarizə aparmış, onun bərpasına çalışmışdır. Bütün bunların nəticəsidir ki, Yaqub müəllimin əlli illiyi və "Təhqiqat" qəzetinin əllinci sayının çıxdığı gün hər kəsin tarixi yaddaşına birdəfəlik həkk olunacaq. Sözsüz ki, bu günü yaşayanlar əlli illik ömür yolunun enişli-yoxuşlu günlərinə bir nəzər salacaq, coşan qəlblərinin dərinliklərindən süzülüb gələn xoş arzu və istəklərini bildirməklə ona yaradıcılığında yeni-yeni uğurlar, əlçatmaz zirvələr fəth etməsini qadir Allahdan diləyəcəklər. Biz də bu əziz gün münasibətiylə böyük istedad sahibi Yaqub Məğruru ürəkdən təbrik edir, ona can sağlığı, uzun ömür, ailə səadəti və xoş günlər arzulayırıq.

"Vətəndaş və İnkişaf" qəzetinin təsisçisi
və baş redaktoru Kamal Qurbanov

MOŞU GÖYƏZƏNLİYƏ MƏKTUFLAR

(Yumor)

Şair Moşu Göyəzənliyə irayondan gələn məktufların çoxluğu barədə çox danışmışıx. Əlavə onu deyək ki, paketdən qoşma, poema çıxanda kişinin kefi yaman kök olor. Şair Yaqub Məğrurun Muğandan göndərdiyi "Çadırda" qoşması isə başqanı lap valeh eliyif. Qoşma Moşu qağaya doğma mövzuda olduğu üçün savrı çatmıyıf öyə aparmağa, qayıdıf aşıx Məddaha deyif:

- Dərdiş, ala bunu saznan oxu, burdaja qulax asem. Görək bu sözdər sazın siminə, pərdəsinə nətəri yater.

Aşıx Məddah sazı köklüyüf girdi meydana:

Muğanın torpağı, suyu şorandı,
Yayı çox istidi, qışı borandı,
Çadırdan burada şəhər yarandı,
Hamı bir-biriylə təndi çadırda.

Moşu qağa söyündüyündən ayağa qalxıf dedi:

- Halal olsun, a şair Məğrur, ayə, nə gözəl yazıf, qəminizm bax buna deyəllər. Bə çadır şəhərinin merinə şikatdarı-zadı olanda millət mitinqə yığışıf qışqırermi?

Orda demqratiyadan, aşkarrıxdan bir şey varmı?

Aşıx Məddah dedi:

-Qulax as, gör nağayrerlar, Moşu qağa:

Cərgələr bənd-bənddi, sətir-sətirdi,
Çadırdan-çadıra bircə metrdi,
Aşkara danışmaq burda çətindi,
Qonşular pıç-pıçla dindi çadırda.

Ömür dəftərini varaqlayırıq,
Cırıq çadırları sırıqlayırıq,
İnləyən Vətəni soraqlayırıq,
Həsrətdən qəlbimiz sındı çadırda.

Moşu Göyəzənli:

- Ay gözəl çadır həyatı, gənə yadıma keçən günnər düşdü, burnumun uju göynədi. Əmbə deyəsən demqratiya hələ oraya gedif çıxmıyıf. Ayə, yavaş-yavaş dana! Aşıx dalını oxu görək çadır əhli nəynən dolaner, yardım-zad olormu?

Aşıx Məddah:

- Olor, Moşu qağa, olor, dərd ayrı şeydəndi:

Nə qədər yardımla dolanmaq olar,
Yan-yana, üst-üstə qalanmaq olar,
Vətəndə Vətənsiz talanmaq olar,
Ürəyim özümdən döndü çadırda.

Burda tüğyan edir hər cür xəstəlik,
Dərdliyə tapılmır dərman üstəlik,
Ölənlər çox olur, aylıq, həftəlik,
Çoxunun çırağı söndü çadırda.

Moşu qağa:

- Aşıx, dünyadı da, əjəldən heç kim qaçmıyıf, qaçmıyajax da. O da çox yaxşıdı ki, orda ölənlərin aylıx, həftəlik uçotu aparıler, heç kəs dünyadan beyxavar getmer. Çırağın sönməyini isə dərd eləmək ayıfdı. Şair Məğrur gərək onu heç dilinə almayaydı. Çadırda külfət var, hamı bir-birinin nejə yatdığını görsə, bə musurmançılıx harda qaldı? Ayə, oxu görək hava haqqında da bir şey varmı?

Aşıx Məddah:

- Moşu qağa, külfət deyəndə yəqin uşaxları nəzərdə tutorsan. Burda o barədə də yazılıf, hava şəraiti barədə də:

Dözməyir uşaqlar burda sərt qışa,
Göylərdən tökülən qara, yağışa,
Ay Allah üzünü çevir bu tuşa,
Soyuqdan uşaqlar dondu çadırda.

Qarlı qış çevrilir dönəndə yaza,
Palçıq da çıxanda topuqdan dizə,
Qaçqının canını yığdı boğaza,
Axı o insandı, candı çadırda.

Şair Moşu:

- Ayə, görörsənmi çadırın qüdrətini, həmişə od tökülən Muğana əsl dağ havası gətirif. Ona görə də şair Məğrur nahaq yerə naşukürlük eləyir. Aşıx, sinəmə bədahətən bir qatar söz gəldi, onu da qələmə al:

Söylünün verdiyi paya baxanda,
Qavda ət yerinə suya baxanda,
Vallah gənə bizim öyə baxanda,
Xalqımız daha çox şəndi çadırda.

Aşıx, o biri bənddə kədərli söz varsa dəyiş, oftimis elə!

Aşıx Məddah:

- Narahat olma, Moşu qağa, qoşmanın təkcə tafşırması qalıf, o da mehribançılıxnan bağlıdı.

Aşıx Məddah sazın zil pərdəsinə enif qoşmanın tafşırmasını zəngulə vura-vura başqanın qulluğuna yetirdi:

Demək istəyirəm şerin sonunda,
Yaquba Vətəndi əziz Muğan da,
Məğrura yer verib çünki qoynunda,
Dünya da Vətənə yöndü çadırda.

Şair Moşu:

- Ayə, halal olsun bu şair Məğrura. Əmbə, aşıx Məddah, bu sözdəri bir-iki məclisdə belə zənguləynən oxusan, camaat Mu-

ğan yaylaxlarına çıxmax üçün elliknən bazara tökülüf çadır axtarajax. Özün bilersən indi çadır tapmasalar üsyan eliyəllər. Bu da prezident seçkisi qampaniyasına ziddi. Məndə cəmi bir milyon çadır qalmışdı, onu da YAP-a bağışlamışam. Çünki onların əksəriyyəti vəzifə sahibidi. Yaylaxda bayırda qalmaları millətin adına pis gələr. Yanı hamının birdən-birə qolleqtiv çadıra çıxmasının bu çətinlikləri var. Qandınmı, aşıx Məddah?

Aşıx Məddah:

- Qandım, Moşu qağa, qandım. İndi də zənguləsiz oxuyaram. Məndən nə geder ki?

PSQXF-dən aldığımız xavara görə, Moşu Göyəzənlinin Muğandakı çadırlar şəhərinə özək yapmağa gedəcəyi gözləniler. Başqan ordakı 4 və 5 saylı çadırlara qalxajax və havasını, suyunu dəyişəndən sonra geri dönəjək.

Qələmə aldı:
Amil AVEY
13.12.1997

IX FƏSİL

XATİRƏ ALBOMU



Cəbrayıl şəhəri



“Xan Çinar” kəhrizi

Cəbrayıl rayonu
Böyük Mərcanlı kəndindən bir görüntü

Yaqub Məğrurun anası Saçlı xanım və atası Əmirqulu kişi

Tələbəlik illəri

Tələbə yoldaşları Ədalət, Telman və Mübarizlə

Müəllim yoldaşları Şahlar və Sevindiklə



Şair dostu Fərzalı Abbasəlioğlu və İbrahim Çələbi ilə

Gəncədə Cavad xanın qəbrini ziyarət edərkən

Tədbirdə çıxış edərkən

Ömür gün yoldaşı Məlahət xanım və bacısı Zeynəb xanımla



37 yaşlı
Yaqub Məğrur

Şairin oğlu
Bayram

Ailə üzvləri ilə birlikdə

“Təhqiqat” qəzeti redaksiyasında iş başında

Redaksiyanın əməkdaşı Məzahirlə

“Peşəkar jurnalist” diplomu təqdim edilərkən

Qələm dostları ilə Əliağa Vahidin büstü qarşısında

Yazıçı Əlisahib Əroğul (ortada) və Kamil müəllimlə

MÜNDƏRİCAT

DUYĞULARIMIN SƏSİ
REDAKTOR SÖZÜ 6

I FƏSİL
AX..., BİÇARƏ VƏTƏNİM!

QEYRƏT NƏĞMƏSİ 15
SOYQIRIM GÜNÜ 18
SƏLİB YÜRÜŞÜ 20
AX..., BİÇARƏ VƏTƏNİM! 22
TANRI BİZİ BAĞIŞLAMAZ 24
KİMİN NƏVƏSİDİR 25
HƏMRƏYLİK GÜNÜ 28
DAĞLAR 30
SÖZ 31
BAYATILAR 34
AFORİZMLƏR 37
CƏBRAYILIN DAŞ SİPƏRİ DAŞBAŞI... 38
DAŞBAŞI ŞƏHİDLƏRİ 42
EYLƏSİN 45
ŞƏHİDLƏR ÖLMƏZDİ, ULUDU, MÜSLÜM! 46

II FƏSİL
TALEYİMİN QİSMƏTİ

VƏTƏN ÜÇÜN AĞLAYIRAM 51
QARABAĞI TEZ ALAYDIM 53
GOR GƏZİRƏM 54
TALEYİMİN QİSMƏTİ 55
ACI TALE 58

ƏSMƏ, ƏLLƏRİM, ƏSMƏ! 59
VAXTI GƏLƏR 60
HARA QƏDƏRDİR 61
MƏN DƏ AZƏRBAYCANAM 62
DÖNƏCƏYƏM MƏĞRUR KİMİ VƏTƏNƏ 64
SÖZÜM VAR 66
BADA GEDƏRSƏN 67
BEZMİŞƏM DÜŞMƏNİN
LUĞAZINDAN, HEY!. 68
ÇADIRDAN QƏBİRƏ 69

III FƏSİL
MİN EVLİ MƏRCANLIM, OY!..
(Təsviri epopeya)

I HİSSƏ 79

IV FƏSİL
TƏSVİRLƏR,
TƏRƏNNÜMLƏR, TƏBRİKLƏR

ARZULARIN ÇİN OLSUN 105
EL AĞSAQQALI 106
ANA 107
NURİDƏ 108
NOVRUZ BAYRAMI 109
AYLAR, İLLƏR, FƏSİLLƏR 112
QONŞU 114
AY ETİBARSIZ... 115
ŞÜKÜR 116
AYIRMASIN BİZİ ÖLÜM 117
QAYIDASAN YURDUNA 118
QİSMƏTİN OLSUN 119
BƏNZƏYƏSƏN QIZIL GÜLƏ 120
NƏVƏ ADLI PAYIMSAN 121

BÖYÜK TOYUN OLAYDI 122
GÜL PAYISAN 123
HƏMİŞƏ ÇIRAQ OLSUN 123
ÇÖKMÜŞ EVİN DİRƏYİ 124
NUR KİMİ 125

V FƏSİL
YARADAN EYLƏSİN
MƏRHUMA RƏHMƏT

BABASI KƏRBƏLAYI, ATASI MƏŞHƏDİ,
OĞLU HACI OLAN KİŞİ 129
YARADAN EYLƏSİN
MƏRHUMA RƏHMƏT 135
ƏLİ ÖLDÜ DEMƏYİN! 137

VI FƏSİL
YENİDƏN DÜNYAYA
GƏLMƏYİM GƏLİR

GÖZƏLƏ SÖZ ATMAQ
MƏHƏBBƏT DEYİL 145
GƏNCLİYİMDƏN GƏLƏN QIZ 147
YENİDƏN DÜNYAYA
GƏLMƏYİM GƏLİR 149
TANRI HƏDİYYƏSİ 150
SEVDALI GÜNLƏRİN SONU ÇATIBMIŞ ... 151
TUFAN MƏLƏYİ 152
BƏSİMDİ 153
EŞQ YOLUNA SƏYAHƏT 154
BAĞIŞLA ƏZİZİM, VURULMUŞAM MƏN 155

VII FƏSİL
HƏR AĞAC BAR YETİRMƏZ

MİLLƏTİNƏ ATAN "KİŞİ" 159
HƏR AĞAC BAR YETİRMƏZ 160
SAĞMAL KİMİ SAĞIRIQ 162

MƏNƏ SÖZ QAYTARANI... 163
ƏLLİ YAŞLI GÖZƏLÇƏ 165
QILMANIN 167

VIII FƏSİL
POEZİYA MƏBƏDİ
(Y.Məğrur haqqında deyilənlər, yazılanlar)

MİNNƏTDARLIQ 171
YAQUB MÜƏLLİM! 171
AY ŞAİR QARDAŞ 173
DÖZMƏDİ ÜRƏYİM GÖZ YAŞLARINA... 174
POEZİYA MƏBƏDİ 176
TAPARSAN 177
YAQUB MƏĞRUR YARADICILIĞININ
XƏLQİLİYİ VƏ VƏTƏNPƏRVƏRLİYİ 178
İZTİRABDAN YOĞRULMUŞ POEZİYA 181
AXTARIŞ VARSA, TAPINTI DA OLAR 186
ÖZÜNÜ AXTARAN İNSAN 191
YAQUB MƏĞRUR YARADICILIĞI MÜASİR
GƏNCLİYİMİZ ÜÇÜN BÖYÜK TƏRBİYƏVİ
ƏHƏMİYYƏTƏ MALİKDİR 194
YAQUB MƏĞRURUN ŞEİRLƏRİ VƏTƏN
HARAYIDIR 197
YAQUB MƏĞRUR DƏRDDƏN DOĞULUB 200
ƏLLİ İLLİYİN MÜBARƏK OLSUN,
YAQUB MƏĞRUR! 204
TƏBRİK 205
TƏBRİK 206
MOŞU GÖYƏZƏNLİYƏ MƏKTUFLAR 207

IX FƏSİL
XATİRƏ ALBOMU

FOTO ŞƏKİLLƏR 214